# AZƏRBAYCAN TARİXİ

# 7

DƏRSLİK













Layihə





# Azərbaycan Respublikasının Dövlət Himni

*Musiqisi Üzeyir Hacıbəylinin,*
*sözləri Əhməd Cavadındır.*

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

Ləyihə



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

Layihə

PƏRVİZ AĞALAROV
NİYAMƏDDİN QULİYEV
HAFİZ CABBAROV
ELNUR HÜSEYNOV
RAMİL TANRIVERDİ

Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün

# AZƏRBAYCAN TARİXİ

fənni üzrə

DƏRSLİK

Layihə

© "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**info@eastwest.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB



# MÜNDƏRİCAT

## I BÖLMƏ


1. Azərbaycan VII yüzillikdə ........ 8
2. Azərbaycan Xilafətin tərkibində ........ 18
3. Azərbaycanda dövlətcilik ənənələrinin dirçəlişi ........ 28
4. Azərbaycan Böyük Səlcuq imperiyası dövründə ........ 38
5. Eldənizlər dövləti ........ 46


## II BÖLMƏ


6. Şirvanşahlar dövləti ........ 52
7. IX–XIII əsrlərdə Azərbaycanda sosial-iqtisadi vəziyyət ........ 56
8. Mədəniyyət ........ 60




9. Azərbaycanda monqolların hakimiyyəti ........ 70

10. Şirvanşahlar dövləti və Şəki hakimliyi ........ 86


III BÖLMƏ


11. Mədəniyyət ........ 90

12. Qaraqoyunlu (Baharlı) dövləti ........ 96

13. Ağqoyunlu (Bayandurlar) dövləti ........ 100

14. Səfəvi dövlətinin qurulması ........ 108

15. Səfəvi-Osmanlı münasibətləri ........ 120

16. Dövlət idarəçiliyi və sosial-iqtisadi vəziyyət ........ 128

17. Mədəniyyət ........ 136





Skan edin!

**QR** kodu skan etməklə siz mövzu ilə bağlı hər hansı bir məlumatı əldə etmək üçün **ORİENT Aİ-yə** (süni intellekt) müraciət edə bilərsiniz.

Qeyd. QR kodların daxilində **ORİENT Aİ** yerləşdirilmişdir.

# Əziz məktəblilər!

Siz 6-cı sinifdə Azərbaycan tarixi fənnini öyrənməklə ölkəmizin qədim və erkən orta əsrlərin əvvəlləri tarixi haqqında mühüm biliklər əldə etdiniz. Bu biliklər vasitəsilə Azərbaycanın keçdiyi tarixi yol, xalqımızın formalaşması və dövlətçilik ənənələrinin əsasları ilə tanış oldunuz.

7-ci sinifdə Azərbaycan tarixi fənnini öyrənməklə siz orta əsrlər dövründə ölkəmizdə baş verən aşağıdakı mühüm siyasi, sosial-iqtisadi və mədəni prosesləri daha dərindən öyrənəcəksiniz:

- ✓ Azərbaycanın VII yüzillikdəki vəziyyəti və Xilafətin tərkibində inkişaf mərhələləri;
- ✓ Azərbaycan dövlətçiliyinin dirçəlişi və müstəqil siyasi qurumların yaranması;
- ✓ Azərbaycanın Böyük Səlcuq imperiyası dövründəki mövqeyi;
- ✓ Eldənizlər, Şirvanşahlar, Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətlərinin daxili və xarici siyasəti;
- ✓ IX–XIII əsrlərdə Azərbaycanda sosial-iqtisadi həyat;
- ✓ Orta əsrlər Azərbaycan mədəniyyəti, elm və ədəbiyyatın inkişafı;
- ✓ Monqol işğallarının Azərbaycana təsiri;
- ✓ Cəmiyyətin quruluşu, dövlət idarəçiliyi və beynəlxalq münasibətlərdə Azərbaycanın mövqeyini.

Bu fənni öyrənməklə siz tarixi hadisələri təhlil etməyi, səbəb–nəticə əlaqələrini müəyyənləşdirməyi və tarixi şəxsiyyətlərin fəaliyyətini qiymətləndirməyi bacaracaqsınız.

Azərbaycan tarixi fənni sizdə aşağıdakı mühüm keyfiyyətlərin formalaşmasına xidmət edəcəkdir:

- milli mənəvi dəyərlərə hörmət etmək;
- tarixə və mədəni irsə qayğı ilə yanaşmaq;
- tarixi hadisələrə məntiqi yanaşmaq, müstəqil araşdırma aparmaq;
- vətəndaşlıq məsuliyyəti və vətənpərvərlik duyğuları formalaşdırmaq
- dövlətin mahiyyətini anlamaq, hakimiyyət və xalq arasında münasibətləri dərk etmək.

Unutmayın ki, tarix sizə yalnız keçmişi öyrənmək deyil, həm də baş verən hadisələrdən düzgün dərs çıxarmaq üçün lazımdır. Azərbaycan tarixini öyrənmək sizə milli kimliyinizi daha aydın dərk etməyə və ləyaqətli vətəndaş kimi formalaşmağa kömək edəcəkdir.

Vətənimizin tarixini sevərək və maraqla öyrənəcəyinizə inanır, sizə bu yolda uğurlar arzulayırıq!

Layihə

## Şərti işarələr

Açar söz — Sual — Tapşırıq — Mənbə

# 1 Azərbaycan VII yüzillikdə

"Kitabi-Dədə Qorqud", Xosrov Pərviz, Bələncər döyüşü, Bul Şad, Cavanşir, Mehranilər sülaləsi

## Türklərin yeni axınları və Azərbaycan

III–VII yüzilliklər türklərin Azərbaycana ikinci axınları dövrü hesab edilir. Sabirlərin və xəzərlərin Sasanilər üzərində qələbələri Azərbaycanda türklərin mövqelərini get-gedə gücləndirirdi. Mənbələrdə bu dövrdə ayrı-ayrı türk tayfalarının: kəngərlərin, bulqarların, barsillərin, sabirlər və xəzərlərin Azərbaycan torpaqlarında yerləşdikləri qeyd olunur. Qəbələ sabirlərin, Şəki sakların, Şamaxı isə kəngərlərin möhkəmləndikləri bölgələrimizdən sayılırdı.

T

Ölkəmizdə türk dilinin əsas ünsiyyət vasitəsi olmasının səbəblərini araşdırın.

Bu axınlar nəticəsində türk dili Azərbaycanda əsas ünsiyyət vasitəsinə çevrilməyə başlamışdı. VII yüzillikdə Azərbaycan türk ədəbiyyatının "Kitabi-Dədə Qorqud" kimi möhtəşəm dastan yarandı. Dastan ölkəmizdə məskunlaşan Oğuz tayfalarının tarixi haqqında qiymətli mənbə hesab olunur.



Dədə Qorqud

"Kitabi-Dədə Qorqud"un əlyazması




layihə



Oğuz süvariləri

## Sasanilər və Azərbaycan

III yüzillikdə Azərbaycanın həm şimalı, həm də cənub hissəsi Sasani dövlətinin tərkibinə daxil edilmişdi. Sasanilərin Azərbaycanda möhkəmlənməsinə aşağıdakı amillər mane olurdu:

- ✓ *Azərbaycan əhalisinin əksəriyyətinin türk olması və onların tanrıçılığa inanması;*
- ✓ *Roma imperiyası, xüsusilə, onun şərq qanadı olan Bizansla aparılan müharibələr;*
- ✓ *Azərbaycanın şimal hissəsində – Albaniyada – xristianlığın yayılması;*
- ✓ *Şimaldan türk tayfalarının axınları.*

Sasanilər türklərin şimaldan yeni axınlarına mane olmaq üçün Dərbənd səddini möhkəmləndirir, həmçinin, ölkəmizə irandilli tayfalar köçürürdülər. İrandilli tayfalar, əsasən, türk axınlarının baş verdiyi Xəzərsahili bölgələrə yerləşdirilirdi.

Alban tarixçisi Musa Kalankatlı yazırdı ki, Dərbənd istehkamını möhkəmləndirmək üçün "*İran şahları ölkəmizi əldən saldılar*": tikinti işləri yerli əhalidən toplanan vəsait hesabına aparılır, tikintidə onların əməyindən istifadə olunurdu.



Türk süvariləri

Layihə

## Bizans və Azərbaycan

Nə üçün Bizans türklərin Azərbaycanda möhkəmlənməsində maraqlı deyildi?

Azərbaycanda möhkəmlənmək istəyən Bizans daha çox xristianlıqdan istifadə etməyə çalışırdı. Urnayr və III Vaçaqanın dövründə xristianlıq dövlət səviyyəsində himayə edilirdi. Lakin türklərin tanrıçılığa sitayiş etməsi və ölkəmizin cənubunda atəşpərəstliyin hakim olması xristianlığın möhkəmlənməsinə mane olurdu. Sasanilər dövləti də xristianlığın yayılmasını istəmirdi.

Şimaldan və qərbdən türklərlə qonşu olan Bizans türklərin Azərbaycanda möhkəmlənməsində maraqlı deyildi.

## Azərbaycan uğrunda Türk-Sasani-Bizans müharibələrinin son mərhələsi

VII yüzilliyin əvvəllərində Azərbaycan uğrunda türklər, sasanilər və Bizans arasında aparılan mübarizə daha da kəskinləşdi.

Sxem əsasında danışın.




Sizcə, güclü dövlətlərin əhatəsində olan bir ölkənin təhlükəsizliyini və müstəqilliyini necə təmin etmək olar?

Bu dövrü müasir Azərbaycanın siyasi vəziyyəti ilə müqayisə edərək indi hansı böyük dövlətlərin əhatəsində olduğumuzu deyin.

Lavinə



Xosrov Pərvizin elçiləri Türk xaqanının hüzurunda

Bizansda taxt-tac uğrunda gedən çəkişmələrdən istifadə edən Sasani hökmdarı Xosrov Pərviz müharibəyə başladı. O, apardığı uğurlu yürüşlər nəticəsində vaxtilə güzəştə getdiyi Suriyanı, Şərqi Anadolunu və Tiflisi tutdu. Qorxuya düşən Bizans imperatoru kömək üçün Qərbi Göytürk xaqanının yanına elçilər göndərdi. Xosrov Pərviz isə avarları və bulqarları öz tərəfinə çəkərək onların köməyi ilə Konstantinopolu mühasirəyə aldı.

Bizans mənbələri 626-cı ildə imperator İraklinin sasanilərə qarşı xəzər adlanan türklərlə ittifaqa girdiyini qeyd edir. Bu dövrdə Qərbi Göytürk xaqanlığına tabe olan xəzərlər sasanilərə qarşı Bizansla müttəfiqlik etməyə razı oldu. Bizansa köməyə gedən qoşuna xaqan öz oğlunu başçı təyin etdi.

Musa Kalankatlı yazırdı: "Türk xaqanı hakimiyyəti altında olan dağlılara, aranlılara, şəhərlilərə, köçərilərə, bütün xalqlara, tayfalara silahlanaraq sasanilərə qarşı müharibəyə hazır olmağı tapşırdı".

Bu yürüşdən qorxuya düşən Sasani şahı Xosrov Pərviz də Türk xaqanının yanına danışıqlar aparmaq üçün adamlar göndərdi.

Xosrov Pərviz xaqana göndərdiyi məktubunda yazırdı:

*"Sizlər, doğrudanmı, məndən qorxaraq didərgin düşüb Qərb dənizindəki adalarda gizlənən Bizans imperatorunun dəvəti ilə mənim ölkəmə girdiniz? Əgər sizə ondan qızıl, gümüş və cavahirat, incilərlə süslənmiş bahalı geyimlər lazımdırsa, mən ondan ikiqat çoxunu verərəm..."*

**MUSA KALANKATLI**
*"Ağvan tarixi" kitabından*

Lakin Bizansla dostluğa sadiq qalan türklər Sasani ordularını geri çəkilməyə məcbur etdilər. 628-ci ilin yazında Qərbi Göytürk xaqanlığının əsas zərbə qüvvəsini təşkil edən xəzərlər Tiflisi tutdular.

Türklərin tələbi ilə 25 ildən çox Sasani sarayında girov saxlanılan alban katolikosu da azadlığa buraxıldı.

## Albaniya xəzərlərin hakimiyyəti altında

Azadlığa çıxan alban katolikosu xəzərlərin başçısının yanına gətirildi. Xristian albanların dinlərinə də hörmətlə yanaşan başçı katolikosu hörmətlə qarşıladı. Onun alban əsirlərini azad etməklə bağlı xahişini yerinə yetirdi.

629-cu ildə Türk xaqanı Albaniyadan qərbdə yerləşən əraziləri də fəth etmək üçün bölgəyə əlavə üç minlik qüvvə yeritdi.

Bul Şad Vironu hörmətlə qarşılayaraq çadırda öz yanında oturtdu. Katolikosun üzünə xeyli baxdıqdan sonra dedi: “Sənin görkəmin Tanrının sifətidir. Mən atam Yabqu xanın canına and içirəm ki, nə arzun olsa, yerinə yetirəcəyəm. Sən isə öz ölkənin əhalisinə doğma evlərinə qayıtmaları və öz işləri ilə məşğul olmalarına göstəriş ver.

...atam Ağvanı, Çoğanı və Lpiniyanı mənim əbədi mülkiyyətimə verib. Biz (albanlar və türklər nəzərdə tutulur) doğma qardaş və soydaşıq”

**MUSA KALANKATLI**
*“Ağvan tarixi” kitabından*




Layihə



Göyçə gölü ətrafında döyüş

Bu dövrdə Albaniya ərazisi türklərin "Ön Asiyanı fəth etmək yolunda istinadgahına" çevrilmişdi. 630-cu ildə Göyçə gölü ətrafındakı döyüşdə türk ordusu ənənəvi Turan taktikasından istifadə etməklə Sasani ordusunu darmadağın etdi.

**BUNU BİLMƏK MARAQLIDIR**

**Ox necə hazırlanırdı**

*Türklər ox çubuğunu hazırlamaq üçün payızın son ayında, ağacların qış yuxusuna getdikləri dövrdə, qayın ağacının gövdəsinin yuxarı hissəsini kəsirdilər. Ağacın kəsilən yerdən budaqsız hissəsi ox materialı olaraq ayrılırdı. Həmin hissə kəsici alətlərlə iki barmaq qalınlığında çubuqlara ayrılır və təmizlənirdi. Düzəldilən çubuq iki ay qurudulurdu.*

*Ox türklər üçün müqəddəs alət idi. Oğuz xaqan Tanrı səadəti (kut/qut) olaraq oğlanlarına ox-yay vermişdi. Türk hökmdarından ox alan bəy öz ölkəsinin müstəqil hakimi olurdu. Hun və Oğuz adlarının da "ox"dan yarandığını nəzərə alsaq, bu alətin türk həyatındakı yeri aydın olur.*

Layihə



Alban knyazı Cavanşirin Sasani ordusunun tərkibində ərəblərə qarşı savaşı. Rəssam Əlibala Kazımov

## Albaniyada Mehranilər sülaləsinin hakimiyyətə gəlməsi

Türk xaqanının hakimiyyətdən uzaqlaşdırılması xəzər qoşunlarının xeyli hissəsinin Albaniyadan çəkilib getməsinə səbəb oldu. 629-cu ildə Bizansla imzalanan müqaviləyə əsasən Albaniya Sasanilərin təsir dairəsində saxlanıldı. Lakin Cənubi Qafqazda Sasanilərin nüfuzunun türklər tərəfindən sarsıdılması və dövlətin paytaxtı Mədaindəki saray çəkişmələri Mehranilər sülaləsinin Albaniyada hakimiyyətə gəlməsinə şərait yaratdı.

Bu sülalənin ən məşhur hökmdarlarından biri Cavanşir olmuşdur. Hələ gənc yaşlarında atası onu ərəblərlə vuruşan Sasanilərə köməyə göndərmişdi.

Ərəblərlə savaşlarda qəhrəmanlıq göstərdiyinə görə Sasani şahı onu bahalı hədiyyələrlə mükafatlandırmışdı. Sasanilər dövlətinin dalbadal məğlubiyyətə uğradığını görən Cavanşir Albaniyaya qayıtmağa məcbur oldu. O, əvvəlcə ərəblər tərəfindən məğlub edildikdən sonra ölkəmizə soxulan Sasani hərbi dəstələrini darmadağın etdi. Cavanşir 642-ci ildə atasının xeyir-duası ilə taxta çıxdı.

## Müsəlmanların Azərbaycana ilk yürüşləri

630-cu ildə indiki Ərəbistan yarımadasında ilk İslam dövləti meydana gəldi. "İslam" sözü ərəb dilində "Allaha tam təslim olmaq" mənasına uyğun gəlir. İslam dinini qəbul edənlər müsəlman adlandırılırdı.

Məhəmməd peyğəmbərin vəfatından sonra bu dövləti xəlifələr idarə etməyə başladı. Ona görə də İslam dövlətinə **Xilafət** də deyilirdi.

Bizansı və Sasaniləri ağır məğlubiyyətə uğradan müsəlmanlar VII yüzilliyin 30-cu illərinin II yarısında Azərbaycan sərhədlərinə çatdılar. Müsəlmanlarla ilk toqquşmada məğlub olan Azərbaycanın Sasani mərzbanı İsfəndiyar onlarla sülh müqaviləsi imzaladı.

S

Aşağıda verilən mənbələrdən hansı nəticələrə gələ bilərsiniz?

Müsəlman sərkərdəsi ilə Azərbaycan mərzbanı arasında imzalanmış müqavilənin mətnində deyilirdi:

*"Bismillahi-r-rəhmani-r-rəhim (Mərhəmətli və Bağışlayan Allahın adı ilə).*

*Əmir-əl-möminin (Möminlərin əmiri) Ömər ibn Əl-Xəttabın canişini Utba ibn Farkad Azərbaycanın vadilərindəki, dağlarındakı və ucqarlarındakı əhalisinə, dini icmalarına, dinlərinə və ayinlərinə əmin-amanlıq verir. Bu şərtlə ki uşaqlardan, qadınlardan, dünya malından heç nəyi olmayan ... xəstələrdən, tərki-dünya abidlərdən savayı, onlar gücləri çatdıqları qədər cizyə (can vergisi) ödəsinlər... Onlardan kim hansı ildə orduya cəlb olunsa, o həmin ilin vergisindən azad olunur. Kimsə daimi yaşamaq üçün (burada) məskən salsa, (bu) qaydalar ona da şamil ediləcək. (Ölkəni) tərk edənlərə isə sığınacaqlarına yetişənəcən aman verilir".*

**N.M.VƏLİXANLI**
*"Ərəb xilafəti və Azərbaycan"*

"Aman" adlanan bu cür müqavilələr sonralar Azərbaycanın digər bölgələrinin əhalisi ilə də imzalandı.

Başqa bir müsəlman sərkərdəsi Bukeyr ibn Abdullahla Muğan əhalisi arasında imzalanmış müqavilənin mətni:

"Bismillahir-r-rəhmani-r-rəhim. Bu fərman Bukeyr ibn Abdullah tərəfindən Muğan əhalisinə, onların şəxsiyyəti, əmlakı, dini və qanunlarını mühafizə etmək haqqında verilən amandır. Nə qədər ki onlar üzərlərindəki hakimiyyəti qəbul edib ərəblərə xeyirxahlıqla yanaşırlar, onlara əmin-amanlıq təmin olunur".

**Z.M.BÜNYADOV**
*"Azərbaycan VII–IX əsrlərdə"*

Layihə



Bələncər döyüşü

T

Xəzərlərin ilk döyüşlərdə ərəblərə qalib gəlməsinin səbəblərini araşdırın.

Bir-birinin ardınca Naxçıvanı, Beyləqanı və Bərdəni ələ keçirən ərəblər daha sonra Dərbəndi fəth etdilər. Dərbənddən şimala yönələn islam orduları **643-cü ildə Bələncər yaxınlığında** xəzərlər tərəfindən məğlub edildi. On il sonra baş vermiş ikinci **Bələncər döyüşündə** də xəzərlər qalib gəldi.

## Cavanşirin Albaniyanın müstəqilliyini qorumaq uğrunda mübarizəsi

S

Dövlət müstəqilliyini qorumaq üçün nə etmək lazımdır?

VII yüzilliyin 50-ci illərində Albaniya o dövrün ən qüdrətli dövlətləri ilə – şimaldan Xəzər xaqanlığı, cənubdan Ərəb xilafəti, qərbdən isə Bizansla qonşu idi. Cavanşir **Bizans imperatoru** ilə müttəfiqlik əlaqəsi yaratdı və bir neçə dəfə onunla görüşdü. Lakin Xilafət qoşunlarına məğlub olan Bizans alban hökmdarına ciddi kömək göstərə bilmədi.

Belə bir şəraitdə Cavanşir ölkəsini qorumaq üçün Xəzər xaqanı ilə qohumluq əlaqəsi qurdu. Bununla da, o Xəzər xaqanlığı ilə müttəfiq oldu.

Ölkənin cənub sərhədlərinin təhlükəsizliyini təmin etmək məqsədilə Cavanşir Xilafətin paytaxtı Şam (Dəməşq) şəhərinə gedərək **xəlifə Müaviyə** ilə görüşdü. Xəlifə Müaviyə alban hökmdarı ilə dostluq əlaqələrinin yaradılmasında maraqlı idi. Çünki bu dövrdə Mərkəzi Asiyada türklərlə, Yaxın Şərqdə isə Bizansla savaş halında olan xilafət Qafqazda sabitliyin tərəfdarı idi. Buna görə də xəlifə Albaniyadan alınan vergilərin miqdarını xeyli azaltdı və onun daxili müstəqilliyinə toxunmadı. Beləliklə, Cavanşir öz ölkəsini qonşu dövlətlərin dağıdıcı hücumlarından qoruya bildi. Lakin onun xəlifə ilə yaxınlaşması bizanspərəst feodalları narazı salmışdı. Buna görə də onlar Cavanşirə sui-qəsd təşkil etdilər. 681-ci ildə müdrik Alban hökmdarı öldürüldü.



Cavanşir

Cavanşirin ölümündən sonra Albaniya yenidən xəzərlərlə ərəblər arasında savaş meydanına çevrildi. Onun varisləri Cavanşirin siyasətini davam etdirə bilmədilər.

VII yüzilliyin sonlarında Xilafət bütün gücünü Qafqaza yönəldərək bölgədə üstünlüyü ələ aldı. Cənubi Qafqazda tam möhkəmlənmək məqsədilə 705-ci ildə Mehranilərin hakimiyyətinə və Albaniya dövlətinin varlığına son qoyuldu.

S Xilafətin Qafqazda möhkəmlənməsində məqsədi nə idi?

T Zaman oxunda verilmiş tarixlərə aid hadisələri müəyyən edin.

262-ci il → 626-cı il → 628-ci il → 629-cu il → 643-cü il

# 2 Azərbaycan xilafətin tərkibində

Xəzər-ərəb müharibələri, Abbasilər, torpaq mülkiyyəti, Babək, Xürrəmilər hərəkatı



Xəzər oxçusu

## Azərbaycan uğrunda xəzər-ərəb müharibələri

Xəzər xaqanı Cavanşirin öldürülməsi və Albaniya dövlətinin varlığına son qoyulması ilə barışmaq istəmirdi. Böyük ordu ilə hücuma keçən xəzərlər xilafət qüvvələrini darmadağın edib indiki İraq ərazisində yerləşən Mosula qədər irəlilədilər. Araz çayından cənubdakı Azərbaycan torpaqları da Xəzər xaqanlığının nəzarəti altına keçdi.

Lakin bir qədər sonra güclü ordu toplayan ərəblər əkshücuma keçdi. Muğanda bir neçə gün davam etmiş qanlı döyüşlərdən sonra xəzərlər Dərbəndə doğru sıxışdırıldı. Ərəb sərkərdələri əsir tutduğu xəzərlər döyüşçülərinə qarşı amansız rəftar edirdilər. Məqsəd rəqibin gözünü qorxutmaq idi.

Ərəb-Xəzər müharibələrinin gedişində Cənubi Qafqaz türkləri də Xəzər xaqanının ordusuna qoşulmuşdular. Yerli türklərlə birləşən xəzərlər işğalçı ərəbləri əvvəlcə Dərbənddən vurub çıxardılar. Sonra isə onları Azərbaycanın cənubuna çəkilməyə məcbur etdilər.

VIII yüzilliyin 30-cu illərində **Ərdəbil** yaxınlığında baş verən döyüşdə xəzərlər parlaq qələbə qazandılar. Cənubi Azərbaycanı da ələ keçirən Xəzər ordusu yenidən Mosula qədər irəlilədi.

> “112-ci (miladi 730-cu) ildə Əl Cərrah ibn Abdullah yanındakı Suriya orduları ilə xəzərləri qarşılayıb döyüşə girdi. İndiyə qədər heç kəs belə döyüş görməmişdi. Yanındakı döyüşçülərlə Əl Cərrah Ərdəbil düzündə şəhid oldular. Onun öldürülməsindən sonra xəzərlər ölkənin içərilərinə o qədər irəlilədilər ki, Mosula gəlib çıxdılar. Müsəlmanlar üçün bu, böyük fəlakət idi”.
>
> **İBN ƏL ƏSİR**
>
> *“əl-Kamil fi-t-tarix” (Kamil tarix)*

Layihə

Layihə



Xəzər süvarisi



Ərəb süvarisi

Hər iki süvarinin geyim və silahlarını müqayisə edin. Fərqləri və oxşarlıqları müəyyənləşdirin.

Xəlifə bütün qüvvələri səfərbərliyə aldı. Hərbi əməliyyatlar zamanı xəzərləri məğlub etmək üçün ərəblər su quyularını belə zəhərləmişdilər. Ərəb orduları xəzərləri Dərbənddən şimala sıxışdıra bildilər.

Hücumu davam etdirən təcrübəli sərkərdə Mərvan ibn Məhəmməd tezliklə Xəzər xaqanlığının paytaxtını mühasirəyə aldı. Xaqan islam dinini qəbul etməyə məcbur olub ərəblərlə sülh bağladı. Bundan sonra xəzər türkləri arasında islam dini yayılmağa başladı. Qüvvələri zəifləmiş ərəblər bundan sonra şimala doğru yürüşlərini davam etdirə bilmədilər və geri döndülər.

Beləliklə, fasilələrlə yüz ildən artıq davam edən **Xəzər-ərəb müharibələri** dayandı. Xəzərlər ərəblərin Şərqi Avropanı tutmasına da imkan vermədilər. Xəzərlər isə şimaldan Xilafət üzərinə talançı yürüşlərin qarşısını almalı idilər.

Xəzər xaqanı İosif yazırdı: *“Mən İdil (Volqa) çayının ağzını qoruyuram və gəmilərə minib gələn rusları dənizdən keçib ərəblərin üstünə getməyə qoymuram, quru yolla Dərbəndə yaxınlaşmalarına imkan vermirəm... Əgər mən onları rahat buraxsam, onlar ərəblərin ölkəsini Bağdada qədər məhv edərlər”.*

**P.K.KOKOVTSEV**
*“X yüzillikdə yəhudi-xəzər yazışmaları”*

## Xilafət dövründə Azərbaycanın idarə edilməsi

Ərəblər tutduqları ölkələri xəlifənin təyin etdiyi canişinlər vasitəsi ilə idarə edirdilər. Canişin **əmir** adlanırdı.

Azərbaycan torpaqları ayrıca əmirliyə daxil idi. Onun şimal sərhədi **Dərbənd,** cənub sərhədi **Həmədan** şəhəri müəyyən edildi. Azərbaycan əmirliyinin şərq sərhədi **Xəzər dənizi,** qərb sərhədi **Van gölü ətrafındakı ərazilər** idi.




Layihə



Şəklə əsasən qədim və müasir dövrdə istifadə edilən rabitə vasitələrini müqayisə edin.

Xilafət dövründə rabitə

Şəriət qaydaları əsasında təşkil edilən məhkəmələrə **qazı** başçılıq edirdi. Xilafətin paytaxtı və əyalətlər arasında rabitə xidməti də yaradılmışdı. Bu işdə təlim görmüş göyərçinlərdən və sürətlə qaçan ərəb atlarından istifadə edilirdi.

## Torpaq mülkiyyəti

Torpaq mülkiyyətinin aşağıdakı formaları var idi:

| TORPAQ MÜLKİYYƏTİ | XÜSUSİYYƏTLƏRİ |
|---|---|
| Dövlət torpaqları | • əsas torpaq mülkiyyət idi. Onları idarə etmək üçün divan yaradılmışdı |
| İqta | • dövlətə xidmət müqabilində verilən şərti torpaqlar idi. Sonralar tədricən irsən keçməyə başlamışdı |
| Mülk | • irsən keçən şəxsi torpaqlar olub, alına-satıla bilirdi |
| Vəqf torpaqları | • dini idarələrə məxsus torpaqlardır |
| İcma torpaqları | • kənd əhalisinin ümumi istifadəsində olan otlaqlar, meşəliklər, qəbiristanlıqlar və s. idi |

Layihə

## Vergilər

Şəklə və mətnə əsasən “Xilafət dövründə şəhər və kənd həyatı” adlı hekayə hazırlayın.

Xilafətin vergi siyasəti ilk xəlifələr dövründə öz ədalətliliyinə görə fərqlənirdi. Vergilər ayrı-ayrı şəxslərdən deyil, bütün ölkədən alınırdı. **Xəlifə Əlinin (656–661-ci illər)** dövründə əsas diqqət vergilərin toplanmasına deyil, torpağın becərilməsinə yönəldilmişdi.



Xilafət dövründə şəhər və kənd həyatı

Xəlifə Əli Misirə əmir təyin etdiyi Əl-Əştərə məktubunda yazırdı: *“Əsas diqqətini xərac yığmağa yox, torpağın becərilməsinə ver... Xərac ancaq becərilən torpaqlardan alına bilər və hər kəs torpağın becərilməsini hesaba almadan xərac tələb edirsə, ölkəni var-yoxdan çıxarar... Əgər xalq vergilərin ağırlığından və yaxud hər hansı təbii fəlakətdən, suvarmanın kəsilməsindən ... öz narazılığını bildirirsə, onların dərdlərini öz bildiyin yolla yüngülləşdir”.*

**Z.M.BÜNYADOV**
*“Azərbaycan VII–IX əsrlərdə”*

Vergilər yalnız becərilən torpaqlardan alınmalı idi. Sonralar vergilərin toplanma qaydası dəyişdirildi. Vergilər bütöv icmadan deyil, adambaşına alınmağa başladı.

Əhali, əsasən, xəzinəyə torpaqdan istifadəyə görə **xərac,** müsəlman olmayanlar isə həm də can vergisi olan **cizyə** verirdi. 725-ci ildə Azərbaycanda əhali, torpaq, mal-qara və bütün digər əmlak siyahıya alındı. Əlavə vergilər təyin edildi. Sasanilər dövründəki vergilər bərpa edildi. Bu vergi siyasəti nəticəsində təkcə yoxsullar deyil, yerli feodallar da müflisləşdi.

750-ci ildə Xilafətdə hakimiyyət dəyişikliyi baş verdi. Əməviləri **Abbasilər (750–1258-ci illər)** sülaləsi əvəz etdi. Abbasilər dövründə əkilib-becərilməyən torpaqlardan da vergilər alınmağa başladı.

Xəlifə **Harun ər-Rəşidin (786–809)** dövründə Abbasilər xilafəti çiçəklənmə dövrünü keçirsə də, vergilər daha da artırılmışdı.

Xilafət döyüşçüsü



T Ərəblərin vergi siyasətində etdikləri dəyişikliyin nəticələrini müəyyən edin.

S Həmin dövrdə yaşasaydınız, xəlifələrə hansı tövsiyələri verərdiniz?

## Köçürmə siyasəti

Xilafət işğal edilmiş ölkələrə ərəb ailələri köçürürdü. Məqsəd işğal edilmiş ölkələrdə özünə dayaq yaratmaq və orduda xidmət edən ərəblərə torpaq paylamaqla xəzinə xərclərini azaltmaq idi. Köçürülənlər ən məhsuldar torpaqlarda yerləşdirilir, onlara geniş imtiyazlar verilirdi.

Xilafətin həyata keçirdiyi köçürmə siyasəti və vergilərin artırılması xalqın narazılığını gücləndirir və üsyanlara səbəb olurdu.




Ərəblərin Azərbaycana köçürülməsi

Layihə




## Xürrəmilər hərəkatı

İlk xəlifələr dövründə həyata keçirilən mülayim vergi siyasəti əvvəlcə Əməvilər, sonra isə Abbasilər sülalələrinin hakimiyyəti illərində sərtləşdirildi. Yerli əyanlar vəzifələrdən uzaqlaşdırıldı. Onlar bir çox imtiyazlarını itirdilər. Yerli əhali sıxışdırılır, ərəblərlə ərəb olmayanlar arasında fərqlər qoyulurdu. Bu isə islam dininin tələblərinə zidd idi. Xilafətin bu cür ayrı-seçkilik siyasəti ərəb olmayan müsəlmanların qəzəbinə səbəb oldu. Nəticədə Xilafətin müxtəlif yerlərində ərəb ağalığına qarşı üsyanlar başladı.

S

Sizcə, xürrəmilərin ərəb orduları ilə uğur qazanmasının səbəbi nə idi?

Bu cür çıxışlardan biri də mərkəzi Azərbaycan olan **Xürrəmilər hərəkatı** idi. Xürrəmilər hərəkatının ilk başçılarından biri Bəzz qalasının sahibi Ər-

Layihə

dəbil mahalından olan Cavidan idi. 816-cı ildə Cavidanın ölümündən sonra Xürrəmilər hərəkatına **Babək** başçılıq etməyə başladı.

Babək uşaq vaxtından karvanlara bələdçilik etmiş və beləcə, bir çox ölkələri gəzmişdi. Onun başçılığı ilə xürrəmilər Xilafətin altı böyük ordusunu bir-birinin ardınca məğlub etdilər. Babək, əslində, İslam dininə qarşı deyil, xilafətin ayrı-seçkilik siyasətinə qarşı savaşırdı. O dövrün tarixçilərinin yazdıqları da bu fikri təsdiq edir.

833-cü ildə **xəlifə Mötəsim** Bizansla müharibəni dayandırıb xilafətin bütün qüvvələrini xürrəmilərə qarşı yönəltdi. Xilafət ordusuna türk əsilli **Afşin Heydər ibn Kavus** başçılıq edirdi.

Tədbirli qoşun başçısı Afşin xürrəmilərlə mübarizədə daha ehtiyatlı davrandı. O, qoşunların rahat hərəkət etməsi üçün döyüşlər zamanı dağıdılmış yolları bərpa etdirdi. Babəkə qoşulmuş yerli feodalları gah qorxutmaqla, gah da şirin vədlər verməklə öz tərəfinə çəkməyə başladı. Bu tədbirlərdən sonra Afşin 837-ci ildə Xürrəmilərin mərkəzi **Bəzz qalası** üzərinə hücum etdi.

Xürrəmilər qəhrəmanlıqla müdafiə olunur, ardıcıl hücumların qarşısını alırdılar. Lakin uzunmüddətli mühasirə qala müdafiəçilərini taqətdən saldı. Bəzz qalası süqut etdi. Qalanı tərk edən Babək yenidən qoşun toplamaq və xilafətlə mübarizəni davam etdirmək üçün Azərbaycanın qərbinə gəldi. Ancaq xəyanət nəticəsində tutulub Afşinə təhvil verildi. İraqın Samirə (Səmərra) şəhərinə aparılan Babək xəlifənin əmri ilə edam edildi.



Babək

S

Sizcə, Babək xürrəmilərin əvvəlki rəhbərlərindən hansı xüsusiyyətləri ilə fərqlənirdi?

Xürrəmilər hərəkatı yatırılsa da, nəticəsiz qalmadı. Xilafəti yeni üsyanlar bürüdü. Bu üsyanların öhdəsindən gəlmək üçün xəlifələrin kifayət qədər qüvvəsi qalmamışdı. Nəticədə Xilafət kökündən sarsıldı və onun parçalanması sürətləndi.

Babək özü Səhl ibn Sumbatın, qardaşı Abdullah isə Stefanosun qəsrinə getdilər. Bu zaman ibn Sumbat bu hadisə haqqında Afşinə məlumat verdi. Afşin isə ona şirin vədlər dolu ruhlandırıcı məktubla cavab verdi. Daha sonra Afşin, Əbu Səid və Buzbaranın başçılıq etdikləri hərbi dəstəni Səhl ibn Sumbatın ixtiyarına göndərdi. İbn Sumbat onlara nə etmək lazım olduğunu çatdıracaq adamını göndərənə qədər öz yerlərində qalmalarını məsləhət gördü.

Daha sonra Səhl ibn Sumbat Babəkə dedi: “Yəqin ki, bu qəsrin içində oturmaq səni bezdirmişdir. Bəlkə, düzənliyə düşüb ov edək?” Babək qəsrdən çıxan kimi ibn Sumbat Əbu Səidə və Buzbaraya xəbər göndərərək ov ediləcək yeri mühasirəyə almağı tapşırdı. Babəklə ibn Sumbat ov edərkən Əbu Səid və Buzbaranın dəstələri onları əhatəyə aldılar. Babəkin əynində ağ paltar var idi. Onlar Babəkdən atdan enməyi tələb etdilər. Babək onlardan soruşdu: “Siz kimsiniz?”

Əbu Səid cavab verdi: “Mən Əbu Səidəm, bu isə filankəsdir”. Babək atdan düşərək ibn Sumbatın rəzil sifətinə baxıb söyərək dedi: “Sən məni bu yəhudilərə ucuz məbləğə satdın; əgər sənə pul lazım idisə, mən sənə onların sənə verəcəklərindən daha çoxunu verərdim”. Əbu Səid yenidən Babəkə atını minməyini istədi və onu Afşinin yanına gətirdilər...

Səhl ibn Sumbat öz oğlunu da Babəklə birlikdə Afşinin yanına göndərdi. Afşin ona 100 min dirhəm pul; Səhlə isə 1 milyon dirhəm pul, bahalı daş-qaşla süslənmiş kəmər və tac verilməsini əmr etdi. Babək ordugaha yaxınlaşanda Afşin hündür bir təpəyə çıxaraq onu buradan xeyli müşahidə etdi. Sonra Babəki evlərin birində yerləşdirən Afşin onu ciddi qorumağı tapşırdı.

Daha sonra Afşin Stefanosun yanında olan Babəkin qardaşının dalınca adam göndərdi. Babəki qardaşı Abdullahla birlikdə dustaq edən Afşin bunun haqqında Xəlifə Mötəsimə məktub göndərdi. Xəlifə dustaqları onun yanına gətirməyi əmr etdi.

**İBN ƏL ƏSİR**
*“Tarix əl-Kamil”dən Azərbaycan tarixi üzrə materiallar*

S Mənbəni diqqətlə oxuyun. Sizcə, Səhl ibn Simbadın Babəki Afşinə təhvil verməsinin hansı səbəbləri var?

## İslam dininin yayılmasının əhəmiyyəti

Azərbaycan ərazisini ələ keçirən ərəblər ilk vaxtlar yerli əhali ilə mülayim davranırdılar. Belə ki vergilər xeyli azaldılmış, əhalinin dini əqidəyə görə incidilmələri dayandırılmışdı. İlk xəlifələr dövründə öz təsərrüfatlarını canlandırmaq məqsədilə dövlət xəzinəsindən yoxsul kəndlilərə yardımlar edilirdi.

Uzun illər davam etmiş Sasani-Roma (Bizans) müharibələri Azərbaycana da təsirsiz ötüşməmişdi. Ölkənin təsərrüfat həyatı zəifləmiş, yollar dağıdılmış, istehsal kəskin şəkildə azalmışdı. Yolların dağıdılması Azərbaycanın qonşu ölkələrlə ticarət əlaqələrini pozmuş, şəhər həyatı, sənətkarlıq və ticarət tənəzzülə uğramışdı.

Ön Asiyanın xeyli hissəsinin xilafət tərkibinə daxil edilməsi nəticəsində Mərkəzi Asiya və Xəzər dənizinin şimalında yerləşən bölgələrlə ticarət əlaqələri bərpa edildi. Xilafətin hakim dairələri Azərbaycanda ticarət və sənətkarlığın inkişafına xüsusi diqqət yetirirdilər.

S

Müharibə ölkənin təsərrüfatına hansı ziyanları vura bilər?




Azərbaycan əhalisinin xeyli hissəsini Tanrıçılığa inanan türklər təşkil edirdi. Onların arasında təkallahlılığı təbliğ edən İslam dini daha sürətlə yayılmışdı.

İslam dininin yayılmasının böyük əhəmiyyəti oldu. Beləliklə, islam dini Azərbaycanda xalqın formalaşmasına müsbət təsir göstərdi. Ərəb dilində yazmış səyyah və tarixçilərin əsərlərində Azərbaycanın şimalda Dərbənd, cənubda Həmədan, şərqdə Xəzər dənizi, qərbdə isə Şərqi Anadoluya qədər uzanan **tarixi coğrafiyası*** müəyyən olundu.

* **Tarixi coğrafiya** – hər hansı bir ərazinin, ölkənin və ya regionun müəyyən tarixi dövr ərzindəki coğrafi vəziyyətini öyrənən köməkçi elmdir.

T

Tarix və Coğrafiya elmlərinin bir-birinə təsirini nümunələrlə izah edin.

Layihə

# 3 Azərbaycan dövlətçiliyinin dirçəlişi

Şirvanşahlar dövləti, Dərbənd əmirliyi, Tiflis əmirliyi, Sacilər, Salarilər, Rəvvadilər

## Şirvanşahlar dövləti

Şirvanşahlar dövlətinin yaranması ölkəmiz üçün hansı əhəmiyyətə malik idi?

Xürrəmilər hərəkatı yatırılsa da, ərəblərin Azərbaycana təsir etmək imkanları azaldı. Xəlifənin Azərbaycana göndərdiyi əmirlər, qoşun başçıları yerli əhaliyə arxalanaraq xilafətə tabe olmaq istəmirdilər. Vaxtilə xilafət tərəfindən Azərbaycana əmir təyin edilən ərəb hakimləri də müstəqilliyə can atırdılar.

Bağdadda türk hərbçilərinin xəlifəyə qarşı çıxışlarından istifadə edən **Heysəm ibn Xalid** 861-ci ildə Şirvanda öz müstəqilliyini elan etdi. O, ərəb mənşəli Məzyədilər sülaləsindən idi. X əsrin əvvəllərində hakimiyyətə gəlmiş **Əbu Tahirin** dövründə Şirvanşahların ərazisi Kür çayından Dərbənd şəhərinə qədər uzanırdı.




ŞƏHƏRLƏR
PAYTAXTLAR

Layihə

## Dərbənd əmirliyi

Xəlifənin başının türk qiyamçıları ilə mübarizəyə qarışmasından istifadə edən Dərbənd əmiri də 869-cu ildə öz müstəqilliyini elan etdi. Beləliklə, Dərbən əmirliyi yarandı. Əmirliyin əsasını o dövrdə Dərbəndi idarə edən əmir Haşim qoymuşdu.

Müsəlman torpaqlarının şimal sərhədlərinin qorunması kimi ağır vəzifəni öz üzərinə götürən Dərbənd əmiri qonşu əraziləri də öz nəzarəti altında saxlamağa çalışırdı. Dövlətin əsas zərbə qüvvəsi əmirin **qulamlar*** adlandırılan xüsusi hərbi dəstəsi, habelə din yolunda vuruşan könüllülər – **qazilər*** idi.

Şimaldan olan hücumlara qarşı mübarizədə Dərbənd əmirliyi digər Azərbaycan dövlətləri, xüsusilə də Şirvanşahlarla əlbir hərəkət edirdi.

> "Əl-Mütəvəkkil öldürüldükdən sonra Xilafət parçalandığına, türklər dövlətin idarəsini ələ keçirdiklərinə görə əl-Bab əhalisi bir yerə yığılaraq Haşimi öz əmirləri etdilər, ona böyük itaət göstərdilər".
>
> **AZƏRBAYCAN TARİXİ.**
> *II cild. Bakı, 2007*

## Tiflis əmirliyi

VIII yüzilliyin 30-cu illərində Xilafət orduları indiki Gürcüstan ərazisini tam fəth etdilər. Nəticədə mərkəzi Tiflis şəhəri olan əmirlik yarandı. Qədim türk yurdu olan Borçalı da Tiflis əmirliyinə daxil idi.

Xilafətdə hakimiyyət uğrunda çəkişmələrin artması nəticəsində Tiflis əmirləri müstəqil siyasət yürütməyə başladılar. Dövlətin idarəçiliyində müxtəlif məmurlar iştirak edirdilər. Onlar yerli əhalidən ordu yığılması, vergilərin toplanılması ilə məşğul olur, əmir dəftərxanasına da başçılıq edirdi. Məhkəmə işlərinə Tiflis qazısı baxırdı.

Bu dövrdə Tiflis Cənubi Qafqazın mühüm ticarət mərkəzlərindən biri idi. Dünyanın müxtəlif yerlərindən bura tacirlər gəlirdi. Onlardan alınan gömrük əmirliyin xəzinəsində toplanırdı. Torpaqların əksəriyyəti dövlətə məxsus idi. Vəqf torpaq sahibkarlığı da geniş yayılmışdı.

IX əsrin 80-ci illərinin əvvəllərindən etibarən Tiflis müsəlman əmirliyinin **Cəfərilər sülaləsi** idarə etməyə başladı. Qonşuluqda yerləşən Dumanis əmirliyi də bu sülalə tərəfindən idarə olunurdu. Bununla da Borçalıda Cəfərilər sülaləsinin 200 illik hakimiyyəti başladı. Cəfərilər öz ərazilərini Bizans-gürcü hücumlarından qorumaq üçün digər Azərbaycan dövlətləri ilə müttəfiqlik edirdilər.

* **Qulam** ərəbcə qul, kölə anlamını ifadə edir. Türk-islam dövlətlərində daimi xidmət edən hərbi qulluqçulara deyilirdi.

* **Qazi** – ərəb mənşəli söz olub, müharibədə iştirak edən, vuruşan, qalib gələn və sağ-salamat qayıdan döyüşçü (əsgər) mənasını verir.

Dərbənd müxtəlif dövrlərdə fərqli adlarla adlandırılmışdır. Həmin adları xatırlayın.

Tiflis əmirliyinin yaranmasının tarixi əhəmiyyətini araşdırın.

Layihə

## Şəki hakimliyi

Xilafətin zəifləməsi nəticəsində Azərbaycanın şimal-qərbində IX yüzilliyin ikinci yarısında Şəki hakimliyi yarandı. Mənbələrdə keçmiş Alban dövlətinin varislərindən hesab etdikləri bu hakimlik bəzən "Alban padşahlığı" adlandırılır. Dövlətə başçılıq edən hökmdarlar Mehranilər nəslinin davamçıları olmalarını vurğulayırdılar.

Gürcü kilsəsi xristianlıqlarını saxlamış albanları gürcüləşdirmək, qədim Azərbaycan torpağı olan Şəkini ələ keçirmək üçün var gücü ilə çalışırdı. Lakin qonşuluqdakı Şirvanşahlar, daha sonra isə Salarilər yerli əhalinin köməyi ilə bu siyasəti puça çıxartdılar.

S

Sizcə, nə üçün gürcü kilsəsi Şəkini ələ keçirməyə çalışırdı?

## Sacilər dövləti

S

Xəlifələrin türk sərkərdələrinə inamı nə ilə bağlı idi?

VIII yüzilliyin ortalarından başlayaraq Abbasilər xilafətində türklərin rolu gücləndi. Xəlifələr türk mənşəli sərkərdələrə hörmətlə yanaşır və ən mühüm vəzifələri onlara etibar edirdilər.

Belə sərkərdələrdən biri də Əbu Sac Divdad idi. Xəlifə ona Məkkəyə gedən yolun asayişini qorumaq kimi mühüm vəzifəni tapşırmışdı. Xəlifənin etibarını qazanan Əbu Sac Azərbaycana hakim təyin edildi. Bununla da yeni sülalənin əsası qoyuldu. Bu sülaləyə mənsub olanlar, bir qayda olaraq, Afşin (hökmdar, hakim və ya başçı) ləqəbi daşımışlar.

Əbu Sac Divdad



Əbu Sacın ölümündən sonra Azərbaycanı onun oğlu Məhəmməd Afşin idarə etməyə başladı. Ölkədəki müsəlman türklərə arxalanan Məhəmməd hakimiyyəti tam ələ aldı və xəlifədən asılılığı rədd edərək öz adına pul kəsdirdi.

***Beləliklə, 898-ci ildə Sacilər dövlətinin əsası qoyuldu.*** Dövlətin paytaxtı əvvəlcə **Marağa,** sonra isə **Ərdəbil** olmuşdur.

Məhəmməd Tiflisi, Dəbili və müsəlmanlara məxsus digər şəhərləri gürcü və Anadoludakı erməni hərbi birləşmələrinin hücumlarından qorumuşdu.

Məhəmmədin ölümündən sonra Azərbaycanda hakimiyyətə qardaşı **Yusif** gəldi. Xəlifə Yusif Sacoğluna Azərbaycandan toplanan vergiləri göndərməyi tələb edən fərman göndərdi. Lakin Yusif Xilafətə vergi verməkdən imtina edə-

layihə

# SACİLƏR DÖVLƏTİ



rək xəlifənin fərmanını ayaqları altına atdı. Xəlifə qonşu ölkələrin hakimlərinə məktublar göndərərək onlara Yusif Sacoğluya qarşı müharibəyə başlamağı əmr etdi.

Tezliklə xilafət ordusu Azərbaycana hücuma başladı. Yusif bu ordunu darmadağın etdi. Mənbələrin verdiyi məlumata görə bundan sonra Yusif "Azərbaycanın şimal və qərb sərhədlərinə yeridi". Azərbaycanın qərb torpaqlarını ələ keçirmək istəyən Bizans qoşunları da məğlub edildi.

Daha sonra Şirvanşahlar dövlətini asılı hala salan Azərbaycan hökmdarı ölkənin şimal sərhədlərini möhkəmləndirmək üçün Dərbənd səddini də təmir etdirdi.

919-cu ildə Ərdəbil yaxınlığındakı döyüşdə çoxsaylı xilafət ordusu Yusif Sacoğlunu məğlub edərək əsir götürdü. Lakin xəlifə Azərbaycanda və o cümlədən Cənubi Qafqazda Bizansmeyilli qüvvələrin fəallaşmasını görüb fikrini dəyişməyə məcbur oldu. Yusif Sacoğlunun şərəfinə sarayda böyük ziyafət və təntənəli qəbul təşkil edən xəlifə onu azad edib yenidən Azərbaycana göndərdi.

Yusif Sacoğlunun hakimiyyəti illərində Azərbaycanın şimalındakı sərhəd şəhəri Dərbənd, cənubunda isə Həmədan şəhəri idi. Dövlətin şərq sərhədi Xəzər dənizində başlayır, qərbdə isə Qars-Ərzurum xəttinə qədər uzanırdı.

Yusif Sacoğlunun ölümündən sonra dövlət zəifləməyə başladı.

**BUNU BİLMƏK MARAQLIDIR**

*Azərbaycanı müsəlman dünyasının Qərbə açılan qapısı halına gətirən Yusif Sacoğlu Bizansla intensiv mübarizə aparmışdır. Azərbaycan onun qərb istiqamətində Bizansa qarşı yürüşlərin mərkəzinə çevrilmişdir. Saci hökmdarları metal pulların üstünə "Azərbaycan" adını da həkk etdirmişdilər. Bu fakt Yusif Sacoğlunun fəth etdiyi ərazilərin Azərbaycandan idarə olunduğunu təsdiq edir.*

Yusif Sacoğlu



**T** Mətnə əsasən cədvəli tamamlayın.

| SƏBƏB | NƏTİCƏ |
|---|---|
| ♦ ... | ♦ Sacilər dövlətinin əsası qoyuldu. |
| ♦ Yusif Sacoğlu vergi verməkdən imtina etdi. | ♦ ... |
| ♦ ... | ♦ Azərbaycan hökmdarı Dərbənd hasarını təmir etdirdi. |
| ♦ Xəlifə Qafqazda Bizansmeyilli qüvvələrin fəallaşmasını görüb fikrini dəyişdi. | ♦ ... |

layihə

## Salarilər dövləti

941-ci ildə Ərdəbildə Sacilər dövlətininin sonuncu hökmdarı taxtdan salındı. Azərbaycan taxtına **Salarilər** nəslindən olan **Mərzban** ibn Məhəmməd çıxdı. Salarilər mənşəcə türk olan Kəngərli tayfasına mənsub idilər. Mərzban ibn Məhəmmədin hakimiyyətinin ilk illərində ruslar şimaldan Bərdəyə hücum etmişdilər. Salarilər ilk toqquşmada işğalçıların bir hissəsini məhv etdilər. Mərzban ibn Məhəmməd Mosul hakiminin Azərbaycanın cənub torpaqlarına hücumunu eşidərək əsas qüvvələrini ona qarşı yeritməyə məcbur oldu. Bu hadisə Bərdənin sonrakı taleyinə mənfi təsir göstərdi.

Rusların Bərdəyə hücumu. Rəssam N.M.Koçerqin



Salarilərin hakimiyyəti illərində Azərbaycan torpaqları daha da genişləndirildi. **Şirvanşah, Şəki hakimliyi, Dərbənd və Tiflis əmirləri** Mərzban Salaroğlundan asılılığı qəbul etdilər. Xəzər dənizində ticarət donanması yaradıldı. Vergiləri nizama salmaq üçün **"Qanunnamə"** tərtib edildi. Mənbələrdə Mərzbanın tədbirli, ədalətli, əhalinin qayğısına qalan hökmdar, döyüş meydanında cəsur sərkərdə olduğu göstərilir.

957-ci ildə Mərzbanın ölümündən sonra hakimiyyət uğrunda gedən daxili çəkişmələr dövlətin zəifləməsinə və Azərbaycan torpaqlarının parçalanmasına gətirib çıxardı.

T

Dövlətin zəifləməsinin səbəblərini müəyyən edin. *Dövlət zəifləyərsə, ...* cümləsini tamamlayın.

Mərzbanın oğlu **İbrahimin** hakimiyyəti illərində Salarilərin ərazilərində yeni xırda dövlətlər yaranmağa başladı. Kürdən şimalda Şirvanşahlar dövləti və Dərbənd əmirliyi yenidən müstəqilləşdi.

971-ci ildən Gəncə vilayəti də Salarilər dövlətinin tərkibindən çıxdı. Azərbaycanın qərbində hakimlik edən **Şəddadilər** Salarilərin Gəncədəki əmirini hakimiyyətdən uzaqlaşdırdı. Azərbaycan hökmdarı İbrahim Şəddadilərə qarşı ordu göndərdi. Gəncə ətrafındakı döyüşdə məğlub olan Salarilərin sərkərdəsi Şəddadilər ilə sülh sazişi bağlayaraq Ərdəbilə qayıtdı. Bununla da Salari İbrahim Gəncə də daxil olmaqla Aranın bir hissəsinin itirilməsi ilə barışmağa məcbur oldu.

Azərbaycanın cənubunda isə mərkəzi hakimiyyətə qarşı Əhər və Qaradağın ərəb mənşəli hakimləri olan **Rəvvadilər** müstəqilliyə can atırdı.

## Şəddadilər dövləti

Şəddadilər sülaləsinin əsasını **Məhəmməd ibn Şəddad** qoymuşdur. O, 951-ci ildə Dəbildə hakimiyyətə gəlsə də, burada möhkəmlənə bilmədi. Məhəmmədin ölümündən sonra oğlu Fəzl Salari hökmdarı İbrahimin icazəsi ilə X əsrin 60-cı illərinin sonlarında Gəncə hakiminin xidmətinə göndərilmişdi.

Bu zaman Gəncə şəhəri Tiflis-Qazax-Şəmkir bölgələrində yaşayan, xristianlığı qəbul etmiş **sabirlərin** hücumlarına məruz qalmışdı. Fəzlin sabirlər üzərində qələbə qazanması onun şəhər əhalisi arasında nüfuzunun artmasına səbəb oldu. O, böyük qardaşı Ləşkərini də Gəncəyə çağırdı. Nəticədə **971-ci ildə** Şəddadilər Gəncəni ələ keçirdi. ***I Ləşkəri paytaxtı Gəncə olan Şəddadilər dövlətinin ilk hökmdarı oldu.***

Şəddadilərdən birincisi Məhəmməd ibn Şəddad idi. Onun yüksəlişinin səbəbi, Salar Mərzuban ibn Məhəmmədin 948-ci ildə Rey yaxınlığında tutulub təxminən dörd il əsirlikdə qalması idi. Azərbaycan şahlığında qarışıqlıq yarandı və oradakı müxtəlif feodal qrupları ölkənin müəyyən bir bölgəsini ələ keçirdi.

**VLADİMİR MİNORSKİ, QAFQAZ TARİXİ ARAŞDIRMALARI, LONDON 1953**

Mənbə əsasında *"Azərbaycan şahlığı"* ifadəsini Azərbaycan dövlətçilik ənənələri baxımdan dəyərləndirin.

Layihə

## AZƏRBAYCAN X YÜZİLLİYİN İKİNCİ YARISINDA




Layihə

*Özünü yoxla*



Xudafərin körpüsü

**Fəzl ibn Məhəmməd (985–1031)** Kür və Araz çayları arasındakı bütün əraziləri ələ keçirdi.

O, gürcü qoşunlarını darmadağın etməklə Tiflis müsəlman əmirliyinin təhlükəsizliyini qoruya bildi. 1027-ci ildə Şəddadi Fəzlin göstərişi ilə Araz çayı üzərində Azərbaycanın şimalı ilə cənubunu birləşdirən məşhur **Xudafərin körpüsü** inşa olundu.



Şəddadilərin qonşu Azərbaycan dövlətləri ilə qohumluq və dostluq əlaqələri yaratmışdı.

XI əsrin ortalarında hakimiyyətə gələn Əbüləsvar Şavur artıq Ön Asiyada real gücə çevrilən Səlcuqlarla müttəfiqlik əlaqələri yaratdı. Onun hakimiyyəti illərində Gəncə ətrafında müdafiə istehkamlarının yaradılması ilə yanaşı, məşhur Gəncə qala qapıları düzəldildi. Qapının üzərindəki yazı onun 1063-cü ildə hazırlandığını göstərir.

## Azərbaycanın cənubunda Rəvvadilərin hakimiyyəti

Rəvvadilərin əcdadları Azərbaycana köçürülmüş ərəb mənşəli qəbilədən olmuşlar. Onlar əvvəllər Təbrizdə yerləşmişdilər. Sonralar bu nəslin nümayəndələri xilafətin zəifləməsindən istifadə edərək ətrafdakı əraziləri də ələ keçirdilər.

X yüzilliyin ortalarında Rəvvadilər Salarilərin tabeliyində idilər. 981-ci ildə bu nəsildən olan Əbülhica Rəvvadi İbrahimə qarşı qiyam qaldıraraq onu taxtdan saldı. Beləliklə, yeni dövlətin əsası qoyuldu. Dövlətin paytaxtı Təbriz şəhəri oldu.

XI yüzilliyin 20-ci illərində Rəvvadi Vəhsudanın hakimiyyəti illərində 2 min oğuz ailəsi Azərbaycanın cənubunda yerləşdirildi. Bu addım regionda Azərbaycan türklərinin mövqeyini gücləndirdi.



Əbülhica Rəvvadi

Layihə

# 4 Azərbaycan Böyük Səlcuq imperiyası dövründə

Səlcuq imperiyası, Toğrul, sultan, Alparslan

## Azərbaycanın Səlcuq sultanlığının tərkibinə qatılması

Oğuz türklərinin Qınıq boyuna mənsub səlcuqlular Mərkəzi Asiyada məskunlaşmışdılar. Onlar XI əsrin başlanğıcında Qəznəli sultanı tərəfindən Xorasanda yerləşdirilmişdilər. XI əsrin 30-cu illərində buradakı türk tayfaları **Toğrul bəyin** başçılığı ilə siyasi hakimiyyəti ələ keçirdi. **Səlcuqlu dövlətini (1038–1157)** yaradan **Toğrul bəy** bu dövlətin ilk hökmdarı (1038–1063) oldu. 1040-cı ildə Mərv yaxınlığında Dəndənəkan adlı yerdə Səlcuq türkləri Qəznəliləri məğlub edərək Mərkəzi Asiyada aparıcı siyasi qüvvəyə çevrildi. Bu qələbədən sonra Toğrul **sultan** titulu qəbul etdi.

Səlcuqluların yürüşü ərəfəsində Azərbaycanda siyasi dağınıqlıq hökm sürürdü. Ölkənin cənubunda Rəvvadilər, şimalında Tiflis müsəlman əmirliyi, Şirvanşahlar və Şəddadilər dövləti mövcud idi.



Sultan I Toğrulun Aşqabaddakı heykəli

**T** Səlcuqluların yürüşü ərəfəsində Azərbaycanda siyasi vəziyyəti təhlil edin.

**M**

Dünyanın heç bir xalqı şöhrəti və əzəməti ilə “tatar”larla yarışa bilməz... Onlar türk adlanır, Avropada, Asiyada və Afrikada nəhəng fəthlər edib dünyanın üç qitəsində ağalıq edirlər... Bu müzəffər xalqın yalnız tarixçiləri olmayıb ki, onların ağlasığmaz qələbələrinin şöhrətini yazsınlar... Bu cəngavər xalq...əbədi məğlubedilməzliyinə inanıb keçmiş qələbələrinin əbədiləşdirilməsi qayğısına qətiyyən qalmamışdır.

ŞARL LUİ MONTESKYE

**S** Mənbə müəllifi türklərin hansı xüsusiyyətlərini dəyərləndirir? Türklərin hansı xüsusiyyətini müsbət, hansını mənfi hesab edir?

Layihə

Sultan I Toğrulun orduları Azərbaycan ərazisinə hələ XI yüzilliyin 40-cı illərində daxil olmuşdular. 1054-cü ildə səlcuqlar yenidən Azərbaycana yürüş etdi. Rəvvadi hökmdarı **Vəhsudan** onlardan asılılığa düşdü. Beləliklə, səlcuqlular Azərbaycanın cənubuna sahib oldu. Bundan sonra bu ölkə oğuzların Xorasandan sonra ən böyük sığınacağı və mərkəzinə çevrildi.

Həmin ildə **Şəddadilər** də daxili müstəqilliklərini qorumaqla səlcuqlulara tabe oldu. Səlcuq sultanı ilə Şəddadi hökmdarı Bizans imperatoruna və onun təhriki ilə Azərbaycan ərazilərinə yürüşlər edən gürcü hakimlərinə qarşı ittifaq bağladılar. **Tiflis müsəlman əmirliyi** də bu ittifaqa qoşuldu.

Azərbaycanda yaşayan oğuzlar soydaşları ilə birləşərək Anadolunun fəthində də mühüm rol oynadılar. Sultan Toğrulun hakimiyyəti dövründə Azərbaycan Böyük Səlcuq dövlətinin bir əyalətinə çevrilməmiş, yalnız asılı vəziyyətə düşmüşdü. Azərbaycanda vergi işlərini idarə etmək və sülalə hakimlərinə *(Şəddadi, Rəvvadi, Tiflis hakimi Cəfərilər)* nəzarət etmək üçün I Toğrul buraya əmirlər təyin etmişdi.

İqamətgahı Gəncədə olan əmir bu sülalələrin daxili işlərinə müdaxilə etməmiş, Anadolu istiqamətində fəthlərlə məşğul olmuşdur. Səlcuqlular və onların müttəfiqi olan Azərbaycan hakimləri Bizans, gürcü çarları və qıpçaq türklərinə qarşı mübarizə aparırdılar. Qıpçaqlar mənşəcə türk olsalar da, müsəlman deyildilər. Gürcü çarları müxtəlif hədiyyələr və mükafatlar verməklə qıpçaqların hərbi gücündən oğuzlara qarşı istifadə edirdilər.



İkibaşlı Səlcuq qartalı



Səlcuqlar döyüşdə



QARA DƏNİZ
BİZANS İMPERİYASI
KONSTANTİNOPOL
AZƏRBAYC
TƏBRİZ
BÖYÜK SƏL
ŞAM
ARALIQ DƏNİZİ
QÜDS
(Nil)
QIRMIZI DƏNİZ
MƏDİNƏ
MİSİR
Sərhəd
PAYTAXT
ŞƏHƏR


(Sırdərya)
(Amudərya)
BUXARA
SƏMƏRQƏND
Xəzər dənizi
BAKI
AN
(Ətrak)
XORASAN
REY
NİŞAPUR
CUQ İMPERİYASI
AĞDAD
(Dəclə)
İSFAHAN
İRAN KÖRFƏZİ
HİND OKEANI

Layihə

Azərbaycan Böyük Səlcuq dövləti üçün hansı əhəmiyyət daşıyırdı? Mülahizələrinizi faktlarla əsaslandırın.

**Sultan Alp Arslanın (1063–1072)** hakimiyyəti dövründə səlcuqların rəvvadilərlə münasibətləri pisləşdi. 1065-ci ildə səlcuqlar Rəvvadilər dövlətinin varlığına son qoydular. 1066-cı ildə **Şirvanşahlar dövləti** də Səlcuq sultanının hakimiyyətini tanıyıb asılılığa düşdü. Beləliklə, bütün Azərbaycan Böyük Səlcuq dövlətinin tərkibinə daxil edildi.

Alp Arslanın hakimiyyəti dövründə Azərbaycan Bizansa qarşı mübarizənin dayağına çevrildi.

Azərbaycanın XI yüzillikdə Səlcuq imperiyasına qatılması çox böyük tarixi əhəmiyyətə malik idi. Səlcuqarın gəlişi ilə Azərbaycanın qərb torpaqlarının Bizans tərəfindən işğal edilməsinin qarşısı alındı. Ölkəmizin vahid dövlətin tərkibinə qatılması təsərrüfatın və mədəniyyətin inkişafına təkan verdi.



Alp Arslan

Layihə

## Böyük Səlcuq imperiyasının zəifləməsi

**Sultan Məlikşahın (1072–1092)** hakimiyyəti dövründə Azərbaycan gələcəkdə böyük sultan olacaq Səlcuq şahzadələrinin ***"sancağ"ı və vəliəhd ölkəsi*** elan edildi. Azərbaycanın coğrafi-strateji mövqeyi və iqtisadi əhəmiyyəti bunu zəruri etmişdi. Eyni zamanda türk oğuzların üstünlük təşkil etdiyi bu torpaqlarda səlcuqların dayağı daha güclü idi.

Sultan Məlikşahın ölümündən sonra başlayan ara müharibələri ilə Səlcuq dövlətinin tənəzzül dövrü başlandı.

Sxem əsasında danışın.





Sultan Məlikşah

XI yüzilliyin sonunda başlanmış xaçlı yürüşləri də Ön Asiyanın, o cümlədən Azərbaycanın beynəlxalq və ictimai-siyasi vəziyyətinə müəyyən təsir göstərdi.

Layihə

**Mərkəzdənqaçma meyilləri** imperiyanın ayrı-ayrı bölgələrinin, xalqlarının və ya yerli hakim təbəqələrinin mərkəzi hakimiyyətlə əlaqələrinin zəifləməsi, daha çox müstəqillik əldə etmək istəməsi, dövlətdən ayrılmağa can atmasıdır. Bu meyil dövlətin zəiflədiyi, yaxud böhran dövründə güclənir.


Səlcuq süvarisi

XI yüzilliyin sonu, XII yüzilliyin əvvəllərində Səlcuq əyanlarının **mərkəzdənqaçma meyilləri*** gücləndi. Sultan ailəsi daxilində hakimiyyət uğrunda mübarizə başlandı. Daxili çəkişmələr Səlcuq dövlətinin zəifləməsinə, sonra isə ayrı-ayrı hissələrə parçalanmasına səbəb oldu.

XII yüzilliyin əvvəllərində Böyük Səlcuq sultanlığı parçalandı. Azərbaycan və qonşu ərazilər paytaxtı Həmədan olan ***İraq Səlcuq sultanlığının*** tərkibinə daxil edildi.

Böyük Səlcuq dövlətində mərkəzi hakimiyyətin zəifləməsi vassal dövlətlərin itaət altından çıxmasına səbəb oldu. Bundan istifadə edən qıpçaq türkləri gürcü hakimləri ilə birləşərək müsəlman torpaqlarına hücumlara başladılar.

**BUNU BİLMƏK MARAQLIDIR**

*Bu dövrdə islam dinini qəbul etməmiş qıpçaqlar şaman inanclarına sahib olduqlarından səlcuqlar onları "kafir" adlandırırdılar.*

*Onların əcdadları çox qədim dövrlərdən gəlib indiki Gürcüstan ərazisində məskunlaşmış və sonralar xristian dinini qəbul etmişdi. Gürcüstana XI–XII yüzilliklərdə gələn qıpçaqlar da xristianlığın təsirinə məruz qaldılar.*

S Böyük Səlcuq dövlətinin zəifləməsi hansı siyasi, sosial və iqtisadi amillərlə bağlı olmuşdur?

T Şəkli təsvir edin və əsasında kiçik hekayə tərtib edin.

Layihə



Qıpçaq döyüşçüləri

Qıpçaqlar ilə oğuzlar arasındakı düşmənçilik isə hələ Mərkəzi Asiyada başlamışdı. Oğuzlar islam dinini daha tez qəbul etmişdilər. Qıpçaqlar isə əsasən, tanrıçılığı və köhnə inanclarını qoruyub saxlamışdılar. Onların Qafqaza gəlişi ilə köhnə düşmənçilik daha da alovlandı. Buna baxmayaraq, islamı qəbul edib Səlcuq dövlətinin ərazilərində yaşayan qıpçaqlar da var idi.

Hakimiyyət uğrunda çəkişmələr, əyalət hakimlərinin mərkəzi hakimiyyətdən ayrılma meyilləri və xaçlı yürüşləri nəticəsində Böyük Səlcuq dövlətinin zəifləməsi prosesi gücləndi. 1157-ci ildə **Sultan Səncərin** ölümü ilə dövlət süqut etdi.

Səlcuq və qıpçaq türklərini müqayisə edərək oxşar və fərqli cəhətlərini müəyyənləşdirin.

Mətnə əsasən zaman oxunu tamamlayın.

| 1040-cı il | 1054-cü il | 1065-ci il | 1157-ci il |
|---|---|---|---|
| ? | ? | ? | ? |

Layihə

# 5 Eldənizlər dövləti

**İraq Səlcuq sultanlığı, Şəmsəddin Eldəniz, Atabəy, Qızıl Arslan, Məhəmməd Cahan Pəhləvan**

## İqtisadi inkişaf

Azərbaycan torpaqları Böyük Səlcuq imperatorluğundan 1118-ci ildə ayrılan **İraq Səlcuq sultanlığının** tərkibində idi. Eldənizlər sülaləsinin banisi **Şəmsəddin Eldəniz** İraq Səlcuq sultanlarının sarayında nüfuzlu əmirlərdən biri idi.



Şəmsəddin Eldəniz

> Atabəy Şəmsəddin gücləndi, bütün böyük hökmdarları yenərək bir çoxunu özünə tabe etdi, üsyan başçılarını aradan qaldırdı və Arran ölkəsindəki *(Azərbaycanın Arazdan şimaldakı torpaqları – red.)* qarmaqarışıqlığa son qoydu.
>
> **MXİTAR QOŞ**
> *"Alban salnaməsi"*
>
> Mənbədə verilən siyasi vəziyyət ölkənin sosial-iqtisadi inkişafına necə təsir göstərə bilərdi?

Şəmsəddin Eldəniz cəsur döyüşçü və yüksək idarəetmə keyfiyyətlərinə malik şəxsiyyət idi. O, şəraiti düzgün qiymətləndirmək bacarığı ilə də fərqlənirdi. Bu amillər onun yüksəlişinə kömək etdi. İraq Səlcuq sultanı II Toğrul Şəmsəddin Eldənizi öz oğlu Arslanşahın atabəyi təyin etmişdi.

Sizcə, nə üçün İraq Səlcuq sultanı məhz Eldənizi öz oğlunun atabəyi təyin etdi?

Sultan II Toğrul öləndən sonra taxta çıxan Sultan Məsud (1135–1152) Eldənizi sultanın dul arvadı Möminə xatunla evləndirmişdi. Bu hadisə Ş.Eldənizin vəzifə yüksəlişində müəyyən rol oynamışdır.

1136-cı ildə Sultan Məsud bütün Arranı iqta* olaraq Şəmsəddin Eldənizə bağışlamışdı. Bu tarix Azərbaycanda Eldənizlər sülaləsinin hakimiyyətə başlaması kimi qəbul olunur.

* **İqta** xidmət əvəzində verilən torpaqdır.

Eldənizlərin ilk paytaxtı **Naxçıvan** şəhəri olmuşdu. O, Arrandan başqa, Azərbaycanın cənub hissəsini və Naxçıvanı müstəqil idarə etməyə başladı, öz adına pul kəsdirdi. Şəmsəddin Eldəniz (1136–1175) İraq Səlcuq sultanlığının idarə edilməsində yaxından iştirak edirdi. Sultanlığın əsas hərbi qüvvəsi olan seçmə ordu da onun ixtiyarında idi.

Ş.Eldəniz 1160-cı ildə Həmədana yürüş edərək boş qalmış İraq Səlcuq sultanlığı taxtına oğulluğu Arslanşahı çıxardı. Özü isə **“Böyük Atabəy”** titulunu qəbul etdi. O, böyük oğlu Məhəmməd Cahan Pəhləvanı sultanın hacibi (saray əmirlərinin başçısı), kiçik oğlu Qızıl Arslanı isə sultanın ordusunun baş komandanı təyin etdi. Bununla da İraq Səlcuq sultanlığı faktiki olaraq Eldənizlərin əlinə keçdi.

Şəmsəddin Eldəniz Şirvanşahlar dövlətini də tabe etdi. Beləliklə o, bütün Azərbaycan torpaqlarına nəzarəti ələ keçirdi. O, Dərbənd keçidindən İran körfəzinə qədər uzanan geniş bir ərazini öz hakimiyyəti altında birləşdirmişdi. ***Arran, Azərbaycan, Şərqi Anadolu, Əcəm İraqı və Ərəb İraqı Eldənizin idarə etdiyi dövlətin tərkibinə daxil idi.*** Bundan başqa, Şirvanşahlar dövləti, Kirman sultanlığı, Fars və Mosul Atabəyləri, Gürcüstan hakimləri də Eldənizdən asılı idi.

Şəmsəddin Eldənizin xarici siyasətinin əsas istiqamətlərindən biri Azərbaycan ərazilərini gürcülərin hücumundan qorumaq idi. Gürcü hökmdarları ilə uğurlu mübarizə Atabəy Eldənizi müsəlman dünyasında etibarlı və nüfuzlu hakim kimi tanıtmışdı. Bu xüsusiyyətinə görə onu **“İslam dünyasının müdafiəçisi”** adlandırmışlar.

Böyük Səlcuq dövlətinin zəifləməsindən sonra qıpçaq türk tayfalarından kömək alan gürcü çarı Azərbaycanın qərb torpaqlarını işğal etmək istəyir, bu məqsədlə tez-tez qarətçi yürüşlər təşkil edirdi. Gürcü çarının qoşunları 1139-cu ildə baş vermiş dəhşətli zəlzələ zamanı əhalisinin çoxunu itirmiş Gəncə şəhərinə hücum edərək burada qırğınlar törətdi. Məşhur Gəncə qala qapıları qənimət kimi Gürcüstana aparıldı.

S Gürcü hökmdarının bu fəaliyyətini necə dəyərləndirirsiniz?

M

“İraq və Azərbaycan sultan və əmir Atabəy Şəmsəddin Eldənizin vaxtında əmin-amanlıqla sultanın əmrlərini yerinə yetirirdi. Əsil hökmdar Atabəy Eldənizin özü idi. Əmrləri o verirdi, iqta torpaqlarını o paylayırdı, dövlət xəzinəsinə nəzarəti də o edirdi. Sultan Arslanşah ibn Toğrulun ancaq adı var idi”.

**SƏDRƏDDİN ƏL-HÜSEYNİ**

S Mənbə müəllifinin mülahizələri dərslikdə verilən hansı məlumatı təsdiq edir?

S Şəmsəddin Eldənizin hakimiyyət dövrünü təhlil edin. Sizcə, onun fəaliyyəti ölkənin iqtisadiyyatına və mədəniyyətinə necə təsir göstərə bilərdi?

Layihə


Xəzər dənizi
Aral dənizi
Tiflis
GÜRCÜSTAN
ŞİRVANŞAHLAR DÖVLƏTİ
Gəncə
Şamaxı
Bakı
Naxçıvan
Hilat
AZƏRBAYCAN
Təbriz
Ərdəbil
Urmiya
Marağa
GİLAN
Mosul
MOSUL ATABƏYLİYİ
ELDƏNİZLƏR DÖVLƏTİ
TƏBƏRİSTAN
QUMIS
Damqa
Nişapur
Qəzvin
Rey
Həmədan
XORASAN
İSMAİLİLƏR
Qum
Kuhistan
Kirmanşah
ƏCƏM İRAQI
Bağdad
ƏRƏB İRAQI
İsfahan
İstəxr
FARS ATABƏYLƏRİ
Kirman
Şiraz
KİRMAN ATABƏYLƏRİ
İRAN KÖRFƏZİ
Paytaxtlar
Şəhərlər
Asılı ərazilər

1161-ci ildə qıpçaq-gürcü birləşmiş orduları Ani və Dəbil şəhərlərini ələ keçirdilər. Müsəlman əhalinin xeyli hissəsi qılıncdan keçirildi. Şəmsəddin Eldəniz 1163-cü ildə Azərbaycan ordusu ilə yürüşə çıxıb qıpçaq-gürcü qoşununu məğlub etdi. Dəbil düşməndən geri alındı. Şəmsəddin Eldəniz düşməni Ani şəhərindən də qovdu və şəhərin bərpası haqqında əmr verdi.

Gürcülərin Azərbaycana quldur basqınlarının qarşısını almaq üçün Şəmsəddin Eldəniz 1175-ci ildə onlara qarşı böyük yürüşə başladı. Gürcülər darmadağın edildi və gürcü çarı qaçmaqla canını qurtardı. Şəmsəddin Eldəniz dinc xristian əhaliyə toxunmadı. Bu faktı gürcü və digər xristian mənbələri də təsdiq edir.

1175-ci ildə Şəmsəddin Eldəniz vəfat etdi. Məhəmməd Cahan Pəhləvan Həmədandan Naxçıvana gələrək orduya, xəzinəyə və Azərbaycan taxt-tacına sahib çıxdı.



Məhəmməd Cahan Pəhləvan. Rəssam Əjdər Qafarov

**BUNU BİLMƏK MARAQLIDIR**

Mənbələrdə Eldənizlər dövründə xristian əhaliyə qarşı böyük hörmət və ehtiram göstərildiyi haqqında məlumatlar verilməkdədir: "Atabəy Eldəniz xristianları sevir və ölkəsinin rifahı üçün onlara qayğı göstərirdi.

## Dövlətin yüksəlişi

Məhəmməd Cahan Pəhləvanın hakimiyyətə gəlməsi ilə Eldənizlər dövləti yüksəliş dövrünə daxil oldu. O, atabəyi olduğu III Toğrulu İraq Səlcuq sultanlığında taxta çıxardı. Bütün hakimiyyəti öz əlində cəmləşdirdi. Cahan Pəhləvan Təbrizi və qonşu əraziləri **Ağsunqurilərdən** aldı. Azərbaycanın idarəsini qardaşı Qızıl Arslana tapşırdı. Qızıl Arslan Cənubi Azərbaycanı və Arranı Təbrizdən idarə etməyə başladı. O həm də Məhəmməd Cahan Pəhləvanın oğlu Əbu Bəkrin atabəyi təyin edilmişdi.



Qızıl Arslan. XV yüzillikdə çəkilmiş miniatür

S Təbrizin mərkəzi hakimiyyətə birləşdirilməsinin hansı əhəmiyyəti ola bilərdi?

S Şəmsəddin Eldənizin bu siyasətini necə dəyərləndirirsiniz? Bu siyasəti müasir Azərbaycan Respublikasının multikulturalizm sahəsindəki siyasəti ilə əlaqələndirin.

Layihə

Atabəy Məhəmməd Cahan Pəhləvanın idarəetmə bacarığı və sərt tələbkarlığı sayəsində dövlət idarəsinin bütün sahələrində qayda-qanun möhkəmləndirildi. Onun hakimiyyətinin dövründə dövlət heç bir xarici basqına məruz qalmadı. Gürcü çarı onunla sülh bağladı, onun tələblərini qəbul etdi. Məhəmməd Cahan Pəhləvan Azərbaycan dövlətinin ərazisini Şərqi Anadolu hesabına xeyli genişləndirdi. **Xarəzmşahlar dövləti** ilə dostluq münasibəti yaranması nəticəsində şərq sərhədlərində də sabitlik təmin edildi.

Cahan Pəhləvanın xarici siyasətində ən çətin məsələlərdən biri də dövlətin qərb sərhədlərində asayişin təmin edilməsi idi. Onun dövründə Misir və Suriyanı idarə edən Əyyubilər sülaləsi ilə münasibətlər gərginləşdi. Bunun səbəbi Mosul və Hilat uğrunda mübarizə idi. Lakin hər iki dövlət arasında münasibətlər diplomatik yolla nizama salındı.

Məhəmməd Cahan Pəhləvan İraq Səlcuq sultanlığını öz hökmü altında saxlamaqla Abbasi xəlifəsinin dövlət işlərinə qarışmasının qarşısını aldı.

Məhəmməd Cahan Pəhləvan xəlifəyə məktubunda bildirirdi: "Əgər xəlifə imamdırsa, onun daimi məşğuliyyəti namaz qılmaqdan ibarət olmalıdır, çünki namaz dinin dirəyi və işlərin ən gözəlidir. Bu sahədə xalqa örnək olmaq və öndə getmək xəlifə üçün yetərlidir. Bu, həqiqi padşahlıqdır. Xəlifənin padşahın işlərinə qarışmasına ehtiyac yoxdur. Bu işləri sultanın ixtiyarına buraxmaq lazımdır".

**ZİYA BÜNYADOV**
*"Atabəylər dövləti"*

Məhəmməd Cahan Pəhləvanın bu siyasətini necə dəyərləndirirsiniz?

## Dövlətin tənəzzülü və süqutu

Qızıl Arslandan sonra hakimiyyətə Məhəmməd Cahan Pəhləvanın oğlunun gəlməsini qədim türk idarəetmə sistemi ilə əlaqələndirin.

1186-cı ildə tarixi qaynaqlarda "İslam padşahı, qüdrətli hökmdar, böyük Atabəy və Əcəm xaqanı" adlandırılan Məhəmməd Cahan Pəhləvan vəfat etdi. Məhəmməd Cahan Pəhləvanın ölümündən sonra hakimiyyət uğrunda mübarizə başlandı. Bu mübarizədə **Qızıl Arslan** qalib gəldi.

Qızıl Arslan 1190-cı ildə sultan III Toğrulu Həmədan yaxınlığında döyüşdə məğlub etdi. İraq Səlcuq Sultanlığını və Azərbaycanı idarə etməyə başlayan Qızıl Arslan Eldənizlər sülaləsindən sultan titulunu qəbul edən ilk hökmdar oldu. Ancaq 1191-ci ildə sui-qəsd nəticəsində öldürüldü.

Layihə



Atabəy Qızıl Arslanın şair Nizami Gəncəvini qarşılaması

1191-ci ildə Azərbaycan taxtına çıxan Məhəmməd Cahanın oğlu **Əbu Bəkrin (1191–1210)** dövründə dövlətin tənəzzülü başlandı.

Paytaxt şəhəri Naxçıvanda oturan Əbu Bəkr yalnız Azərbaycan və Arranın idarəsi ilə kifayətlənməli oldu. Əbu Bəkr dönəmində Azərbaycanda mərkəzi hakimiyyətin və dövlətin hərbi gücünün zəifləməsindən gürcülər istifadə edirdilər. Gürcü qoşunu Dəbildə elə bir qətliam törətmişdi ki, bir mənbəyə görə "bunu eşidən insanın tükləri biz-biz dururdu". XIII yüzilliyin əvvəllərində Azərbaycan gürcü qoşunlarının quldur basqınlarına məruz qaldı.

İbn əl-Əsirin yazdığına görə "gürcülər ölkəmizdə böyük qətliam, soyğun və qarətlər törədirdilər".

Ölkədə özbaşınalıq və tənəzzül hökm sürürdü.

1210-cu ildə Əbu Bəkr vəfat etdi və hakimiyyətə qardaşı **Özbək (1210–1225)** gəldi.

Eldənizlər dövləti monqolların Azərbaycana birinci yürüşü nəticəsində daha da zəiflədi. **1225-ci ildə Xarəzmşah şahzadəsi Cəlaləddin bu dövlətin varlığına son qoydu.**

"O (Özbək-red.) heç bir xeyirli işlə maraqlanmaz və öz mənliyini sevməzdi. Onun ölkəsi zəbt edilir, əsgərləri özbaşınalıq edib xalqın malına əl uzadır, nəticədə rəiyyət əldən düşürdü. Gecə-gündüz içki ilə məşğul idi. Bir təhlükə eşidəndə qorxudan əl-ayağı titrəyirdi. Azərbaycan və Arran tamamilə onun ixtiyarında idi. O isə ona qarşı gələn düşməndən ölkəsini müdafiə etməkdə Allahın yaratdığı adamların ən acizi və bacarıqsızı idi.

*"Azərbaycan tarixi üzrə qaynaqlar" əsərindən*

Mənbə əsasında müzakirə edin. Özbəyin idarəçiliyi ölkənin siyasi və iqtisadi vəziyyətinə necə təsir göstərə bilərdi?

Layihə

# 6 Şirvanşahlar dövləti XII yüzillikdə

III Mənuçöhr, IV David, Didqori döyüşü, I Axsitan, Şamaxı zəlzələsi, paytaxtın köçürülməsi

## III Mənuçöhr və İraq-Səlcuq sultanlığı

III Mənuçöhrün (1120–1160) hakimiyyətinin ilk dövründə Şirvanşahlar dövləti İraq səlcuqlarından asılı olaraq qalırdı. Gürcü hökmdarı IV David nikah diplomatiyasından istifadə edərək səlcuqlara qarşı mübarizədə Şirvanşahlarla müttəfiq olmağa çalışırdı. Digər tərəfdən IV David qıpçaq məliki Atrak xanla da qohumluq əlaqələri quraraq 40.000 qıpçaq ailəsini Gürcüstana köçürdü. Bu ona səlcuqlarla, həmçinin öz qonşuları ilə müharibə aparmaq üçün güclü ordu yaratmağa imkan verdi.

İraq Səlcuq sultanı 1121-ci ildə **Didqoru vuruşmasında** qoşunun böyük hissəsini qıpçaq türklərinin təşkil etdiyi gürcü çarı tərəfindən məğlub edildi. IV David 1122-ci ildə Tiflisi işğal etdi. Tiflis müsəlman əmirliyinin varlığına son qoyuldu. Bundan sonra Şirvanşah III Mənuçöhr İraq Səlcuq sultanlığının asılılığından çıxdı, hər il verməli olduğu xəracı ödəməkdən imtina etdi.



Qoşa qala qapılarının üzərindəki nişanlar

Layihə

III Mənuçöhrün bu addımı 1123-cü ildə İraq Səlcuq sultanının Şirvana yürüş etməsinə səbəb oldu. Lakin bu yürüş uğurla nəticələnmədi. Sultan Şirvanı tərk etdi. Bundan istifadə edən IV David 1123–1224-cü illərdə Şirvana yürüş etdi. Şamaxı şəhəri, Gülüstan və Buğurt qalaları gürcü qoşunları tərəfindən tutuldu. Lakin 1125-ci ildə Davidin ölümündən sonra işğalçılar Şirvanı tərk etdi. III Mənuçöhr Şirvanda hakimiyyətini bərpa etdi.

Bundan sonra Şirvanşahlar dövlətinin güclənmə və sabitlik dövrü başladı. Mənuçöhr dövləti xeyli gücləndirmiş və ölkədə böyük quruculuq işləri aparmışdır. O, şəhərləri möhkəmləndirir, yeni qalalar saldırır, elm xadimləri, həkim və şairləri himayə edirdi. Mənuçöhrün 1160-cı ildə ölümü ölkədə siyasi böhrana və hakimiyyət uğrunda mübarizəyə səbəb oldu.

## Şirvanşah I Axsitanın daxili və xarici siyasəti

Mənuçöhrün ölümündən sonra onun dul qalmış arvadı Tamar kiçik oğlu ilə birlikdə qıpçaqlara arxalanaraq Şirvanı Gürcüstana ilhaq etməyə çalışırdı. Lakin atabəy Eldənizin hərbi köməyi ilə Mənuçöhrün böyük oğlu **Axsitan (1160–1196)** hakimiyyətə gəldi. Hakimiyyətinin ilk dövründə I Axsitan öz siyasətində onun hakimiyyətə gəlməsinə kömək göstərmiş Eldənizlərə arxalanırdı. Atabəylər dövlətinin zəifləməsi I Axsitanın müstəqil siyasət yeritməsinə səbəb oldu. Şirvanşahlar dövləti gücləndi.

I Axsitanın hökmranlıq illərində Şirvanşahlar dövləti yenidən yüksəliş dövrünə qədəm qoydu. İqtisadi həyat canlandı. Kənd təsərrüfatı, sənətkarlıq və ticarət sürətlə inkişaf etməyə başladı.

Gürcü hökmdarları Cənubi Qafqazın nüfuzlu və güclü dövlətlərindən olan Şirvanşahlar dövləti ilə müttəfiq olmaqda maraqlı idilər.



I Axsitan

Ləyihə


GÜRCÜ ÇARLIĞI
Kür
Tiflis
Lori
Qazax
ŞƏKİ HAKİMLİYİ
Qanıx
Qabırrı
Samur
Şəki
Dərbənd
Xəzər Dənizi
Buğurt
Gülüstan
Şamaxı
ŞİRVANŞAHLAR DÖVLƏTİ
Bakı
Gəncə
Bərdə
Kür
Göyçə gölü
Tərtər
Araz
Beyləqan
Araz
Kür
Maku
Naxçıvan
Əlincə
Araz
Qarasu
ATABƏYLƏR DÖVLƏTİ
Lənkəran
Astara
Əhər
Ərdəbil
Salmas
Təbriz
Sarab
Xalxal
Urmiya
Urmiya gölü
Marağa
GİLAN
Rəşt
Lahican
Uşnu
Zəncan
Qızılüzən
Sainqala
Paytaxtlar
Şəhərlər
Qalalar
Layihə



Şirvanşah I Axsitan
Bakı limanında.
Rəssam Oqtay Sadıqzadə

1173-cü ildə I Axsitan Gürcüstana bir müttəfiq kimi qohumu hökmdar III Georgiyə taxt-tacını saxlamaqda kömək etmişdir.

1175-ci ildə slavyanlar Xəzər dənizi vasitəsilə Şirvana yürüş etdilər. Lakin Şirvanşahın qoşunu onları məğlub etdi.

I Axsitan Şirvanşahlar dövlətinin müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə böyük əhəmiyyət verirdi. III Mənuçöhr, I Axsitan və onların varisləri dövründə Şirvanda, Şamaxıda, Bakıda və Abşeronda dövrümüzədək gəlib çatmış bir sıra qala, qəsr və istehkamlar tikilmişdir.

1192-ci ildə Şamaxıda dəhşətli zəlzələ baş verdi. I Axsitan paytaxtı **Bakıya** köçürməyə məcbur oldu. Bu dövrdə Bakı liman şəhəri və yaxşı möhkəmləndirilmiş qala idi.

I Axsitanın apardığı daxili və xarici siyasət nəticəsində Şirvanşahlar dövləti siyasi-iqtisadi və hərbi cəhətdən gücləndi. Mədəniyyətin inkişafına əlverişli şərait yarandı.

Cədvəli tamamlayın

| HÖKMDARLARIN HAKİMİYYƏT DÖVRÜNÜ MÜQAYİSƏ EDİN | |
|---|---|
| **III Mənuçöhr** | **I Axsitan** |
| Fərqli cəhətlər | Fərqli cəhətlər |
| Oxşar cəhətlər | |

Layihə

# 7 IX–XII yüzilliklərdə Azərbaycanda sosial-iqtisadi vəziyyət

Torpaq mülkiyyəti, uluc, vergilər, sənətkarlıq, ticarət, şəhərlər

Şəklə əsasən Şamaxı şəhər əhalisinin məşğuliyyəti haqqında fikir yürüdün.



Şamaxı bazarı

## İqtisadi inkişaf

IX yüzilliyin ikinci yarısından etibarən xilafət zəifləməyə başladı. Azərbaycanda müstəqil dövlətçiliyin bərpası nəticəsində iqtisadiyyat və təsərrüfatda canlanma başlandı. Ayrı-ayrı işğalçı yürüşlərin baş verməsinə və feodal ara müharibələrinin bəzən artmasına baxmayaraq, yerli dövlətlərin yaranması sayəsində iqtisadiyyat inkişaf etməyə başladı. Kənd və şəhərlərdə təsərrüfat həyatı canlandı. Əhalinin həyatında bəzi dəyişikliklər yaranmağa başladı.

O zaman ölkənin iqtisadi və təsərrüfat həyatında əsas yeri kənd təsərrüfatı tuturdu. Lakin şəhərlər və şəhər həyatı, sənətkarlıq, ticarət və mədəniyyət də inkişaf etməkdə idi.

Orta əsrlərdə iqtisadi, ictimai həyatda torpaq həlledici rol oynayırdı. Bir sıra Yaxın və Orta Şərq ölkələrində olduğu kimi, Azərbaycanda da ən yaxşı və münbit torpaqlar böyük feodalların və onların vassallarının əlində toplanmışdı. Kəndlilərlə feodallar arasındakı ictimai və aqrar münasibətlər, əsasən, torpaq və su üzərindəki xüsusi mülkiyyətdən irəli gəlirdi. Torpaq üzərindəki mülkiyyət qaydaları müəyyən şərtlərdən asılı olduğuna görə həmin mülkiyyətin bir neçə növü var idi.

## IX-XII əsrlərlərdə Azərbaycanda torpaq mülkiyyəti formaları

| Torpaq mülkiyyəti | Xüsusiyyəti |
|---|---|
| Divan | • dövlətin ixtiyarında olan torpaqlar idi.<br>• Bu torpaq sahələrinin gəliri birbaşa dövlət xəzinəsinə daxil olurdu. |
| Xass | • hökmdar və hökmdar nəslinə məxsus olan torpaqlara deyilirdi. |
| İqta | • dövlətə xidmətə, əsasən də, hərbi qulluğa görə divan torpaqlarından verilən torpaqlar idi.<br>• Əsasən, irsi mülkiyyət hesab olunmurdu.<br>• X–XI əsr Azərbaycan feodal dövlətlərində iqta sistemi çox genişlənə bilməmişdi. Bu dövlətlərdə qoşun əsas etibarilə muzdla saxlanılırdı. Buna görə də iqta verilməsi çox da yayılmamışdı.<br>• İqta sistemi, əsasən, səlcuqların hakimiyyəti dövründə daha çox genişlənməyə başlamışdı. |
| Mülk | • irsi olaraq nəsildən nəslə keçə bildiyi kimi, satıla və başqasına bağışlana da bilərdi. |
| Vəqf | • ruhani və xeyriyyə təşkilatlarının, məscidlərin ixtiyarında olan torpaq sahələrinə deyilirdi.<br>• Vəqf torpaqlarını becərən kəndlilər bütün vergiləri vəqf sahibinə və ya idarəsinə verməli idi.<br>• Dövlət tərəfindən vəqf və böyük ruhanilərin torpaqları ya bütünlüklə, ya da qismən vergidən azad edilirdi. |
| İcma | • dövlətin xüsusi mülkü hesab olunurdu.<br>• Kəndlilər bu torpaq sahələrindən icma halında istifadə edir və xərac vergisini dövlətə birlikdə verirdilər. |

T Hazırda Azərbaycan Respublikasında hansı torpaq mülkiyyəti formalarının olduğunu araşdırın və müqayisələr aparın.

Layihə

## Kənd təsərrüfatı

IX–X əsrlərdə Azərbaycan əhalisinin əksəriyyəti kəndlərdə yaşayır, əkinçilik və maldarlıqla məşğul olurdular. Yarımköçmə maldarlıq əsas təsərrüfat sahələrindən biri idi.

Əkinçilik və maldarlıq Azərbaycanda əhalinin ən qədim məşğuliyyəti olmuşdur. İqlim şəraitinin münasibliyi Azərbaycan ərazisinin əkinçilik üçün çox əlverişli olmasını şərtləndirən əsas amillərdən biri idi. Azərbaycan ərazisində qədim və orta əsrlərdə bir sıra süni suvarma kanalları, arxlar çəkilmişdir. Bir tərəfdən çayların çox olması, digər tərəfdən süni suvarma şəbəkəsinin genişlənməsi və yaxşılaşması bağçılıq və bostan əkinlərinin hərtərəfli inkişaf etməsinə səbəb olurdu.

Orta əsrlərdə kənd təsərrüfatının əsas sahələrindən biri bostan və tərəvəz əkini idi. IX–XI əsrlərdə Azərbaycanda pambıq istehsalı çox böyük miqdarda olmasa da, ölkənin sənətkarlıq tələbatını ödəyəcək həcmdə əkilirdi.

Bu dövrdə Azərbaycanda kənd təsərrüfatının sahələri vilayətlərin torpaq və iqlim xüsusiyyətlərindən asılı olaraq genişlənməkdə idi.

**T**

Əvvəlki illərdə öyrəndiyiniz biliklər əsasında yarımköçmə maldarlığın xüsusiyyətlərini xatırlayın.

**T**

Azərbaycanın coğrafi mövqeyinin və təbii amillərin təsərrüfatın inkişafına, istehsal münasibətlərinə təsirlərini izah edin.

IX–X əsrlərdə Azərbaycanda kəndlilər

- Asılı kəndlilər
- Ölkənin dağ yerlərində yaşayan azad kəndlilər

Şumlama



Layihə



Qala qapıları

## Şəhər həyatı

IX əsrin ikinci yarısında Azərbaycanda müstəqil dövlətçiliyin bərpası şəhərlərin inkişafında yeni mərhələnin başlanmasına səbəb oldu. Əhalisi artan və ərazisi genişlənən şəhərlərin inkişafı sürətləndi. Bu, sənətkarlıq və ticarətin tərəqqisi ilə bağlı idi. Sənətkarlıq və ticarət şəhərdə əsas məşğuliyyət növü olmağa başlamışdı.

X əsrdə baş vermiş siyasi hadisələrə: feodal ara müharibələri və yadellilərin yürüşlərinə baxmayaraq, şəhərlərin yüksəlişi daha da sürətləndi. Bu dövrdə Azərbaycanın böyük şəhərlərində 10 minlərlə əhali yaşadığı halda, Qərb ölkələrində isə əhalisi çox olan şəhərlər az idi. Böyük və əhalisi çox olan Azərbaycan şəhərlərindən **Bərdəni, Gəncəni, Şamaxını, Beyləqanı, Ərdəbili, Marağanı və Təbrizi** göstərmək olar. Azərbaycan şəhərləri, əsas etibarilə, düşməndən müdafiə olunmaq, təsadüfi basqın və hücumlardan mühafizə üçün hasar və xəndəklərlə əhatə olunurdu.

Tarixi mənbələrdə bu dövrdə Azərbaycanın cənubunda Ərdəbil, Marağa və Təbrizin, şimalında isə Bərdə, Dərbənd və Tiflisin ən böyük şəhərlər olduğu qeyd edilir. Bu dövrdə Cənubi Qafqazın ən böyük şəhəri **Bərdə** idi. IX əsrin ikinci yarısında Azərbaycanın müstəqil dövlətçiliyinin bərpasından sonra Bərdə siyasi mövqeyini itirsə də, iqtisadi əhəmiyyətini saxlayırdı. Lakin 944-cü ildə slavyanların qarətçi işğalından sonra şəhər tənəzzül etdi.

Ərəb mənbələrində **Dərbənd** Arranın Bərdədən sonra ikinci, **Tiflis** isə üçüncü böyük şəhərləri kimi göstərilir. **"Qapılar qapısı"** adlandırılan Dərbənd Xəzər dənizində ən böyük liman idi. Müsəlman əmirliyinin mərkəzi olan Tiflis siyasi və ticarət mərkəzlərindən biri olmuşdur. Ərəb tarixçisi Tiflisin sərhəd şəhəri olduğunu qeyd edir.

T

IX-X əsrlərdə Azərbaycanda şəhərlərin inkişafının siyasi və iqtisadi səbəblərini cədvələ yazaraq, təhlil edin.

S

Azərbaycanın müstəqil dövlətçiliyinin bərpasından sonra Bərdənin siyasi mövqeyini itirməsinin səbəbi nə idi?

Ləyihə

# 8 Mədəniyyət

Mədrəsə, Bəhmənyar, “Kitabi-Dədə Qorqud”, Nizami Gəncəvi, Qız qalası, “Mühəndislər şeyxi”

IX–X yüzilliklərdə Azərbaycanda baş vermiş siyasi dirçəliş iqtisadi tərəqqiyə səbəb oldu. Müstəqil dövlətlərin yaranması şəhər həyatını canlandırdı və təsərrüfat inkişaf etdi. Bu, mədəniyyətin yüksəlişinə səbəb oldu. Müsəlman intibahının meydana çıxmasına öz töhfələrini vermiş Azərbaycanda təhsil və elm sahələrində mühüm irəliləyişlər baş verdi. Nəticədə XI–XII yüzilliklərdə Azərbaycan mədəniyyətinin yüksəliş dövrü olmuşdur.

S

Mədrəsələrdə dünyəvi elmlərin tədris olunmasının əhəmiyyəti nədə idi?

## Təhsil və elm

Bu dövrdə **məktəb*** və **mədrəsələr*** yenə də əsas təhsil müəssisələri olaraq qalırdı. Məktəblər ibtidai, mədrəsələr isə orta və ali təhsil verirdi. Mədrəsələrdə dini elmlərlə yanaşı, dünyəvi elmlər – təbabət, fəlsəfə, məntiq, hüquq, riyaziyyat kimi elmlər öyrədilir, ərəb dilinin mənimsənilməsinə xüsusi diqqət yetirilirdi. Təhsilini davam etdirmək istəyən gənclər müsəlman şərqinin mühüm mədəniyyət ocaqlarına üz tuturdular. Artıq bu dövrdə Azərbaycan şəhərləri elm-mədəniyyət mərkəzlərinə çevrilirdi.

Ümumiyyətlə, Azərbaycanın da daxil olduğu müsəlman şərqində elm və mədəniyyət yüksək səviyyədə idi. Elmin inkişafı İslam dinini qəbul etmiş xalqların birgə fəaliyyətinin nəticəsi idi. Həmin xalqların mədəniyyəti bir-birinə qarşılıqlı surətdə təsir göstərərək tərəqqi edirdi.

* **Məktəb** – ərəb mənşəli söz olub, “yazmaq” (kataba) feli ilə bağlıdır və hərfi mənada yazı yazılan yer mənasını verir.

* **Mədrəsə** – ərəbcə dərs mənasında işlənir.

Mədrəsə



Bəhs edilən dövrdə Azərbaycan müsəlman intibahının ən mühüm mərkəzlərindən biri idi. Alimlərimiz bir çox elm sahələrinin inkişafında dünya elminin ön sıralarında gedirdilər. İbn Sinanın tələbəsi olmuş böyük Azərbaycan filosofu **Bəhmənyar Mərzban oğlunun** əsərləri ona dünya şöhrəti qazandırmışdı. Fəlsəfi fikrin inkişafında xüsusi xidmətləri olan Bəhmənyarın əsərləri bir neçə xarici dilə tərcümə olunmuşdu.

Görkəmli alim **Xətib Təbrizi** fəlsəfə, məntiq, dilçilik və ədəbiyyatşünaslığa dair əsərlər yazmışdır. O, Bağdaddakı ən böyük Nizamiyyə mədrəsəsində 40 ildən çox dərs demişdir.

**Fazil Fəriddin Şirvani** 30 ildən artıq bir müddətdə astronomiya elmi ilə məşğul olmuş və bir neçə ulduz cədvəli tərtib etmişdir.



Bəhmənyar Mərzban



Xətib Təbrizinin rəsmi



Alimlər

Elm xadimlərinin fəaliyyətini əks etdirən cədvəl tərtib edin.

## “Kitabi-Dədə Qorqud”

Bu dastan Azərbaycan ədəbiyyatının şah əsəri olmaqla yanaşı, tariximizin ana qaynaqlarından biridir. Dastanın boylarını el sənətkarları – ozanlar oba-oba, oymaq-oymaq gəzib yayırdılar. Bu boylar onun yayıldığı ərazidə türk dilində danışan böyük bir xalqın yaşadığını sübut edir. “Kitabi-Dədə Qorqud” dastanı Dəmirqapı Dərbənddən Diyarbəkirə, Xəzərdən Qara dəniz sahillərindəki Abxaz elinə və Trabzona qədər geniş ərazidə yayılmışdı. “Kitabi-Dədə Qorqud”un bir tarixi mənbə kimi orta əsrlərə aid xalq qəhrəmanlıq dastanları içərisində özünəməxsus yeri vardır.

Dastanı Bayat boyundan Dədə Qorqud adlı el ağsaqqalı söyləyir. Azərbaycanda olmuş bəzi səyyahlar Dədə Qorqudun Dərbənddə dəfn olunduğunu yazmışlar.

Dastanda öz düşmənlərini “qara donlu kafirlər” adlandıran oğuz türklərinin Bizans və ondan asılı erməni və gürcü feodallarına qarşı mübarizəsi geniş yer tutur. Düşmənlər Azərbaycanın Qərb torpaqlarını işğal etməyə çalışırdılar.

Başqa hansı dastanlarımızla tanışsınız? “Kitabi-Dədə Qorqud” dastanının onlardan fərqi nədədir?

**BUNU BİLMƏK MARAQLIDIR**

“Kitabi-Dədə Qorqud” bir müqəddimə və on iki boydan ibarət dastandır. Dastanın dövrümüzədək iki nüsxəsi gəlib çatmışdır. Bir əlyazma nüsxəsi Almaniyada Drezden kitabxanasında saxlanılır. Bu nüsxə haqqında ilk məlumat XIX əsrin əvvəllərində verilmişdir.

Bir müddət sonra Vatikanda bu əsərin ikinci bir nüsxəsi tapılmışdır. İtalyan alimi Rossi tərəfindən 1952-ci ildə nəşr edilmiş bu nüsxədə 12 boydan ibarət olan dastanın 6 boyu verilmişdir.



Drezden əlyazmasının XVI əsr “Dədə Qorqud oğlu Boğaç” adlı birinci fəslinin başlanğıcı

Layihə



“Dədə Qorqud” illüstrasiyaları.
Rəssam Mikayıl Abdullayev

İllüstrasiyalarda nə təsvir olunmuşdur?

"Kitabi-Dədə Qorqud" boylarından məlum olur ki, oğuzlarda vətən sevgisi yüksək olmuşdur. Onlar dar gündə aralarındakı incikliyi unudub ümumi düşmənə qarşı birgə vuruşmuşlar. Torpaq oğuzlar üçün müqəddəs sayılırdı. Boş qalmış yurd yeri, sahibsiz qalmış vətən torpağı onlar üçün ən dəhşətli mənzərə idi.

Oğuzlar Dərbənd səddindəki qapılardan birini **Bayat qapısı** adlandırırdılar. Oğuz dövlətində ciddi hərbi intizam hökm sürürdü. Mühüm məsələlərə xanlar xanı Bayandır xanın çağırdığı hərbi məclislərdə baxılırdı.

Oğuzlar oturaq həyat tərzi sürür, taxıl əkir, bağçılıq və üzümçülüklə məşğul olur, su dəyirmanlarından istifadə edirdilər. Maldarlıqla da məşğul olan oğuzların at, dəvə və qoyun sürüləri vardı. Burada bir çox sənət sahələri inkişaf etmişdi. Qonşu ölkələrlə ticarət əlaqələri saxlayan oğuzlar ticarətdə qızıl pul – altun axça işlədirdilər.

Oğuzlarda ana müqəddəs sayılır, ana haqqı Tanrı haqqına bərabər tutulurdu. Oğuz qadınları at oynatmaqda, hünər göstərməkdə, düşmənlə cəng etməkdə kişilərdən geri qalmırdılar.

Azərbaycan türkləri İslam dinini ilk qəbul etmiş türk xalqlarından biridir. Xalqımız İslamı qəbul etməzdən əvvəl də tək Tanrıya sitayiş edirdi. Azərbaycan türkləri İslam dinini daha erkən qəbul etməklə yanaşı, bu dinin yayılmasında da mühüm rol oynamışdılar. İslamın qəbulu müxtəlif türk tayfalarının qaynayıb-qarışaraq vahid xalq halında formalaşmasına müsbət təsir göstərmişdir.




Dədə Qorqud abidəsi.
Bakı şəhəri

Dastandan məlum olur ki, qonaqsevərlik oğuzların başlıca el adətlərindən biri idi. Dədə Qorqud: **"Qonağı gəlməyən böyük evlər yıxılsa, yaxşıdır",** – deyirdi. Oğuzlar düşmən üzərində hər qələbədən sonra böyük el şənlikləri təşkil edirdilər. Yağılardan həmişə namərdlik görmüş oğuzların çox sevilən el məsəli **"Qarı düşmən dost olmaz"**dır.

T "Oğuz türklərinin el adətləri" adlı təqdimat hazırlayın.

Layihə

Tariximizin öyrənilməsində mühüm mənbə olan "Kitabi-Dədə Qorqud" dastanının 2000-ci ildə 1300 illik yubileyi təntənə ilə qeyd olunmuş, 2013-cü ildə Bakıda Dədə Qorqud parkı açılmışdır. Parkın mərkəzində "Kitabi-Dədə Qorqud" abidəsi ucalır.

## Ədəbiyyat

Azərbaycanda İntibah dövrü ədəbiyyatının ilk görkəmli nümayəndəsi **Qətran Təbrizi** idi. Onun qəsidələrində tariximizi öyrənmək üçün çox qiymətli məlumatlar vardır.

Ədəbiyyat tariximizdə ilk dəfə poema yazan böyük sənətkar Şamaxıda dünyaya gəlmiş **Əfzələddin Xaqani Şirvani** olmuşdur. O, qəsidə janrını yüksək zirvəyə qaldırmışdı.

**Məhsəti Gəncəvi** gözəl rübailər müəllifi kimi yadda qalmışdır. O, mükəmməl təhsil almış, Şərq ədəbiyyatı və musiqisini öyrənmiş, şahmat oynamağı bacarmışdır.

S Sizcə, XI–XII yüzilliklərdə ədəbiyyatımızın inkişafına hansı amillər təsir göstərmişdir?



Məhsəti Gəncəvi



Xaqani Şirvaninin portreti. Rəssam N.Babayev




Qətran Təbrizi. Rəssam Elmira Şahtaxtinskaya

layihə




Şəkil əsasında mətn tərtib edin.

Azərbaycan İntibah dövrü ədəbiyyatının zirvəsini **Nizami Gəncəvinin** yaradıcılığı tutur. Mənbələr Nizaminin tərtib etdiyi "Divan"ının 20000 beytə yaxın olduğunu göstərsə də, onun az hissəsi bizə çatmışdır.

Şairin təkcə qəzəlləri deyil, **"Xəmsə"si*** də ona dünya şöhrəti qazandırmışdır. Tarixi şəxsiyyətlərin obrazlarının yer aldığı və 5 böyük poemanın olduğu "Xəmsə"də şair ədəbiyyata ilk dəfə olaraq əməkçi obraz, ideal qadın, ədalətli şah və ədalətli cəmiyyət surətlərini gətirmişdir.

* "Xəmsə" ərəb mənşəli sözdür, mənası "beşlik", "beş ədəd" deməkdir.

Şirvanşah Axsitanın və Atabəy Qızıl Arslanın onu öz saraylarına dəvət etməsinə baxmayaraq, Nizami Gəncəni tərk etməmişdir.

Ümumdünya mədəniyyəti tarixinin nəhəng simalarından olan dahi sənətkarın zəngin yaradıcılıq irsi dünyanın müxtəlif ölkələrində bu gün də öyrənilməkdədir.

Sizcə, nə üçün Nizami hökmdarların saray təklifini qəbul etməmişdir?

İntibah dövrünün ədəbiyyat xadimləri haqqında cədvəl qurun.

## Memarlıq

Dövrün nəfis sənət sahələrindən biri də memarlıq idi. Azərbaycan memarlığının özünəməxsus xüsusiyyətləri olmuşdur. Memarların şəhərlərimizdə yaratdıqları abidələr öz gözəlliyi, orijinallığı, üslub və möhkəmliyi ilə dünya memarlığının inkişafına xeyli təsir göstərmişdir. IX–XII yüzilliklərdə inşa edilən memarlıq abidələrinin bir çoxu dövrümüzədək gəlib çıxmışdır.

Müsəlman ölkəsi kimi Azərbaycanda məscidlərin tikilməsinə böyük əhəmiyyət verilirdi. Bunlardan Qobustan rayonunun **Sündi** kəndindəki günbəzli məscidi və Bakıda **"Sınıqqala"** adı ilə tanınan məscidi göstərmək olar.

Bu dövrdə müdafiə qurğularının inşasına da xüsusi fikir verilirdi. Naxçıvanda **Əlincə qalası,** Bakıda **Qız qalası** və **Mərdəkan qalası,** Şamaxı yaxınlığındakı **Gülüstan qalası,** Ağsu çayı sahilində yerləşən **Buğurd qalası** Şərq memarlığının nadir incilərindəndir.

Araz çayı üzərində salınmış **Xudafərin körpüsü** Azərbaycanın Şimal və Cənubu arasında mədəni-iqtisadi əlaqələrin genişlənməsində mühüm rol oynamışdır.

Sınıqqala (Məhəmməd) məscidi. Bakı



Layihə

İntibah dövrünün memarları içərisində **Məsud Davud oğlu** və **Əcəmi Əbubəkr oğlu** xüsusi yer tutur.

Məsud Davud oğlunun Bakıda ucaltdığı Qız qalası dünyada bənzəri olmayan memarlıq abidəsidir. Naxçıvan memarlıq məktəbinin əsasını qoymuş Əcəmi Əbubəkr oğlu **"Mühəndislər şeyxi"** titulunu almışdı. O, Naxçıvanda **Yusif ibn Küseyr** və **Möminə xatun türbələrini, Qoşaminarə, Cümə məscidi, Darülmülk (Eldənizlər sarayı)** kimi nadir memarlıq abidələrini inşa etmişdi.

Memarlığın tərəqqisi incəsənətin onunla bağlı sahələrinin inkişafına təkan verdi. Azərbaycanda bədii sənətkarlığın ən gözəl nümunələrindən biri **Gəncənin məşhur qala darvazası** idi. Bu darvaza Şəddadi hökmdarı Əbüləsvar Şavurun göstərişi ilə usta **İbrahim Osmanoğlu** tərəfindən düzəldilmişdi.



Xudafərin körpüsü



Gülüstan qalası *(qalıqları)*. Şamaxı



Buğurd qalası *(qalıqları)*. Ağsu



Möminə xatun türbəsi. Naxçıvan



Yusif ibn Küseyr türbəsi. Naxçıvan



Özünü yoxla

Qız qalası. Bakı

Layihə

# 9 Azərbaycanda monqolların hakimiyyəti

Xarəzmşahlar dövləti, Çingiz xan, monqol yürüşləri, usta Bəndər üsyanı, yarlıq, Hülakü xan

Çingiz xan



## Monqolların Azərbaycana birinci yürüşü

1206-cı ildə Onon çayı sahilindəki qurultayda **Çingiz xanın** başçılığı ilə Monqol dövləti yarandı.

Bundan sonra monqolların böyük hərbi yürüşləri başlandı. Onlar Şimali Çində möhkəmləndikdən sonra Mərkəzi Asiyaya hücum etdilər. Burada mövcud olan Xarəzmşahlar dövləti daxili feodal çəkişmələrindən zəifləmişdi.

Sizcə, feodal çəkişmələrinin səbəbi nə idi?

1219–1220-ci illərdə Çingiz xanın ordusu Mərkəzi Asiyanın zəngin şəhərlərini ələ keçirdi. Monqollara qarşı mübarizəni Xarəzmşahın oğlu **Cəlaləddin** davam etdirdi.

## AZƏRBAYCANA MONQOL YÜRÜŞLƏRİ




- 1220–1239 Monqolların yürüşləri
- 1225–1231 Cəlaləddinin Azərbaycana yürüşü
- 1256–1258 Hülakü xanın yürüşü
- Qalalar

Xəritə əsasında Azərbaycana olan yürüşləri mövcud siyasi vəziyyətlə əlaqələndirin.

Monqolların yürüşü ərəfəsində Azərbaycanda siyasi vəziyyəti təhlil edin.

Monqolların yürüşü ərəfəsində Azərbaycanda feodal dağınıqlığı mövcud idi. Eldənizlər dövləti tənəzzül dövrünü yaşayırdı.

Çingiz xanın əmri ilə monqol ordusu 1220-ci ilin sonunda **Subutay** və **Cəbənin** başçılığı altında Azərbaycana yürüşə başladı. Monqollar Təbrizə yaxınlaşdılar. Atabəylər dövlətinin hökmdarı **Özbək** öz elçisini sülh təklifi ilə monqolların yanına göndərdi.

Özbək hansı tədbir görsə idi, daha səmərəli ola bilərdi?

Monqollar Təbrizdən xərac aldıqdan sonra Muğana, Arrana, oradan da Gürcüstana yönəldilər. Onlar Tiflis yaxınlığında gürcü qoşununu məğlub edərək çoxlu qənimət ələ keçirdilər.



Cəbə



Subutay

Monqollar Gürcüstanın içərilərinə qədər irəliləyib oranı qarət etdilər və yenidən Təbrizə tərəf qayıtdılar. Təbrizin hakimi bu dəfə də xərac verməklə monqolları şəhərdən uzaqlaşdırdı.

*"Mən Ərdəbili tərk edib getdikdən sonra tatarlar şəhərə basqın etmiş və əhalisini qırmışlar. Tatarlar ilə şəhər əhalisi arasında bir neçə döyüş olmuşdur. Əhali özünü qoruya bilmiş, iki dəfə onları şəhər yaxınlığından qovmuşdur. Ancaq tatarlar üçüncü dəfə basqın etdilər və şəhəri qoruyanlar artıq gücdən düşdükləri üçün tatarların qarşısında dayana bilməyib məğlub oldular. Tatarlar şəhəri çətinliklə ələ keçirib ... bir kimsəni salamat buraxmadılar".*

**YAQUT ƏL-HƏMƏVİ**
*"Kitab-əl-Buldan" ("Ölkələr kitabı")*

Mənbədə verilən məlumatın doğruluğunu hansı amil sübut edir? Şəhərin ələ keçirilməsinin səbəbi nə idi?

Layihə



Monqol hücumları

Monqollar güclü müqavimətdən sonra divardağıdan qurğuların köməyi ilə **Marağanı** ələ keçirdilər. Daha sonra əhalinin güclü müqavimətinə baxmayaraq, **Ərdəbil** də zəbt edildi.

Ərdəbili tutduqdan sonra monqollar üçüncü dəfə **Təbrizə** yürüş etdilər. Atabəy Özbək Naxçıvana, Əlincə qalasına qaçdı. Təbriz hakimi monqollarla danışığa girərək üçüncü dəfə xərac verməklə Təbrizi xilas etdi. Bundan sonra **Beyləqan** mühasirəyə alındı. Əhali təslim olmaq təklifini rədd etdi. Güclü müqavimətə baxmayaraq, şəhəri hücumla alan monqollar sonra Arranın başlıca şəhəri olan **Gəncəyə** hücum etdilər.

T

İllüstrasiya əsasında monqol süvarisini təsvir edin.

M

*“Şəhər müdafiəçilərinin çoxluğundan, onların gürcülərlə daimi mübarizədə əldə etdikləri dəyanətdən, qala divarlarının keçilməzliyindən xəbər tutan monqollar Gəncəni tutmaq fikrindən daşındılar”.*

**İBN ƏL-ƏSİR**
*“Əl-Kamil fi-t-Tarix” (“Kamil tarix”)*

T

Mənbə əsasında monqolların Gəncənin mühasirəsindən əl çəkməsinin səbəblərini təhlil edin.

Layihə



Monqolların Şamaxı qalasına hücumu. Rəssam Qafar Seyfullayev

Sonralar monqollar Dərbənd keçidi vasitəsilə Şimali Qafqaza çıxmaq üçün **Şirvana** yürüş etdilər. Şəhərlərin mühasirəsi zamanı divardeşən qurğu, mancanaq və xüsusi nərdivanlardan istifadə edilirdi. Mühasirə şəraitində qəhrəmanlıqla döyüşən **Şamaxı** əhalisi monqollara güclü müqavimət göstərsə də, onların üstün qüvvələri şəhəri ələ keçirdilər.

S

Sizcə, Şamaxı əhalisinin monqol hücumlarının qarşısını ala bilməməsinin səbəbi nə idi?

M

*“Tatarlar ... Şamaxı şəhərini mühasirə etdilər. Şamaxılılar bir müddət mühasirəyə dözdülər. Sonra tatarlar nərdivanlarla şəhərin divarları üzərinə qalxdılar. Şamaxı əhalisi demişdi: “Qılınca sarılmaq lazımdır. Bizə qılıncdan başqa qurtuluş yoxdur, səbir etmək və şərəflə ölmək hər şeydən yaxşıdır”.*

**İBN ƏL-ƏSİR**

*“Əl-Kamil fi-t-Tarix” (“Kamil tarix”)*

S Şəhər əhalisinin qərarını necə qiymətləndirirsiniz?

Layihə



Monqol süvarisi: geyimi və istifadə etdiyi silahlar



I Xarəzmşah Cəlaləddin

Daha sonra monqollar **Dərbəndə** yaxınlaşdılar. Lakin qalanın çox möhkəm olması onları Dərbəndin hakimi ilə danışıqlara girməyə vadar etdi. Monqollar Dərbənd keçidi vasitəsilə 1222-ci ildə Azərbaycanı tərk etdilər.

Monqolların kəşfiyyat yürüşünün nəticələri

- bir sıra şəhərlər (Marağa, Beyləqan, Şamaxı) dağıdıldı.
- gələcək işğala zəmin yaradıldı.

1225-ci ildə **Xarəzmşah Cəlaləddin** Azərbaycana yürüş etdi. Cəlaləddin monqollar tərəfindən dağıdılmış Marağada bərpa işləri apardı. Daha sonra Təbriz ələ keçirildi. Atabəylər dövlətinin varlığına son qoyuldu. Şirvanşahlar dövləti isə Cəlaləddindən asılılığı qəbul etdi.

Xarəzmşah Cəlaləddinin Azərbaycanda hakimiyyəti dövründə vergilərin artırılması və məmurların özbaşınalığı üsyanlara səbəb oldu. **1231-ci ildə Gəncə əhalisi üsyan qaldırdı və şəhərdə hakimiyyəti ələ keçirdi.** Üsyana **usta Bəndər** başçılıq edirdi. Üsyançıları məğlub edən Cəlaləddin monqolların yaxınlaşması xəbərini alan kimi tələsik Şərqi Anadoluya getdi.

## Monqolların Azərbaycana ikinci yürüşü

Monqol qoşunları 1231-ci ildə yenidən Azərbaycana hücum etdi. Bu yürüşdə monqolların məqsədi işğal etdikləri ölkələrdə, o cümlədən Azərbaycanda möhkəmlənmək idi. Marağanı tutan monqollar daha sonra Təbrizi mühasirəyə aldı. Təbriz ələ keçirildi. Monqollar Azərbaycanın cənubunu tutduqdan sonra Arrana və Şirvana yürüş etdilər. 1235-ci ildə Gəncə mühasirəyə alındı. Gəncə əhalisinin qəhrəmancasına müdafiə olunmasına baxmayaraq, qüvvələrin qeyri-bərabər olması nəticəsində şəhər ələ keçirildi və dağıdıldı.

1239-cu ildə Dərbəndin tutulması ilə Azərbaycanın monqollar tərəfindən işğalı tamamilə başa çatdı.

Sizcə, monqol qoşununun qələbələrinin səbəbləri nə idi?

Layihə

Monqolların birinci və ikinci yürüşlərini müqayisə edin.

| MONQOLLARIN AZƏRBAYCANA YÜRÜŞLƏRİ | | |
|---|---|---|
| | **Birinci yürüş** | **İkinci yürüş** |
| Fərqli cəhətlər | | |
| Oxşar cəhətlər | | |

## Monqol idarəçiliyinin yaradılması

Azərbaycan və bütövlükdə Cənubi Qafqaz 1239–1256-cı illərdə ali monqol xanının canişini tərəfindən idarə olunurdu. Azərbaycanın işğalı başa çatdıqdan sonra monqollar əhalini və təsərrüfatları siyahıya alaraq ağır vergi və mükəlləfiyyətlər təyin etdilər. Monqollara tabe olmayan yerli feodalların torpaq mülkləri müsadirə edilirdi. Torpaq mülklərini öz əlində saxlamaq üçün yerli hakimlər **yarlıq*** almalı idilər.

* **Yarlıq** – yerli feodallara öz mülklərini idarə etmək üçün verilən icazə sənədi

## Azərbaycan Elxanilər dövlətinin hakimiyyəti dövründə

1253-cü ildə Çingiz xanın nəvəsi **Hülakü xanın** başçılığı ilə monqol ordusu Ön Asiyada yeni ərazilər işğal etmək üçün yürüşə başladı. Bu yürüşün məqsədi İran, Ərəb İraqı, Suriya və başqa ərazilərdə mövcud olan müstəqil hakimləri tabe etmək idi. 1256-cı ildə Azərbaycan Hülakü xana tabe edildi.

1258-ci ildə Bağdad tutuldu və Abbasilər xilafətinə son qoyuldu. Beləliklə, Hülakülər dövləti yarandı. Sonralar Hülakü xan **elxan*** rütbəsi qəbul etdiyi üçün dövlət həm də Elxanilər dövləti adlandırılmışdır.

* **Elxan** "el" və "xan" sözlərinin birləşməsindən yaranmışdır. "El" qədim türk dilində *dövlət* deməkdir. "Xan" isə dövlət başçısına verilən tituldur.



Hülakü xan. XIV yüzilliyə aid miniatür

***Dövlətin paytaxtı Marağa, Təbriz, Sultaniyyə və yenidən Təbriz şəhərləri olmuşdu.*** Zəngin təbii şəraitə və əlverişli mövqeyə malik olması Azərbaycanın Elxanilər dövlətinin mərkəzi vilayətinə çevrilməsinə səbəb oldu.

Layihə

Çingiz qanunlarına görə ələ keçirilən ölkələrin $^{2}/_{5}$-i böyük xana, $^{1}/_{5}$-i isə Cuçinin ulusuna (Qızıl Ordu dövlətinə) aid idi. Digər tərəfdən Cuçi ulusunun mülkləri arasına daxil edilən Azərbaycanın vergisi Qızıl Ordu xanlarına aid idi. Hülakü onların haqqını qəsb edib... Azərbaycanı özünün mərkəz bölgəsi seçdi.

**Əkbər N.Nəcəf,**
*"Hülakü xan" əsərindən*

Hülakünün hökmdarlıq simvolu dovşan idi. Hülakü xana aid metal pulların üzərində dovşan təsviri də var idi.

Dövşan Qədim Asiya, xüsusilə, türk-moğol xalqlarının inancında böyük dini əhəmiyyətə sahib bir heyvan olub, insanlara ruhi mənada rəhbərlik edən rol icra edirdi.

**Əkbər N.Nəcəf,**
*"Hülakü xan" əsərindən*



**Hülakülər dövrünə aid metal pul**

*Beləliklə, monqolların üçüncü yürüşünün nəticəsində beşinci monqol ulusu – Hülakülər dövləti yarandı.*

Hülakülər dövlətində türk dili rəsmi mövqe qazandı. Dövrün tarixçisi Məhəmməd Naxçıvaninin məlumatına görə, mühüm sənədlər 3 dildə *(ərəbcə, farsca və türkcə)* yazılırdı və hər xalqa öz dilində çatdırılırdı.

## Azərbaycan uğrunda Elxani-Qızıl Ordu dövlətlərinin mübarizəsi

Əlverişli strateji mövqeyə malik Azərbaycanın Elxanilərin hakimiyyəti altına keçməsi digər monqol dövlətinin – Qızıl Ordunun narahatlığına səbəb oldu.

Şimali Qafqazda möhkəmlənən Qızıl Ordu xanları Böyük Qafqaz dağlarından cənubdakı məhsuldar torpaqları, xüsusən əlverişli otlaq sahələrinə malik olan Muğan, Mil, Şirvan düzənliklərinə sahib olmaq istəyirdilər. Həmçinin bölgədəki sənətkarlıq və ticarət mərkəzləri olan şəhərləri ələ keçirməyə, buradan keçən mühüm beynəlxalq ticarət yollarını öz nəzarətləri altına almağa çalışırdılar. Bu zəmində Qızıl Ordu ilə Elxanilər dövləti arasında gərgin mübarizə başladı və qısa fasilələrlə 100 ilə qədər davam etdi.

T Elxani-Qızıl Ordu dövlətləri arasındakı mübarizənin səbəblərini müəyyən edin.

XIII yüzilliyin 80-ci illərində köçəri feodalların getdikcə qüvvətlənməsi Hülakülər dövlətinin daxilində mərkəzi hakimiyyətə qarşı çıxışların baş verməsinə və feodal çəkişmələrinin güclənməsinə səbəb oldu. Hakimiyyət uğrunda çəkişmələr Elxanilər dövlətini zəiflətdi. Bundan istifadə edən Qızıl Ordu qoşunları yenidən Azərbaycana yürüşlərə başladı.

XIII yüzilliyin sonunda Qızıl Orduda feodal çəkişmələri gücləndi. Ona görə də bu dövrdə Elxanilər dövləti ilə Qızıl Ordu arasında toqquşmalara müvəqqəti ara verildi.

XIII yüzilliyin sonu – XIV yüzilliyin əvvəllərində Elxanilər dövlətinin hökmdarı **Qazan xan (1295–1304)** ölkə daxilində vəziyyəti nizama salmaq üçün tədbirlər gördüyündən Qızıl Orduya qarşı yeni hərbi əməliyyatlara başlamadı.

S Elxani-Qızıl Ordu dövlətləri arasında mübarizə ölkəmizə necə təsir edirdi?

Layihə



Qızıl Ordu qüvvələri hücum zamanı

## Qazan xanın islahatları

XIII yüzilliyin 80–90-cı illərində Hülakülər dövlətində baş verən siyasi və ictimai-iqtisadi böhran ən yüksək səviyyəyə çatdı. Dövlət xəzinəsinin və feodalların gəlirinin azalması Elxani hökmdarı Qazan xanı (1295–1304) daxili siyasət istiqamətini əsaslı surətdə dəyişməyə məcbur etdi. Nəticədə sosial-iqtisadi sahədə islahatlar həyata keçirilməyə başlandı.

S Sizcə, dövlətdə islahatlar hansı zərurətdən həyata keçirilir? Fikirlərinizi əsaslandırın.

Qazan xan mərkəzi hakimiyyətin möhkəmlənməsinə mane olan monqol əyanlarının nüfuzunu zəiflətmək üçün bir sıra tədbirlər gördü. *İlk növbədə, o və monqol əyanlarının əksəriyyəti işğal edilmiş ərazilərdə mövqelərini möhkəmləndirmək üçün İslam dinini qəbul etdi. İslam Hülakülərdə rəsmi dövlət dini oldu. Bununla da Böyük Monqol xaqanlığından asılılığa son qoyuldu.*

Qazan xan



## QAZAN XANIN

### torpaq islahatı

- qoşunda xidmət edən döyüşçülərə torpaq sahələri verilməsi qərara alındı.
- iqta adlanan bu torpaqlar incu, divan və boş qalmış ərazilər hesabına verilirdi;
- iqta sahibləri bu ərazilərdə məskunlaşmış əhalidən dövlət vergilərini toplamalı və xəzinəyə təhvil verməli idilər;
- onların fəaliyyəti hökmdar tərəfindən təyin edilən xüsusi məmurlar tərəfindən yoxlanılırdı;
- lakin iqta sahibləri kəndliləri sıxışdırmamalı, onların təsərrüfatda səmərəli işləmələri üçün şərait yaratmalı idi;
- kəndlilərin yaşadıqları əraziləri tərk etməsi qadağan edildi;
- torpaqlar boş qalmamalı və becərilməli idi. Ona görə də torpaqlar qeydə alındı, sahibsiz torpaqlar və becərilməyən torpaqlar satın alınaraq divana verildi. Bu torpaqlar onu becərmək istəyənlərə paylandı.

### vergi islahatı

- əhali siyahıya alındı;
- vergilər və onların dəqiq məbləği, pul və ya məhsulla ödənilmə üsulu müəyyənləşdirildi;
- vergilərin ödənilmə vaxtı dəqiqləşdirildi;
- qanunsuz vergilərin yığılması qadağan edildi;
- toplanan vergi vəsaitlərinin xərclənməsinə nəzarət qoyuldu.

### ticarət islahatı

- ölkədə vahid pul sistemi yarandı;
- çəki və ölçü vahidləri sabitləşdirildi;
- ticarət yolları və bazarlarda gömrük toplanması, karvan yollarının, ticarət mərkəzlərinin qorunması üçün tədbirlər görüldü.

Layihə

# İSLAHATLARI

## rabitə islahatı

- islahatın məqsədi dövlət rabitə xidmətini təşkil etmək idi;
- ölkənin bütün əsas yollarında hər 20-21 km-dən bir rabitə dayanacaqları təşkil edildi;
- dayanacaqlar lazımi işçilər və vəsaitlə təmin edilirdi. Onlara xüsusi başçılar – əmirlər təyin edilirdi;
- əhalidən vəsait alınması qadağan edildi;
- gömrüklərin həcmi və toplanma yerləri də dəqiqləşdirildi;
- yol gömrüklərini toplayanlar həm də yolların təhlükəsizliyini təmin etməli idi.

## məhkəmə islahatı

- məhkəmə sahəsində qanunsuzluq, rüşvətxorluq və özbaşınalığın qarşısını almaq qərara alındı.
- məhkəmə başçısı olan qazı vəzifəsinə layiqli din xadimlərinin təyin edilməsinə xüsusi əhəmiyyət verildi.
- qazıların rüşvət almaması üçün onlar bəzi vergi və mükəlləfiyyətlərdən azad edildi, xəzinədən müəyyən vəsaitlə təmin edilməklə ehtiyacları ödənildi.

### islahatların nəticələri

- əhalinin vəziyyəti, ölkənin iqtisadiyyatı nisbətən yaxşılaşdı;
- qanunsuzluq və rüşvətxorluğun azaldılması nəticəsində dövlətin gəlirləri artdı;
- mərkəzi hakimiyyət müvəqqəti olsa da, gücləndi.



Layihə

Səfərə çıxmadan öncə Hülakü xan münəccimini yanına çağırıb ulduzların onun bəxtinə nə yazdığını öyrənmək istədi. Münəccim dedi "Xilafət xanədanına hücum çəkmək və Bağdada ordu yeritmək uğurlu deyildir. Çünki son zamanlara qədər Bağdada və Abbasilərə hücum etməyə niyyət edən hər padşah hökmdarlıqdan və həyatından fayda görmədi. Əgər padşah mənim sözümə əhəmiyyət verməz və oraya hərəkət edərsə, yaxın zamanda 6 fəlakətlə üzləşəcəkdir: 1) bütün atlar öləcək, əsgərlər xəstələnəcək; 2) günəş doğmayacaq; 3) yağış yağmayacaq; 4) şiddətli fırtınalar çıxıb, dünya zəlzələlərlə xaraba qalacaq; 5) yerdən bitki çıxmayacaq; 6) həmin il böyük bir padşah öləcəkdir".

Hülakü xan Xacə Nəsrəddin Tusi ilə də məsləhətləşir. Tusi "bunların heç biri olmaz" dedikdə Hülakü xan soruşdu: "Bəs o zaman nə olacaq?" Tusi "Xəlifənin yerinə Hülakü olacaq" cavabını verdi.

*Moğol şahmatı. Hülagü xan. Əkbər N. Nəcəf*

*Aşşur hökmdarlarının kitabələrindən seçmələr*

## Dövlətin zəifləməsi və süqutu

Hülakülər dövlətində 12 yaşlı **Əbu Səidin** (1316–1335) taxta çıxmasından istifadə edən iri feodallar və şahzadələr mərkəzi hakimiyyətə qarşı çıxmağa, müstəqilliyə can atmağa başladılar. Elxanilər dövlətində daxili siyasi vəziyyətin kəskinləşməsindən istifadə edən Qızıl Ordunun növbəti yürüşləri başlandı.

Azərbaycan uğrunda Elxanilər dövləti ilə Qızıl Ordu arasında uzun sürən bu qanlı müharibələr monqolların hər iki dövlətini zəiflətdi və tənəzzülünə səbəb oldu. Hərbi əməliyyatlar, əsasən, Azərbaycan ərazisində baş verdiyi üçün onun nəticələri ölkəmiz üçün daha ağır idi. Yürüşlər zamanı şəhər və kəndlər dağıdılır, əkin yerləri məhv edilir, yerli əhali hədsiz məhrumiyyətlərə məruz qalırdı.

**Elxani-monqol əsgərləri. Miniatür**



1335-ci ildə Əbu Səidin sui-qəsd nəticəsində öldürülməsindən sonra Elxanilər dövlətində feodal hakimləri arasında başlayan çəkişmələr dövlətin tənəzzülünə və onun ayrı-ayrı feodal hakimliklərə parçalanmasına gətirib çıxardı.

Ara müharibələrində rəqiblərinə qalib gələn feodal qruplardan biri olan **Çobanilər** Elxanilər dövlətində faktiki hakimiyyəti ələ keçirdilər. Çobanilər padşah elan etdikləri Elxani hökmdarları üzərində tam nəzarətə malik idilər. Orta əsrlərin siyasi qaydalarına görə hakimiyyətə hökmdar nəslinə məxsus şəxslər gələ bilərdilər.

Ona görə də Çobanilər Elxanilər dövlətinin idarəsini tamamilə öz əllərində cəmləşdirsələr də, hüquqi cəhətdən bu dövlətin **baş əmiri** idilər. Onlar dövləti Hülakü hökmdarlarının adından idarə edirdilər.

XIV əsrin 50-ci illərində Çobanilərin hakimiyyətinə qarşı narazılıq gücləndi. Baş əmir Məlik Əşrəfin zülmündən cana doymuş yerli əhali Qızıl Ordu hökmdarı Canıbəyin yanına şikayətçilər göndərdi. Azərbaycanı və bütün Cənubi Qafqazı tutmaq üçün əlverişli şərait yarandığını görən Canıbəy 1357-ci ildə yürüşə başladı. Qızıl Ordunun qoşunları paytaxt Təbrizi ələ keçirdi.

Beləliklə, Elxanilər dövləti süqut etdi. Lakin Qızıl Ordunun da Azərbaycanda hakimiyyəti çox qısa sürdü. Qızıl Ordu dövlətində başlanan daxili çəkişmələr onların Azərbaycanı tərk etməsinə səbəb oldu. Yaranmış hakimiyyət boşluğundan istifadə edən yerli feodallar hakimiyyəti öz əllərinə aldılar.

Sizcə, dövlətin süqutunun qarşısını almaq üçün nə etmək olardı?

Elxanilər dövlətinin süqut səbəblərini araşdırın. Topladığınız məlumatları qruplaşdırın.

## Azərbaycan Cəlairilərin hakimiyyəti dövründə

Hülakülər dövlətinin tənəzzülü dövründə hakimiyyət uğrunda mübarizə aparan feodal qruplardan biri də **Cəlairilər** idi. Cəlairilər dövlətinin əsası 1340-cı ildə **Şeyx Həsən** tərəfindən Bağdadda qoyulmuşdur. O, Azərbaycanı öz dövlətinin tərkibinə daxil etmək üçün yürüşlər etsə də, uğursuz olmuşdur.

1359-cu ildə Cəlairi hökmdarı Şeyx Üveys Azərbaycana yürüş edərək Təbrizi tutdu. Beləliklə, Azərbaycanın böyük hissəsi Cəlairilər dövlətinin tərkibinə daxil oldu. Şirvanşahlar dövləti də Cəlairilər dövlətindən asılı vəziyyətə salındı. Şeyx Üveysin dövründə Azərbaycanın təsərrüfat və mədəni həyatında nisbətən canlanma baş verdi. Suvarma kanalları çəkildi, kənd təsərrüfatının inkişafı üçün müəyyən şərait yaradıldı.

Lakin Şeyx Üveysin ölümündən sonra hakimiyyət uğrunda başlanan mübarizə Cəlairilər dövlətini zəiflətdi. XIV yüzilliyin ikinci yarısında Mərkəzi Asiyada Teymurilər dövlətinin yaranması və onun qonşu ölkələrə hücumu ölkənin vəziyyətini daha da gərginləşdirdi. Nəticədə Azərbaycanın əsas ərazisi Cəlairilər dövlətinin nüfuz dairəsindən çıxdı.

Sizcə, tez-tez baş verən hakimiyyət dəyişiklikləri Azərbaycana necə təsir edirdi?

Dövlətləri müqayisə edin.

| | Hülakülər | Cəlairilər |
|---|---|---|
| Fərqli cəhətlər | | |
| Oxşar cəhətlər | | |



Əmir Teymur

Layihə

## Əmir Teymurun və Toxtamışın Azərbaycan uğrunda mübarizəsi

XIV yüzilliyin sonlarında Yaxın və Orta Şərqin, o cümlədən Azərbaycanın siyasi vəziyyətində mühüm dəyişiklik baş verdi. Bölgəyə Əmir Teymurun və Qızıl Ordu xanı Toxtamışın yürüşləri başlandı. Bu dövrdə dövlətlərarası münasibətlərə təsir göstərən amillərdən biri daxili və xarici ticarətlə bağlı idi. Beynəlxalq ticarət yollarına və əlverişli coğrafi mövqeyə malik ərazilərə nəzarət uğrunda mübarizə müharibələrə səbəb olurdu.

Şəkilə diqqətlə baxın, piyada döyüşçünün geyimi və silahları haqqında kiçik hekayə hazırlayın.

Bu dövrdə Azərbaycanın Kür çayından cənubdakı torpaqları Cəlairilər, şimaldakı torpaqları isə Şirvanşahlar dövlətinin tabeliyində idi. Şimal-qərbdə isə Şəki hakimliyi mövcud idi.



Qızıl Ordu piyadası

Teymuri piyadası

Layihə

Mərkəzi Asiyada öz hakimiyyətini quran Əmir Teymur tezliklə qonşu ölkələrə yürüşlərə başladı. Azərbaycanın mühüm strateji mövqeyi, ticarət əhəmiyyəti və zəngin təbii sərvətləri hər bir dövrdə böyük dövlətlərin bura yürüşlərinə səbəb olurdu. Ona görə də tezliklə Azərbaycan Əmir Teymurun yürüşlərinə məruz qaldı. Eyni zamanda Qızıl Ordu hökmdarı Toxtamış da Azərbaycana yürüşlər edirdi. 1385-ci ildə Toxtamış şimaldan Azərbaycana yürüşə başladı. O, Təbrizi hiylə ilə ələ keçirdi. Bu yürüşdən xəbər tutan Əmir Teymur da 1386-cı ildə Azərbaycana yürüş etdi. Bu yürüş nəticəsində o, Əlincə qalası istisna olmaqla, bütün Azərbaycanı nəzarət altına almağa nail olmuşdu. Təbrizin mahir sənətkarları və mədəniyyət xadimləri Teymuri dövlətinin paytaxtı Səmərqəndə aparıldı. I İbrahim diplomatik yolla Şirvanşahlar dövlətinin daxili müstəqilliyini qoruya bildi.

1392-ci ildə Əmir Teymur ikinci dəfə Azərbaycana yürüş etdi. Bu yürüş zamanı da Əlincə qalasını ələ keçirməyə nail ola bilmədi. Əlincə qalasında Cəlairilərin xəzinəsi saxlanılırdı.

Toxtamışın Azərbaycana yürüşlərinə cavab olaraq 1395-ci ildə Əmir Teymur Dərbənddən şimala doğru hücum edərək onu məğlub etdi. Bu yürüşdə Şirvanşah I İbrahim də Əmir Teymurun müttəfiqi kimi iştirak edirdi.

1399-cu ildə Əmir Teymur üçüncü yürüşə başladı. Uzunmüddətli mühasirədən sonra qalanın müdafiəçiləri arasında daxili çəkişmə nəticəsində Əlincə süqut etdi. Əmir Teymur Azərbaycanda ticarətin və təsərrüfatın inkişafına xüsusi diqqət yetirmişdir. Beyləqanda abadlıq işləri aparılmışdı. Şəhərin dirçəlməsi və təsərrüfatın canlanması məqsədilə Araz çayından buraya su arxı çəkdirmişdir.

**S**

Sizcə, Azərbaycan uğrunda Əmir Teymur və Toxtamış xanın mübarizə aparmasının səbəbləri nə idi?



Əlincə qalası

# 10 Şirvanşahlar dövləti və Şəki hakimliyi

I İbrahim, Dərbəndilər, Şəki hakimliyi



I İbrahim Dərbəndi

XIII yüzilliyin ortalarında Şirvanşahlar dövləti Hülakülər dövlətindən asılılığı qəbul etdi. Lakin tədricən müstəqilliklərini tamamilə itirərək Şirvanın bir hissəsini idarə etdilər. XIV yüzilliyin 30-cu illərində Hülakülər dövlətinin tənəzzülü dövründə Şirvanşahlar müstəqilliklərini bərpa etdilər.

Sizcə, Şirvanşahlar dövləti niyə Hülakülər dövlətindən asılılığı qəbul etdi?

1367-ci ildə Şirvanşah Kavus Təbrizə yürüş etdi. O, Azərbaycanı Cəlairilərin hakimiyyətindən azad etməyə cəhd göstərdi. Lakin Şeyx Üveysin yürüşü nəticəsində Şirvanşahlar Cəlairilər dövlətindən asılılığı qəbul etdi.

1382-ci ildə Şirvanda hakimiyyətə **I İbrahim** gəldi. Onun ata-babaları bir zamanlar Dərbəndin hakimi olmuşdular. Ona görə də İbrahimin əsasını qoyduğu sülalə **Dərbəndilər** adlanırdı. Onun hakimiyyəti Əmir Teymur və Toxtamışın Azərbaycana yürüşləri dövrünə təsadüf edir. Belə bir mürəkkəb siyasi vəziyyətdə I İbrahim Əmir Teymurla diplomatik danışıqlar apararaq Şirvanı dağıdıcı yürüşdən xilas etdi. O, Əmir Teymur tərəfindən Şirvan hakimi kimi tanındı.

**Beləliklə, hər iki tərəf ümumi düşmənə – Toxtamışa qarşı müttəfiq oldu.** Sonralar I İbrahim Şəki hakiminin də Teymurla ittifaq bağlamasına nail oldu.

Layihə

## ŞİRVANŞAHLAR DÖVLƏTİ




Şirvanşah I İbrahimi Alban hökmdarı Cavanşirlə müqayisə edin.

| | Şirvanşah I İbrahim | Alban hökmdarı Cavanşir |
|---|---|---|
| Fərqli cəhətlər | | |
| Oxşar cəhətlər | | |

1405-ci ildə Əmir Teymurun ölümündən sonra Teymurilər dövləti zəiflədi. Bundan istifadə edən I İbrahim Azərbaycan ərazilərini birləşdirmək siyasəti yürütməyə başladı. Bu məqsədlə Şəki və Azərbaycanın digər bir sıra yerli feodal hakimləri, həmçinin gürcü çarı ilə ittifaq bağladı.

**BUNU BİLMƏK MARAQLIDIR**

*Uzun müzakirələrdən sonra Şirvan əyanları hökmdarlıq əşyalarının yükləndiyi atlarla İbrahimin yanına yollandılar. Belə rəvayət olunur ki, onlar İbrahimi işləyib yorulduqdan sonra şumlanmış cərgənin yanındakı ağacın altında yatarkən gördülər. Onun başı üzərində hökmdarlıq çadırı qurub kənara çəkildilər və yeni şirvanşahın oyanmasını gözləməyə başladılar. İbrahim oyandıqda isə ehtiramla əyildilər və onu təbrik etdilər, sonra da şirvanşaha sədaqət andı içdilər. Axırda da İbrahimi özləri ilə paytaxt Şamaxıya apardılar və taxta oturtdular. O, öz təbəələri ilə ədalətli davrandı, onların ürəklərinə dinclik gətirib, səxavət göstərdi. Qısa vaxtda tanınaraq məşhurlaşdı.*

Layihə



Şirvanşahlar sarayı. Orta əsrlər



Şirvanşahlar dövrünə aid məscid. Bakı

1406-cı ildə Teymurilərə qarşı üsyan qaldıran Təbriz əhalisi I İbrahimi köməyə çağırdı. Yerli əhali tərəfindən hörmətlə qarşılanan İbrahim Təbrizə daxil oldu. Beləliklə, qısa müddətə Azərbaycan I İbrahimin hakimiyyəti altında birləşdirildi.

Lakin tezliklə Cəlairi hökmdarı Sultan Əhmədin və Qaraqoyunluların başçısı Qara Yusifin Azərbaycana qayıtması I İbrahimin Təbrizi tərk etməsinə səbəb oldu.

Zaman oxunda verilmiş tarixlərə aid hadisələri müəyyən edin.

1367-ci il → 1382-ci il → 1405-ci il → 1406-cı il

## Şəki hakimliyi

XIII yüzillikdə Şəki, əsasən, Şirvanşahlar dövlətinin tərkibində idi. XIII yüzilliyin sonu – XIV yüzilliyin əvvəllərində isə Şəki Hülakülər dövlətinin bura təyin etdiyi hakim tərəfindən idarə edilirdi.

XIV yüzilliyin 30-cu illərində Hülakülər dövləti tənəzzül dövrünə qədəm qoydu. Azərbaycanın şimalında Şirvanşahlar daxili müstəqilliyini bərpa etdilər. Bu dövrdə onun ərazisində bir sıra müstəqil feodal hakimliklər yarandı. Yaranmış şəraitdən istifadə edən Şəki hakimləri də daxili müstəqillik əldə etdi. Burada *Oyrat tayfasının nümayəndələrinin hakimiyyəti başlandı.*

XIV yüzilliyin sonlarında Azərbaycan Əmir Teymurun yürüşlərinə məruz qaldı. Şəki hakimliyi də bu yürüşlərdən kənarda qalmamamışdı.



Şirvanşahlar dövrünə aid dəbilqə

**Şəki hakimləri**

- uzun müddət öz müstəqilliyini qorumaq üçün mübarizə apardı.
- Teymurun qoşunu tərəfindən mühasirəyə alınan Əlincə qalasının müdafiəçilərinə kömək də etmişdir.
- gürcü qoşunları ilə birləşərək buradakı Teymuri qoşununu məğlub etdilər.

Teymurun Azərbaycana üçüncü yürüşü zamanı Şirvanşah I İbrahimin vasitəçiliyi ilə Şəki hakimi Əmir Teymurla münasibətləri qaydaya saldı. Əmir Teymur Şəki hakiminin daxili müstəqilliyini tanıdı. Bu hadisədən sonra Şəki hakimi Əmir Teymurun Gürcüstana və Osmanlı dövlətinə qarşı yürüşlərində onun müttəfiqi kimi iştirak etmişdi.

Şəki hakimliyi XV yüzillikdə də Azərbaycanın siyasi həyatında fəal iştirak etmiş və daxili müstəqilliyini qoruyub saxlamışdır.



Şirvan döyüşçüsünün qaruru *(içərisində yandırıcı qarışıq olan orta əsr əl qumbarası)* atması

Layihə

# 11 Mədəniyyət

**Ali mədrəsə, Marağa rəsədxanası, Nəsirəddin Tusi, Fəzlullah Rəşidəddin, hürufilik, Ərk qalası**

XIII–XIV yüzilliklərdə monqol işğalları və əsarəti Azərbaycanın ümumi inkişafını xeyli ləngitdi. Lakin Azərbaycan regionun digər bölgələri ilə müqayisədə həmin tarixi dövrün nisbətən tərəqqi etməkdə olan ölkəsi idi. Bu, Elxanilərin iqtisadi-siyasi və inzibati mərkəz kimi Azərbaycanı seçmələri ilə bağlı idi.

Monqollar Azərbaycana yalnız hərbi sahədəki uğurları ilə gəlmişdilər. Onlar elm və təhsil sahəsindəki çoxəsrlik təcrübəni yerli xalqdan öyrənməli oldular. Yerli mədəniyyətə uyğunlaşma bir çox onilliklər ərzində davam edən bir proses olmuşdur.

XIII–XIV yüzilliklərdə mədrəsə



## Təhsil və elm

Elxani hökmdarı Qazan xanın İslam dinini qəbul etməsindən sonra məscid və mədrəsələrin bərpasına, yeni təhsil ocaqlarının yaradılmasına başlanıldı. Bu isə ölkədə elm və təhsilin inkişafına təsir etdi.

Azərbaycanda təhsil sisteminin əsasını məktəb və mədrəsələr təşkil edirdi. Əsasən, ibtidai təhsil müəssisəsi olan məktəblərdə şəriət dərslərinə, Quran oxunmasına xüsusi diqqət yetirilirdi. Mədrəsələr, əsasən, orta təhsil verirdi.

Mədrəsədəki dərs prosesini öz sözlərinizlə ifadə edin.

Məktəb və mədrəsələrin nəzdində kitabxanalar fəaliyyət göstərirdi. Təbrizin Şam-Qazan məhəlləsində qiymətli kitablar xəzinəsi olan iki kitabxana var idi.

Azərbaycan təhsil sistemində **Fəzlullah Rəşidəddin tərəfindən Təbrizdə yaradılmış ali mədrəsənin rolu böyük olmuşdur.** Bağdaddakı Nizamiyyə mədrəsə-

sindən sonra bu, Şərqdə yaradılmış **ikinci ali təhsil ocağı idi**. Mədrəsədə dini biliklərlə yanaşı, dünyəvi elmlər də tədris olunurdu.

**F.Rəşidəddinin** tibbə dair əsərləri Şərqdə böyük şöhrət tapmışdı. O, Təbrizdə müxtəlif xəstəliklərin müalicə olunduğu Şəfa evi açmışdı. Şəfa evinə müxtəlif ölkələrdən gələn gənclərə tibbi biliklər öyrədilirdi.

Dövrün tarixinin işıqlandırılmasında Hülakülər dövlətinin baş vəziri olmuş F.Rəşidəddinin xüsusi xidmətləri olmuşdur. Onun **"Came-ət-təvarix"** ("Tarixlər toplusu") əsəri monqol dövrünə həsr olunmuş qiymətli mənbədir.

Bu dövrdə **Azərbaycan dili** ifadəsi işlənməyə başlamış, **Məhəmməd Naxçıvani** dilçilik üzrə qiymətli əsərlər yazmışdı.

Coğrafiya sahəsində **Əbdürrəşid Bakuvi** görkəmli alim kimi tanınırdı. O, əsərlərində Bakı və digər Azərbaycan şəhərləri barədə qiymətli məlumatlar vermişdir.

Fəlsəfi fikrin inkişafında **Mahmud Şəbüstərinin** xüsusi xidmətləri olmuşdur.



Rəşidəddin Fəzlullahın abidəsi. Təbriz şəhəri



Məhəmməd Naxçıvani



Mahmud Şəbüstəri

Təhsilin inkişafı elmin müxtəlif sahələrinin tərəqqi etməsinə şərait yaratdı. **1259-cu ildə Marağada tikilən rəsədxana Şərqdə astronomiya elminin mərkəzinə çevrildi.**

Bu rəsədxananın fəaliyyətində onun banisi görkəmli alim, dövlət xadimi **Nəsirəddin Tusinin** əvəzsiz rolu olmuşdur.

O, Hülakü xanın məsləhətçisi, Abaqa xanın vəziri olmuşdur. N.Tusi astronomiya, əxlaq və həndəsə sahələrinə aid bir sıra qiymətli əsərlər yazmışdır. Onun "Əxlaqi-Nasiri" əsəri əsrlər boyu Yaxın Şərq ölkələrində dərslik kimi istifadə olunmuşdur.

F.Rəşidəddinlə N.Tusinin fəaliyyətləri baxımından oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayın.

**BİLİRSİNİZMİ?**

Nəsirəddin Tusi Marağadakı astronomiya rəsədxanasının tikintisinə başlamaq üçün lazım gələn məbləği Hülakü xana deyir. Xan: "Yəni ulduzlar haqqında elm belə faydalıdır ki, rəsədxanaya bu qədər pul xərcləyək?", – deyir. Nəsirəddin cavabında söyləyir: "İzin verin, bir nəfər dağa qalxıb, oradan boş bir tası yerə atsın. Ancaq bunu elə etsin ki, heç kəs bilməsin". Belə də edirlər. Tas qayalara dəyə-dəyə qorxulu səslər çıxarır. Hülakü xanın ordusu vahiməyə düşür. Nəsirəddinsə bu zaman xanla birlikdə sakitcə oturub qoşundakı vahiməni seyr edirdi. Nəsirəddin deyir: "Hökmdar, biz qayalardan gələn səsin səbəbini bildiyimizdən sakitcə əyləşmişik. Qoşun isə bunu bilmədiyi üçün həyəcan içindədir. Əgər biz səmada baş verən hadisələrin mahiyyətini irəlicədən bilsək, yer üzündə həmişə rahatlıq hökm sürər".



Nəsirəddin Hülakü xanı elə inandırır ki, o, rəsədxananın tikintisinə razılıq verir və bu məqsədlə 20 min dinar pul ayırır. Sonralar böyük alim rəsədxanada çalışan yüzdən artıq alimə həmişəlik donluq (əməkhaqqı) kəsilməsinə də nail olur. Bu məvacib Nəsirəddinin təşəbbüsü ilə vergilərdən yığılan vəsait hesabına ödənilirdi.

N.Tusinin Hülakü xana təsirinin əsas səbəbi nə idi?



Marağa rəsədxanası. Müasir görünüşü

Layihə

## Ədəbiyyat

XIII yüzillikdə Azərbaycan türkcəsində əsərlər yazılmağa başlandı. Doğma dilimizdə ilk poeziya nümunəsi yaradan şair **İzzəddin Həsənoğlu** olmuşdur. Müəllifin ana dilində ədəbi irsindən iki qəzəli məlumdur.

XIV yüzillik ədəbiyyatında hürufilik xüsusi yer tutur. **Hürufiliyin əsasını qoymuş Fəzlullah Nəimi** dövrünün görkəmli şairi və mütəfəkkiri olmuşdur. O, hürufiliyin nəzəri əsaslarını özünün "Cavidannamə" əsərində şərh etmişdir. Hürufiliyin digər görkəmli nümayəndəsi **İmadəddin Nəsimi** idi. O, Şərq və yunan fəlsəfi fikir nümayəndələrinin irsini dərindən mənimsəmişdi. Nəsimi poeziyada mütərəqqi ideyaların təbliğatçısı olmuşdur. Onun yaradıcılığı insanpərvərliyin tərənnümünə həsr olunmuşdur.

S

Sizcə, doğma dilimizdə ədəbi əsərlərin yaranmasının hansı əhəmiyyəti var idi?



Fəzlullah Nəimi



İmadəddin Nəsimi

## İncəsənət

XIII–XIV yüzilliklərdə Azərbaycan incəsənəti xeyli dərəcədə inkişaf etdi. Bu dövrdə toxunmuş xalçalar dünya bazarlarında şöhrət tapmışdı. Təbriz xalçaçılıq məktəbi miniatür məktəbinin bədii xüsusiyyətlərini mənimsəyərək daha yüksək səviyyəyə qalxdı.

Metalişləmə sənəti sahəsində böyük uğurlar əldə edildi. Təbriz ustalarının 1319-cu ildə hazırladığı bədii naxışlı kasa Londonda Viktoriya və Albert muzeyində saxlanılır. Hazırda Qazaxıstanda, Əhməd Yəsəvi muzeyində sərgilənən **tiyan*** 1399-cu ildə Əmir Teymurun sifarişi ilə Təbrizdə hazırlanmışdı.

Əmir Teymurun sifarişi ilə hazırlanmış tiyan



* Tiyan metaldan hazırlanan çox iri və dərin qazandır.

Layihə

XIV yüzilliyə aid miniatür



Miniatürü təsvir edin.

Əbdülqədir Marağayi.
Rəssam Elmira Şahtaxtinskaya



Təbriz miniatür *(zərif işlənmiş kiçik rəsm, şəkil)* məktəbi bütün Yaxın Şərqdə məşhur idi. Görkəmli ədiblərin əlyazmalarına çəkilən miniatürlər hazırda dünyanın müxtəlif muzeylərində saxlanılır. Əl yazısı xəttatlığın inkişafına təkan verirdi.

Azərbaycan musiqisinin tərəqqisində **Əbdülqadir Marağayinin** böyük xidmətləri olmuşdur. O, musiqi sənətinə dair bir sıra qiymətli əsərlər yazmışdılar.

Sizcə, mədəniyyətin inkişafı üçün nələr lazımdır?

Əbdülqədir Marağayi haqqında məlumat toplayın.

Özünü yoxla



Olcaytu Xudabəndə türbəsi

## Memarlıq

Azərbaycanda memarlıq sənəti öz inkişafına görə digərlərindən seçilirdi. Təbriz memarlıq məktəbi xüsusilə məşhur idi.

Monqolların ikinci yürüşündə tamamilə dağıdılan Gəncə bərpa olunmuş, yeni şəhərlər: **Sultaniyyə** və **Mahmudabad** salınmışdı.

XIII–XIV yüzilliklərdə Abşeronda dörd qala – **Mərdəkandakı dairəvi və dördkünc qalalar, Nardaran və Ramana qalaları** inşa olundu. **Təbrizdə tikilən Əlişah məscidi** möhtəşəm memarlıq abidəsi idi. Onun divarlarının qalınlığı 3 metr idi. Təbrizlilər dar günlərdə bura sığındıqları üçün ona **“Ərk qalası”** adını vermişdilər.

**Sultaniyyədə inşa edilən Olcaytu Xudabəndə türbəsi** Şərq memarlığının nadir incilərindən hesab olunurdu.

Əlişah məscidi



Layihə

# 12 Qaraqoyunlu (Baharlı) dövləti

**Baharlılar, Bayram Xoca, Qara Yusif, Teymurilərlə mübarizə, Cahanşah, Muş döyüşü**

Türk boyları hələ qədim dövrlərdən Mərkəzi Asiyadan Qara dəniz sahillərinə, Qafqazdan Anadoluya qədər yayılmışdı. XI əsrdə böyük fəthlər edib geniş ərazilərdə hakim olan oğuz boylarının bir hissəsi monqolların təzyiqləri nəticəsində Azərbaycandan Anadoluya, İraq və Suriyaya sıxışdırıldı. Lakin tədricən güclərini bərpa edən oğuzlar yeni dövlətlər qurmağa başladılar. Bu dövlətlərdən biri **Baharlı** nəslinin başçılıq etdiyi **Qaraqoyunlu dövləti** idi.

Hələ XIV yüzilliyin 70-ci illərində Ərciş və Van gölü ətrafında yaşayan bəzi oğuz boyları Bayram Xoca Baharlının rəhbərliyi ilə birləşməyə başladı. ***Qaraqoyunlu bəyliyinin əsası qoyuldu.*** Onun oğlu Qara Məhəmmədin dövründə bəylik xeyli güclənmişdi. Lakin Əmir Teymurun hücumları bu bəyliyi zəiflətdi və dövlətin yaranma prosesini ləngitdi.

1405-ci ildə Teymurun ölümündən sonra onun varisləri arasında çəkişmələr başladı. Hadisələrin bu cür inkişafı Qaraqoyunlulara rəhbərlik edən Qara Yusifin əl-qolunu açdı.

**BİLİRSİNİZMİ?**

Qara Yusif mərd, cəsur, qorxmaz və qətiyyətli şəxsiyyət, bacarıqlı sərkərdə idi. O həm də dostluğa sədaqəti ilə seçilirdi. Cəlairilərlə dostluğun pozulması onun günahı üzündən baş verməmişdi. Qara Yusifin Ərzincanda olmasından istifadə edən Sultan Əhməd gözlənilmədən Təbrizi və Azərbaycanın cənubunu tutdu. Bundan sonra Qara Yusifin müharibədən başqa yolu qalmamışdı.



Qara Yusif

T Feodal hakimliyi ilə dövlət arasındakı fərqləri araşdırın.

## Dövlətin yaranması

Qara Yusif 1408-ci ildə teymuri qoşunlarını Sərdrud döyüşündə məğlub edib Azərbaycanın cənub torpaqlarından çıxardı. Onun müttəfiqi Sultan Əhməd Cəlairi idi. Əvvəlcədən razılaşdıqları kimi, Bağdad Sultan Əhmədin, Təbriz isə Qara Yusifin hakimiyyəti altına keçdi.

Lakin az sonra müttəfiqlər arasındakı dostluq münasibətləri düşmənçiliyə çevrildi. 1410-cu ildə Təbriz yaxınlığında keçmiş müttəfiqlərin qoşunları üz-üzə gəldi. Qara Yusif bu döyüşdə qalib gəldi. Əsir düşən Sultan Əhməd edam olundu. Bu hadisədən sonra Şərqi Anadolu, İraq, Qərbi İran, Kürdən cənubdakı Azərbaycan torpaqlarını əhatə edən Qaraqoyunlu (Baharlı) dövlətinin

Layihə




(1410–1468) əsası qoyuldu. Güclü süvari ordu yaradan yeni hökmdar müxtəlif üsullarla köçəri əmirləri də özünə tabe etdi, dövləti gücləndirdi. XVI əsr tarixçisi Həsən bəy Rumlunun əsərində Qara Yusif ***“Azərbaycan padşahı”*** kimi qeyd edilir.

I İbrahim Dərbəndinin Azərbaycanın şimalında möhkəmlənməsi və hətta Şərqi Gürcüstanı da tabe etməsi Qaraqoyunluların maraqlarına zidd idi.

Qara Yusif Cəlairilər üzərində qələbədən iki il sonra Kür çayı sahilində Şirvanşah I İbrahim və onun müttəfiqləri ilə döyüşə girdi. O bu döyüşdə də qələbə qazandı. Şirvanşahın müttəfiqi olan gürcü çarı əsir götürüldü və 300 əyanı ilə birlikdə edam olundu. Əsir düşən I İbrahim Qara Yusifdən asılılığı qəbul etdi. O, Təbriz tacirlərinin ödədiyi pul müqabilində azad edildi və Şirvana yola salındı. Şərqi Gürcüstan da Qara Yusifə itaət etdi.

S

Qara Yusifin uğurlarını nə ilə izah edə bilərsiniz?

S

Döyüşdə qalib gəlmək üşün hansı amillər vacibdir?

Layihə



**BUNU BİLMƏK MARAQLIDIR**

Şahrux isə öz növbəsində Qara Yusifə rədd cavabı verməyərək “dost olanlarla dostluğun, düşmən olanlarla da düşmənçiliyin tərəfdarı” olduğunu söyləmişdi. Bununla belə, Teymuri hökmdarı cavab məktubunun sonunda Qara Yusifdən oğlunu girov olaraq Herata göndərəcəyi təqdirdə Sultaniyə və ətraf əraziləri Qaraqoyunlu dövlətinin mülkü olaraq tanıyacağını yazmışdı. Yusifin məqsədi İpək yolu üzərindəki mühüm nöqtələrdən biri olan Sultaniyəni ələ keçirmək idi. Qaraqoyunlu hökmdarının keçmiş əmirlərindən biri üsyan edərək Sultaniyəyə yiyələnmiş, üstəlik, Şahruxa boyun əyərək onun hakimiyyətini qəbil etmişdi. Bu isə Yusifi ikiqat qəzəbləndirmişdi.

Qaraqoyunlular teymurilərlə döyüşdə



Qaraqoyunlu süvarisi

## Teymurilərlə mübarizə

Qara Yusif dövlət qurub onu möhkəmləndirməklə məşğul olan zaman Teymurilər dövləti yenidən güclənməyə başladı. Bu dövlətdə daxili çəkişmələrə son qoyan Şahrux gözünü Azərbaycana və itirilmiş digər ərazilərə dikmişdi. O, Azərbaycanın itirilməsi ilə heç cür barışmaq istəmirdi.

Lakin 1420-ci ildə Qara Yusif ölənə qədər Şahrux ciddi uğur əldə edə bilmədi. Bu hadisədən bir il sonra Teymuri qoşunları Qara Yusifin oğlu İsgəndəri Şərqi Anadoluda – Ələşgərd döyüşündə məğlub edə bildi. Lakin rəqiblər arasında mübarizə hələ xeyli müddət davam etdi. Yalnız 1435-ci ildə Təbrizə daxil olmağı bacaran Şahruxu Qara Yusifin digər oğlu **Cahanşah** qarşıladı. Şahrux onu Qaraqoyunlu hökmdarı kimi tanıdı. Cahanşah isə Şahruxdan asılılığı qəbul etməyə məcbur oldu.

## Cahanşahın tədbirləri

Mövcud siyasi şəraitlə barışmağa məcbur olan Cahanşah ilk vaxtlar əsas diqqətini dövlətin daxili problemlərinə yönəltmişdi. O, ölkədə sabitlik yaratdı, mərkəzi hakimiyyəti gücləndirdi. 1447-ci ildə Şahrux öləndən sonra isə müstəqil xarici siyasət yeritməyə başladı. Lakin köçəri əmirlərin müstəqillik meyilləri ona ciddi çətinlik törədirdi. Öz niyyətlərini həyata keçirmək üçün Cahanşaha güclü maliyyə dayaqları və güclü ordu lazım idi. Oturaq əhaliyə və iri tacirlərə arxalanaraq maliyyə problemini həll edən hökmdar bunun hesabına güclü ordu da yarada bildi. Bundan sonra sərhədlərini şərqə doğru genişləndirməyə başladı.

**S** Sizcə, ölkə daxilində sabitlik yaratmaq üçün hansı addımların atılması məqsədəuyğun olar?

Şahruxun ölümündən sonra Teymurilər dövlətində səngiməyən hakimiyyət çəkişmələri Cahanşahın işinə yarayırdı. O, XV əsrin 50-ci illərində əvvəlcə mərkəzi və Şərqi İran əyalətlərini ələ keçirdi. 1458-ci ildə isə Teymurilərin paytaxtı Herata daxil olub Teymuri taxtında da əyləşdi. Lakin ölkənin müxtəlif yerlərində baş verən qiyamlar Cahanşahı Teymuri Əbu Səidlə müqavilə imzalamağa vadar etdi. O, Əbu Səiddən xərac alaraq Heratı tərk etdi və geri dönməyə məcbur oldu.



Cahanşah. Miniatür

Cahanşah qonşu dövlətlərlə mehriban münasibətlərə üstünlük verirdi. Onun dövründə Osmanlı dövləti ilə diplomatik əlaqələr güclənmiş, dostluq münasibətləri möhkəmləndirilmişdi. **Öz məktublarında Osmanlı sultanı II Mehmet Cahanşaha "ata" deyə xitab edirdi.** Şirvanşahlar dövləti ilə də düşmənçilik aradan qaldırılmışdı.

Xarici siyasətdə əldə edilən uğurlara baxmayaraq, dövlətin daxili problemlərini həll etmək mümkün olmadı. Sabitlik tez-tez pozulur, ölkədə mərkəzi hakimiyyətə qarşı qiyamlar baş verirdi. Xalqın güzəranı pisləşirdi. Bütün bunlar Baharlıların nüfuzdan düşməsinə səbəb oldu.

XV yüzilliyin 60-cı illərində Qaraqoyunlu dövlətində mərkəzi hakimiyyət xeyli zəiflədi. Bundan isə Ağqoyunlular faydalandılar. Qaraqoyunlularla eyni soy-kökə malik olan ağqoyunlular baharlıların hakimiyyətinə son qoymaqda israrlı idilər. 1467-ci ildə **Muş** yaxınlığında Cahanşah ilə Uzun Həsənin orduları qarşı-qarşıya gəldi. Döyüş ağqoyunluların qələbəsi ilə başa çatdı. Cahanşah döyüşdə həlak oldu. Bu məğlubiyyət Baharlılar sülaləsinin süqutunu sürətləndirdi.

**S** Sizcə, qonşu dövlətlərlə mehriban qonşuluq siyasətinin hansı üstünlükləri vardır?

**T** Qara Yusif ilə Cahanşahın fəaliyyətini müqayisə edin, ortaq və fərqli cəhətlərini müəyyənləşdirin.

Layihə

# 13 Ağqoyunlu (Bayandurlu) dövləti

**Bayandurlu, Qara Osman, Saray xatun, Uzun Həsən, Osmanlılarla mübarizə, daxili çəkişmələr, Əbhər sazişi**

Bayandurlu nəsli hələ qədim dövrlərdən Azərbaycanda və Anadolu ərazisində məskunlaşmışdı. Təsadüfi deyil ki, yaşı 1300 ildən artıq olan “Kitabi-Dədə Qorqud”da xanlar xanı Bayandur xanın adı çəkilir.

Qaraqoyunlular XV yüzillikdə Anadolunun şərqində və Azərbaycanda öz hakimiyyətlərini qurarkən Bayandurlar nəslindən olan **Qara Osman** bəy də Van gölündən qərbdə yerləşən ərazilərdə Ağqoyunlu bəyliyinin əsasını qoymuşdu. O, Diyarbəkri mərkəz seçmiş, öz adına pul kəsdirmişdi.

Qara Osmanın ölümündən sonra bəylikdə hakimiyyət uğrunda mübarizə başlanır. Bu mübarizədə qalib çıxan **Həsən bəy Bayandur** 1453-cü ildə hakimiyyəti ələ aldı.

Həsən bəy Bayandur



Xəritəyə əsasən (səh. 101) Bayandurluların coğrafi mövqeyini müəyyən edin.

**BİLİRSİNİZMİ?**

Həsən bəy Bayandur orta əsr mənbələrində ucaboylu, güclü biri kimi təqdim edilir. Buna görə ona Uzun Həsən də deyilir. Müasirlərinin verdiyi məlumatlara görə onun üçün hətta at tapmaq bir problemə çevrilmişdi. Hakimiyyəti ələ alandan sonra çox keçmir ki, Həsən bəyin bacarıqlı dövlət xadimi və mahir sərkərdə olduğu da aydın olur. O, atdığı hər addımda anası Saray xatunla məsləhətləşir və təmkinli addımları ilə seçilirdi.

layihə

## Bayandurlar sülaləsinin hakimiyyətə gəlişi

Həsən bəy Bayandur XV yüzilliyin ortalarından başlayaraq Azərbaycanda hakimiyyəti ələ almaq üçün fəaliyyətə başladı. O, əvvəlcə Trabzon imperatorunun qızı ilə evlənir. Bu, Ağqoyunlu məhsullarının Trabzon limanlarında birbaşa Avropa tacirlərinə satılmasına imkan yaratmışdır.

Həsən bəy Bayandur Baharlı (Qaraqoyunlu) dövlətində də baş verən prosesləri diqqətlə izləyirdi. Bu dövrdə Qaraqoyunlu dövlətində baş verən qiyamlar və hakimiyyət uğrunda çəkişmələr baharlıların hakimiyyətini zəiflədirdi. Cahanşah Baharlının dövləti möhkəmləndirmək üçün atdığı addımlar səmərəsiz qalmışdı. Bayandurlar bu vəziyyətdən məharətlə istifadə etdi.

S

Azərbaycan tarixində nikah diplomatiyasına hansı nümunələr göstərə bilərsiniz? Sizcə, bu diplomatiyanın nə kimi əhəmiyyəti var?



Sizcə, dövləti gücləndirmək üçün başqa hansı tədbirlər həyata keçirmək vacibdir?

**Muş döyüşündə** rəqibini qəfil yaxalayan Həsən bəy qələbə qazandı. Bundan bir qədər sonra 1468-ci ildə Təbrizə daxil olan Həsən bəy Baharlıların hakimiyyətinə son qoydu. Beləliklə, oğuz türklərinin Azərbaycanda yeni sülaləsi hakimiyyətə gəldi.

Həsən bəy əvvəlcə **"padşah"** titulu qəbul etdi və Ağqoyunlu (Bayandurlu) dövlətinin banisi kimi tarixə düşdü.

Tezliklə Həsən padşah Bayandur (1468–1478) hakimiyyətini bütün İrana və İraqa, Şərqi Gürcüstana, Kürdən cənubdakı Azərbaycan torpaqlarına yaydı. Şərqi və Cənub-şərqi Anadolu torpaqları da Bayandurların nəzarəti altında idi.

Həsən padşah nizami süvari ordu yaratmışdı. Sayı 100 minə çatan bu ordu o dövrün ən güclü süvari ordusu hesab olunurdu. Daha sonra Həsən padşah bir sıra islahatlar keçirdi. Mərkəzi hakimiyyəti gücləndirmək istiqamətində onun tərəfindən mühüm addımlar atıldı, köçəri əmirlər tabe edildi.


Ağqoyunlu döyüşçüsü

## Azərbaycan diplomatiyasında yeni mərhələ

Bayandurlu dövləti qurularkən onun qərbində yerləşən Osmanlı dövləti yüksəliş dövrünə qədəm qoymuşdu. Sultan II Mehmetin məqsədi Şərqdən gəlib Avropaya gedən ticarət yollarına nəzarəti ələ keçirmək idi. Bu isə öz məhsullarını Trabzon vasitəsilə birbaşa Avropa tacirlərinə satıb qazanc əldə edən Bayandurlu tacirlərinin maraqlarına toxunurdu.

Təsadüfi deyil ki, Həsən bəyin Osmanlı dövləti ilə ilk silahlı münaqişəsi də məhz Trabzon uğrunda olmuşdu. Lakin hələ feodal hakimliyi formasında olan Bayandurlulara uzunmüddətli müharibə sərf etmirdi. Çünki Şərqdə hələ Baharlılar kimi güclü rəqib də mövcud idi.

Buna görə bəzi hərbi uğurlar əldə etməsinə baxmayaraq, Həsən bəy sülh danışıqlarına üstünlük verdi. Bu məqsədlə anası Saray xatunu II Mehmetin düşərgəsinə göndərir. Osmanlı sultanı sülhə razı oldu. Lakin Saray xatun onu Trabzona hücüm etmək fikrindən daşındıra bilmədi. Nəticədə Trabzon itirildi. Bu hadisə ilə Bayandurluların Avropa ilə ticarətinə ciddi zərbə vuruldu.

**BİLİRSİNİZMİ?**

Saray xatun şərq və qərb mənbələrində uzaqgörən, təmkinli, çətin şəraitdə doğru qərarlar verən diplomat qadın kimi məşhur olmuşdur. Həsən bəy mühüm məsələlərdə yalnız anası ilə məsləhətləşdikdən sonra qərarlar verməyi üstün sayırdı.

Qərbi Avropa elçiləri Həsən padşahdan əvvəl Saray xatun ilə görüşürdülər. Yalnız onun icazəsindən sonra elçilər Bayandurlu hökmdarı ilə görüşə bilirdilər.



S Saray xatunun hansı keyfiyyətləri diplomatlar üçün nümunə ola bilər?

## Həsən padşah Bayandur Avropa dövlətlərinin maraq dairəsində

Osmanlı dövlətindən şərqdə yerləşən Bayandurlu dövlətinin yaranması və onun gücü Avropa dövlətlərinin diqqətindən yayınmadı. Xüsusilə İtaliya şəhər-dövlətləri: Venesiya, Genuya Həsən padşah Bayandur ilə diplomatik münasibətlər qurmağa çalışırdı. Məqsəd isə Osmanlı dövlətinə qarşı ittifaq yaratmaq idi.

Osmanlıların Bayandurlu tacirləri üzərinə vergilər qoyması Həsən padşahın da maraqlarına toxunurdu. O həm də Trabzonun itirilməsi ilə barışmaq istəmirdi. Buna görə də 1472-ci ildə Venesiya ilə ittifaqa razılıq verdi.

S Sizcə, nə üçün Həsən padşah Bayandur Trabzonu itirmək istəmirdi?

Ağqoyunlu süvariləri. Miniatür



Lavihə

**İmzalanmış hərbi ittifaqa görə**

- **Bayandurlu dövləti** → Bayandurlu süvarilərini Aralıq dənizi sahillərinə çıxarmalı idi.
- **Venesiya** → Bayandurlulara gəmilər vasitəsilə odlu silahlar və artilleriya mütəxəssisləri göndərməli idi.

Bayandurlu süvariləri Qaraman bəyliyi ərazisindən Aralıq dənizi sahillərinə çıxsa da, venesiyalılar öhdəliklərini yerinə yetirmədilər. Nəticədə Bayandurlar dövləti osmanlılar ilə üzbəüz qaldı. Elə həmin il **Beyşehir döyüşündə** Bayandurlu qoşunu sayca üstün osmanlı ordusu tərəfindən məğlubiyyətə uğradıldı. *Bu hadisə ilə hələ 1461-ci ildən imzalanan sülh pozulmuş oldu.*

S Sizcə, nə üçün venesiyalılar öhdəliklərini yerinə yetirmədilər?



layihə

## Ağqoyunlu-Osmanlı müharibələri

Beyşehir döyüşündən bir il sonra II Mehmet böyük ordu ilə Azərbaycana doğru yürüşə başladı. Hər iki ordu Fərat çayının sahilindəki **Malatya** yaxınlığında üz-üzə gəldi. Osmanlılar sayca üstün olsalar da, Həsən padşah onların zərbə qüvvəsini pusquya saldı və məhv etdi. Bu məğlubiyyət II Mehmetə çox ağır təsir etdi.

Həsən padşah onun sülh təklifini qəbul etmədi. Osmanlı qoşununu təqib edən Bayandurlu süvariləri **Otluqbelidə** mövqe tutdu. Lakin onlarda odlu silahların olmaması, osmanlıların isə bu silahlardan məharətlə yararlanması döyüşün taleyini həll etdi. Osmanlılar qalib gəlsə də, böyük itkilər verən II Mehmet hərbi əməliyyatları davam etdirmək istəmədi. Onun ticarət yollarına nəzarətlə bağlı planları da yarımçıq qaldı.

T

Bayandurlular və Osmanlılar arasındakı müharibənin səbəblərini araşdırıb qruplaşdırın.

Otluqbeli döyüşünün sxemi




layihə



Yaqub padşah. Miniatür

Osmanlılarla müharibələr Həsən padşahın da hərbi gücünü zəiflətdi. Buna baxmayaraq, o, XV əsrin 70-ci illərində **Gürcüstana** uğurlu səfərlər etmiş, Tiflis də daxil olmaqla **Şərqi Gürcüstanı** öz hakimiyyəti altına almışdı. Avropa dövlətləri ilə də diplomatik münasibətlər saxlanılmış, **Macarıstan, Rodos, Moskva knyazlığı ilə** əlaqələr yaradılmışdı.

## Dövlətin tənəzzülü

Həsən padşahın ölümündən sonra hakimiyyətə oğlu **Yaqub** gəldi. Yaqub padşahın hakimiyyəti dövründə (1478–1490) dövlətdə nisbi sabitlik hökm sürmüşdür. Lakin onun ölümündən sonra Bayandurlu şahzadələri arasında hakimiyyət uğrunda çəkişmələr başladı.

1496-cı ildə Rüstəmə qalib gəlib hakimiyyəti ələ alan **Gödək Əhməd** bir sıra tədbirlər həyata keçirdi. Mərkəzi hakimiyyəti gücləndirməyə çalışdı, şəriətdə olmayan 20-dən artıq vergini ləğv etdi. Lakin onun mərkəzləşmə siyasətindən narazı qalan köçəri əmirlər qiyam qaldırdılar. Gödək Əhməd öldürüldü.

**1500-cü ildə isə iki Bayandurlu şahzadəsi – Murad və Əlvənd Mirzə Əbhər sazişi imzalayaraq dövləti bölüşdürdülər.** Zəifləmiş dövlətin süqutu artıq an məsələsi idi. XVI əsrin əvvəllərində Səfəvilərin zərbələri ilə Bayandurlu (Ağqoyunlu ) dövləti süqut etdi.

Mətnə əsasən cədvəli tamamlayın.

| Səbəb | Nəticə |
| --- | --- |
| ♦ ... | ♦ Həsən bəy Bayandur 1453-cü ildə hakimiyyəti ələ aldı. |
| ♦ Həsən bəy Bayandur Trabzon imperatorunun qızı ilə evlənir. | ♦ ... |
| ♦ ... | ♦ Həsən bəy Bayandur bir sıra islahatlar keçirdi. |
| ♦ Saray xatun II Mehmetlə görüşdü. | ♦ ... |
| ♦ ... | ♦ Həsən bəy Bayandur sülh danışıqlarına üstünlük verdi. |
| ♦ Həsən bəy Bayandur Venesiya ilə ittifaqa razılıq verdi. | ♦ ... |
| ♦ ... | ♦ XVI əsrin əvvəllərində Ağqoyunlu (Bayandurlu) dövləti süqut etdi. |

Bayandurlu dövlətinin güclü və zəif tərəflərini araşdırın. Dövlətin zəifləməsinə təsir göstərən səbəbləri müəyyən edin.

Layihə

# 14 Səfəvi dövlətinin qurulması

Şeyx Səfiəddin, Şeyx Cüneyd, Şeyx Heydər, qızılbaşlıq, Şahdağ döyüşü, Şah İsmayıl, Şərur döyüşü, Səfəvi dövləti

## Ərdəbil dərviş* təriqəti

* **Dərviş** *(farsca)* – qapı-qapı gəzən yoxsul mənasını verir. Burada dünya malından imtina edib özünü Allaha həsr edən şəxslər nəzərdə tutulur.



Şeyx Səfiəddin İshaq

Hülakü xan 1258-ci ildə Bağdadı tutub Abbasi xəlifələrinin hakimiyyətinə son qoymuşdu. Bu hadisədən sonra İslam dini ciddi sınaq qarşısında qaldı. Çünki xəlifələr dünyəvi hakimiyyətlərini itirsələr də, dini başçı hesab olunurdular. Artıq islam dünyasının vahid dini rəhbəri yox idi. Buna görə də XIII yüzilliyin ikinci yarısında çoxsaylı dini cərəyanlar, təriqətlər meydana gəldi. Onlardan biri də Ərdəbil dərviş təriqəti idi.

S Sizcə, vahid dini liderin olmaması o dövrdə hansı çətinliklər yarada bilərdi?

**Ərdəbil dərviş təriqətinin banisi Şeyx Səfiəddin İshaq olmuşdur.** O öz dövrünün məşhur alimlərindən olan Şeyx Zahid Gilanidən dərs almış, onun sevimli tələbəsi olmuşdur. Müasirləri Şeyx Səfiəddini **"Böyük Türk piri"** adlandırırdılar.

**BİLİRSİNİZMİ?**



Şeyx Zahid qocalmışdı. Vəfatına az qalmış o, kürəkəni Şeyx Səfini öz yerinə varis elan etdi. Bu hadisə onun oğlu Cəmaləddin Əli ilə Şeyx Səfi arasında çəkişməyə səbəb oldu.

Belə rəvayət edirlər ki, Şeyx Zahidin gözləri tutulan zaman bir bayram günü Şeyx Səfi onun yanına gəlməsin deyə Cəmaləddin Əli və digər bir şəxs şeyxin sağında və solunda otururlar. Amma Şeyx Zahid Şeyx Səfini yanına dəvət edir, onu öz taxtında əyləşdirərək mürşidliyi ***(mürşid*** *– "doğru yol göstərən", "təriqət rəhbəri")* həvalə edir. Bu hadisə Ərdəbil camaatını bir xeyli sevindirir.

S Sizcə, Şeyx Zahid Gilani doğma oğlunu deyil, Şeyx Səfiəddini öz varisi və mürşid elan etməsinin hansı səbəbləri ola bilər?

layihə



Hülakü xan tərəfindən Bağdadın alınması. Miniatür



• Pəncərələrdə və qapılarda fiqurlar – şəhər əhalisinin qorxu içində izləməsi



• Dəclə çayı üzərində döyüş – suda boğulan əsgərlər



• Monqol oxçuları sıralı şəkildə hücum edir.



• Bağdadın müdafiəçiləri



• Qülləvari gəmi/platforma – mühasirə və hücum texnikası

Miniatür əsasında kiçik mətn hazırlayın.

Sizcə, Ərdəbil dərviş təriqətinin nüfuzunun artmasına hansı amillər təsir göstərmişdi?

Təriqət başçılarının nüfuzunun artmasının iqtisadi və siyasi səbəblərini müəyyən edin.

Tezliklə Ərdəbil dərviş təriqətinin başçıları əhali arasında böyük nüfuz sahiblərinə çevrildilər. Onlar dərvişlər vasitəsilə 12 imamı və özlərinin də peyğəmbər soyundan olmalarını təbliğ edirdilər.

XIV–XV yüzilliklərdə Azərbaycanda davamlı sabitliyin olmaması, hakimiyyət uğrunda çəkişmələr əhalinin güzəranına mənfi təsir edirdi. Xalq məmur özbaşınalıqlarından əziyyət çəkir, xilaskar axtarırdı. Ərdəbil təriqətinin nüfuzunun daha da artması məhz bu dövrə təsadüf edir. Onların ideyaları sadə əhali arasında sürətlə yayılırdı. Artıq Ərdəbil şeyxlərinin təkcə Azərbaycanda deyil, Anadoluda, İranda, İraq və Suriyada da çoxsaylı ardıcılları var idi.

Ərdəbil şeyxlərinin nüfuzu ilə bəzi hökmdarlar belə hesablaşırdılar. Məsələn, Əmir Teymur Suriya və Anadoludan əsir götürdüyü insanları və bəzi əraziləri Ərdəbil təriqətinə bağışlamışdı.



Layihə

Artıq XV yüzillikdə Ərdəbil şeyxləri siyasi hakimiyyət uğrunda mübarizəyə qoşuldular. Bununla da dini dərviş təriqəti siyasi gücə çevrilməyə başladı. Artıq onlar siyasi hakimiyyətə can atırdılar.

## Şeyx Cüneyd

XV yüzilliyin ortalarına doğru Səfəvilərin Ərdəbil təriqəti güclənməyə başladı. Bu, ilk vaxtlar Şeyx Cüneydin adı ilə bağlı olmuşdur. Əsas məqsədi siyasi hakimiyyəti ələ keçirmək olan Şeyx Cüneyd ətrafında çoxsaylı tayfaları cəmləyə bilmişdi. Onun güclənməsi isə həmin dövrdə Azərbaycanda hakimiyyətdə olan Cahanşahı qorxudurdu. Məhz onun təzyiqləri ilə Şeyx Cüneyd 1449-cu ildə Ərdəbili tərk etməyə məcbur oldu.

S

Sizcə, Şeyx Cüneydin dövründə Ərdəbil təriqətində hansı dəyişikliklər baş vermişdir?

Bu isə Cahanşahın əsas rəqibi Həsən bəy Bayandurun diqqətindən yayınmadı. O, Şeyx Cüneydi Diyarbəkirə dəvət edib bacısı Xədicəni onunla evləndirdi. Beləliklə, əsl hədəfi Azərbaycanı ələ keçirmək olan Həsən bəy Bayandur Ərdəbil şeyxlərinin simasında özünə etibarlı müttəfiq qazanmış oldu.



Şeyx Səfi məqbərəsi. Ərdəbil

Layihə



Birləşmiş Baharlı-Şirvan qoşunu ilə Səfəvi qüvvələrinin döyüşü

Ətrafına 20 min mürid toplayan Şeyx Cüneyd 1460-cı ildə Şirvandan keçməklə Dağıstan üzərinə yürüşə başladı. Lakin onun güclənməsindən narahat olan Cahanşah Şirvanşah I Xəlilullaha kömək göndərdi. Birləşmiş Qaraqoyunlu-Şirvan qoşunu Səfəvi qüvvələrini **Samur çayı sahilində** məğlubiyyətə uğratdı. Şeyx Cüneyd döyüşdə öldürüldü.

S

Sizcə, Şeyx Cüneyd qalib gəlmək üçün nələr etməli idi?

## Qızılbaşlığın qurucusu

Atası Şeyx Cüneydin ölümündən sonra **Şeyx Heydər** təriqət başçısı oldu. O, dayısı Həsən bəy Bayandurun qızı Aləmşah bəyimlə evləndi. Bayandurlularla qohumluq əlaqələri daha da möhkəmləndi. XV yüzilliyin 60-cı illərində səfəvilərin əsas rəqibi olan Cahanşah sıradan çıxarıldı, baharlıların hakimiyyəti sona çatdı. Bundan istifadə edən Şeyx Heydər Ərdəbilə qayıtdı, rəhbərliyi tam şəkildə əlində cəmləşdirdi.

Şeyx Heydərin atdığı bir sıra addımlar Ərdəbil təriqətinin gücünü daha da artırdı. Onun dövründə dərviş dəstələri hərbi qaydada yenidən təşkil edildi.

Təriqət üzvləri başlarına türkman börkü əvəzinə, 12 imamın şərəfinə 12 qırmızı zolaqlı çalma qoymağa başladılar. Bundan sonra təriqət üzvləri **"qızılbaş"** adlandırıldı. Şeyx Heydər XV yüzilliyin 80-ci illərində iki dəfə Dərbənddən şimala yürüş təşkil etdi. Bu uğurlu yürüşlər onun şöhrətini və tərəfdarlarının sayını kəskin şəkildə artırdı.

Həsən padşahın vəfatından sonra taxta çıxan və Ərdəbil şeyxinin şöhrətinin artmasından narahat olan Yaqub Şeyx Heydərin güclənməsinə biganə qalmadı. O, qayınatası Şirvanşah Fərrux Yasarla birləşdi. Birləşmiş qüvvələr 1488-ci ildə **Şahdağ ətəyində** qızılbaşlarla döyüşə girdi. Şeyx Heydər məğlub edildi və döyüşdə həlak oldu.



Şeyx Heydər türbəsi

Yaqub padşah bununla kifayətlənməyərək Ərdəbil şeyxlərinin mülklərini müsadirə etdi. Şeyx Heydərin ailəsini – öz bacısı Aləmşah bəyimi və onun üç azyaşlı övladını həbsxanaya atdı. Bir yaşlı İsmayıl da onların arasında idi.

Yaqub padşahın ölümündən sonra Bayandurlu şahzadələr arasında hakimiyyət uğrunda başlanan mübarizə Səfəvi nəslinin ağır həbsxana həyatına son qoydu. Hakimiyyəti ələ keçirən Rüstəm Mirzə Şeyx Heydərin ailəsini azad etdirdi. Onun məqsədi bu mübarizələrdə səfəvilərin hərbi gücündən və siyasi nüfuzundan istifadə etmək idi.

Səfəvilərə arxalanaraq öz siyasi rəqiblərini sıradan çıxaran Rüstəm artıq onlara ehtiyac duymurdu. Əksinə, artıq səfəviləri özü və hakimiyyəti üçün təhlükə hesab edirdi. 1494-cü ildə **Şəməsi döyüşündə** keçmiş müttəfiqlər üz-üzə gəldi. Rüstəm Mirzə qələbə qazandı, Şeyx Sultanəli isə həlak oldu. Bu döyüşə qədər Sultanəli kiçik qardaşı İsmayılı varis təyin edə bilmişdi. İsmayıl sadiq tərəfdarları tərəfindən Lahicana aparıldı və təqiblərdən qorundu.

S

Rüstəm nə üçün səfəviləri özü və hakimiyyəti üçün təhlükə hesab edirdi?

Layihə





Şəməsi döyüşü

## Təriqətdən dövlətə

XV yüzilliyin sonlarında Bayandurlu şahzadələr arasındakı çəkişmələr sadə xalq arasında Səfəvilərin nüfuzunun artmasına səbəb oldu. Güzəranı pisləşən əhali ümidini Ərdəbil təriqətinə bağlayırdı. Yaranmış şərait qızılbaşları hərəkətə keçməyə məcbur etdi.

1499-cu ildə Ərdəbil şeyxlərinin varisi İsmayıl Lahicanı tərk edib Ərdəbilə gəldi. Qızılbaş əmirlərinin məsləhəti ilə fəaliyyətə keçən gənc İsmayılın əsas vəzifəsi təriqət üzvlərini yenidən bir araya toplamaq və Azərbaycanda siyasi hakimiyyəti ələ keçirmək idi. Ərdəbildə möhkəmlənə bilməyən İsmayıl Ərzincana yollandı. Yol boyunca qızılbaşlara qoşulanların sayı durmadan artırdı. 1500-cü ildə Ərzin-

canda qızılbaşların müşavirəsi toplandı. Qızılbaşların əsas rəqibləri Ağqoyunlular və Şirvanşahlar dövləti idi. Müşavirədə ilk zərbənin Şirvanşah Fərrux Yasara vurulması qərarı qəbul edildi.

Həmin ilin sonlarında İsmayılın başçılığı ilə qızılbaş qoşunu **Cabani düzündə** Şirvanşahın qoşunları ilə döyüşə girdi. Sayca az olmalarına baxmayaraq, qızılbaşlar Şirvan qoşununu darmadağın etdi, Fərrux Yasar isə həlak oldu. Qızılbaşlar Şamaxını, 1501-ci ilin yazında isə şiddətli müqavimətdən sonra Bakı qalasını da tutdular. Bu şəhərlərdəki Şirvanşahlara məxsus xəzinələr qızılbaşlara qaldı.

İsmayılın Şirvanşahlar üzərində qələbəsi və Şirvan şahının öldürülməsi böyük əks-səda yaratdı. Bu xəbər Azərbaycanın cənubunda hökmranlıq edən Bayandurlu Əlvənd Mirzəyə də çatdı. O, Şeyx İsmayıla Şirvanda qalmağı və oranın idarəsi ilə məşğul olmağı təklif etsə də, bu təklif rədd edildi. *Artıq İsmayılın diqqəti Təbrizə – Azərbaycanın taxtına yönəlmişdi.*

Ağqoyunlu və qızılbaş qüvvələri 1501-ci ilin ortalarında **Şərur** düzündə üz-üzə gəldi. Qızılbaşlar özlərindən qat-qat üstün olan ağqoyunlu qoşununu məğlub etdilər. Əlvənd Mirzə döyüş meydanından qaçdı. Gənc İsmayıl bu döyüşdə şəxsi igidlik və böyük sərkərdəlik məharəti nümayiş etdirdi. Qızılbaşların əsas gücü müridlərinin öz şeyxləri yolunda ölümə belə hazır olmasında, mənəviyyatca möhkəm və mətin olmalarında idi. Bütün döyüşlərdə şəxsən iştirak edən gənc İsmayıl isə qızılbaşların ilham mənbəyinə çevrilmişdi.



İlk Səfəvi bayraqlarından biri

S

Az qüvvə ilə sayca üstün düşmənə necə qalib gəlmək olar? Müasir dövrdə belə döyüş nümunələrindən hansının adını çəkə bilərsiniz?

S

Sizcə, qızılbaşların şöhrətinin artması və qələbə qazanmalarının səbəbi nədə idi?



Səfəvi döyüşçüsü

Layihə



İsmayıl 1501-ci ildə Azərbaycan taxtına çıxmaq üçün tacqoyma mərasimindən əvvəl Təbriz məscidində minbərin pilləkənlərində dayanaraq on iki imamın adından xütbə oxutdurur *(Britaniya kitabxanasından miniatür)*

Şəkil-miniatürə və verilmiş mətnə əsasən "İsmayılın taxta çıxması" adlı kiçik hekayə hazırlayın.

*Bu qələbədən sonra İsmayıl Təbrizə daxil oldu və özünü şah elan etdi.* **Beləliklə, Ərdəbil təriqətindən başlanan uzun mübarizə yolu Azərbaycan Səfəvilər dövlətinin yaranması ilə nəticələndi.**

## Şah I İsmayılın fəaliyyəti

Səfəvilərin Ağqoyunlular üzərində qələbələrini asanlaşdıran səbəbləri araşdırın.

Əlvənd Mirzənin məğlub edilməsi ilə bayandurluların Azərbaycandakı hakimiyyətinə son qoyuldu. Lakin ağqoyunluların digər nümayəndəsi Sultan Murad bu hadisə ilə barışmaq istəmirdi. 1503-cü ildə Fars və Əcəm İraqının hakimi ağqoyunlu Sultan Murad Həmədan yaxınlığında **Almabulağı** adlı yerdə baş verən döyüşdə məğlub edildi. Beləliklə, Ağqoyunlu dövlətinin varlığına tamamilə son qoyuldu.

Layihə



Mərv döyüşü

T Şəklə əsasən, geyimləri, silahlarını təsvir etməklə döyüşçülər haqqında fikir mübadiləsi aparın.

Şah I İsmayıl özünü babası Həsən padşah Bayandurun siyasi varisi sayırdı. Buna görə də qurduğu dövləti Ağqoyunlu sərhədləri daxilində bərpa etməyə başladı. Qısa müddət ərzində Ərəb İraqı, Diyarbəkirdən Xorasana qədər olan vilayətlər yeni dövlətin tərkibinə daxil edildi. Dərbənd və Dağıstan hakimləri itaətə gətirildi.

Lakin Səfəvilərin yüksəlişi ilə barışmayan daha bir rəqib ortaya çıxdı. Bu, Teymuri dövlətinə son qoyan Şeybani xan idi. Onun Xorasanı ələ keçirməsi Səfəvilərlə müharibəyə səbəb oldu.

*Şah I İsmayıl 1510-cu il Mərv döyüşündə Şeybani xanı məğlub edib bütün Xorasanı və Amudəryayaqədərki əraziləri hakimiyyəti altına aldı. Beləliklə, Səfəvi dövləti geniş ərazili imperiyaya çevrildi.*

S Sizcə, döyüşdə üstünlük əldə edən hansı tərəf ola bilər?

Layihə

## SƏFƏVİLƏR İMPERİYASININ XƏRİTƏSİ. XVI YÜZİLLİYİN ORTALARI







Səfəvi dövlətinin ərazisini özündən əvvəlki Azərbaycan dövlətlərinin ərazisi ilə müqayisə edin, oxşar və fərqli cəhətləri tapın.

12 imamın təbliğinə əsaslanan qızılbaşlıq bu imperiyanın rəsmi ideologiyası idi.

Geniş ərazilərin fəthi ilə yanaşı, Şah I İsmayıl mərkəzi hakimiyyətin gücləndirilməsinə xüsusi diqqət ayırdı. Onun hakimiyyəti dövründə Şirvanşahlar dövləti və Şəki hakimliyi Səfəvilərə tabe edildi. Lakin onların daxili müstəqilliklərinə toxunulmamışdı.

Şah I İsmayılın tədbirləri nəticəsində güclü mərkəzləşdirilmiş dövlət aparatı formalaşdırıldı. Məmur özbaşınalıqlarına son qoyuldu və daxili sabitlik təmin edildi. İqtisadi həyat canlandı, əhalinin güzəranı yaxşılaşdı.

S

Sizcə, mərkəzi hakimiyyətin gücləndirilməsinin hansı üstünlükləri vardır?

T

Araşdırma aparıb sxemi tamamlayın.

| Səfəvi şeyxlərinin rəqibləri | Döyüşlər | Döyüşlərin nəticəsi |
|---|---|---|
| | | |

## Vahid Azərbaycan dövlətini quran hökmdar

Şah I İsmayılın (1501–1524) vəfatından sonra on yaşında olan oğlu Təhmasib şah elan edildi. I Təhmasibin hakimiyyətinin ilk illərində qızılbaş əmirlərinin müstəqillik meyilləri güclənmişdi. Lakin yaşa dolduqca gənc şah dövlət idarəçiliyini tamamilə öz əlində cəmləşdirib özbaşınalıqların qarşısını aldı. O bu məsələdə anası Taclı bəyimin məsləhətlərindən faydalanmışdı. Atasından fərqli olaraq, I Təhmasib Şirvanşahların və Şəki hakimlərinin daxili müstəqilliklərinə "dözmək" fikrində deyildi.

XVI yüzilliyin 30-cu illərində Şirvanşahlar dövlətində daxili sabitlik pozulmuş, üsyan baş vermişdi. Bundan istifadə edən Şah I Təhmasib Şirvana qoşun yeritdi. *Nəticədə 1538-ci ildə Şirvanşahlar dövlətinin varlığına son qoyuldu, Onun yerində Şirvan bəylərbəyliyi yaradıldı.* Şah I Təhmasibin qardaşı Əlqas Mirzə Şirvanın ilk bəylərbəyi təyin edildi. Lakin Əlqas Mirzə sonralar qardaşına qarşı qiyam qaldırmış və Osmanlı sarayında sığınacaq tapmışdı. Sultan Süleyman Qanuninin 1548-ci ildə baş verən yürüşündə yaxından iştirak edən Əlqas Mirzə əsir götürülmüş və edam edilmişdi.



I Təhmasib

Şəki hakiminin Əlqas Mirzə ilə əlbir olması, onun Osmanlı sarayına qaçmasına şərait yaratması I Təhmasibin gözündən yayınmadı. 1551-ci ildə Səfəvi qoşunları Şəkiyə hücum etdi. Şəki hakimliyi ləğv edildi. **Beləliklə, vahid Azərbaycan dövlətinin yaradılması prosesi başa çatdı.**

Layihə

# 15 Səfəvi-Osmanlı münasibətləri

**II Bəyazid, Sultan I Səlim, Çaldıran döyüşü, I Təhmasib, Sultan Süleyman Qanuni, Amasiya sülhü**



Sultan II Bəyazid

Həsən padşah Bayandurun vəfatından sonra ağqoyunlular və osmanlılar arasında silahlı toqquşmalar dayanmışdı. Nə Bayandurlu sülaləsinin hökmdarları, nə də osmanlılar bu toqquşmalarda maraqlı idi. Lakin Azərbaycan Səfəvi dövlətinin yaranması Osmanlı sarayında narahatlığa səbəb oldu.

Sultan II Bəyazid Azərbaycanda baş verən hadisələri diqqətlə izləyirdi. Şah I İsmayıl isə Osmanlı dövləti ilə münasibətlər qurmaqda maraqlı idi. O, II Bəyazidlə mehriban dostluq və qonşuluq münasibətləri yaratmağa nail oldu. Osmanlı sultanı da yeni yaranmış dövləti tanıdı və Səfəvilər dövləti ilə diplomatik əlaqələr yaratdı. Lakin Sultan I Səlimin dövründə bu münasibətlər gərginləşməyə başladı.



Sultan I Səlim

## Dostluq niyə pozuldu?

Sultan I Səlim (1512–1520) səfəvilərin Azərbaycanda və Anadoluda möhkənlənməsini özü üçün təhlükə hesab edirdi. Xüsusilə qızılbaşların Anadoludakı fəaliyyətləri onu çox narahat edirdi. Səfəvilər burada böyük nüfuza sahib idilər. Şah I İsmayılın şöhrətinin artması, onun türk-islam dünyasında mənəvi və siyasi liderə çevrilməyə başlaması I Səlimin ürəyincə deyildi. Osmanlıların Anadolu və Azərbaycanda iqtisadi maraqları da var idi. Onlar buradan keçən mühüm ticarət yollarına nəzarəti ələ almaq istəyirdilər.

Şah I İsmayılın da hakimiyyətini qərbə doğru genişləndirmək niyyəti var idi. Təriqət şeyxi olan Şah I İsmayıl öz nüfuzunu islam dünyasına yaymağa çalışırdı.

Layihə

Buna baxmayaraq o, hakimiyyətinin ilk illərində Osmanlı dövləti ilə müharibədən çəkinir, dostluq münasibətləri saxlamağa üstünlük verirdi.

Lakin mümkün müharibəyə o da hazırlıqlar görməyə başlamışdı. O, Avropa dövlətlərindən ordusuna odlu silahlar almağa çalışırdı. Çünki bilirdi ki, Osmanlı dövlətinin əsas üstünlüyü məhz bundadır. Şah I İsmayıl bu məqsədlə Roma papası, Venesiya, Portuqaliya dövlətləri ilə diplomatik əlaqələr yaratdı. Lakin onun İran körfəzi vasitəsilə Portuqaliyadan odlu silah almaq cəhdləri baş tutmadı. Əvəzində portuqallar Hörmüz adasında möhkəmlənərək Səfəvilərin Hind okeanına çıxışını bağladılar.

Cədvəli tamamlayın.

| SULTAN I SƏLİMLƏ ŞAH I İSMAYIL ARASINDA MÜNASİBƏTLƏRİN GƏRGİNLƏŞMƏSİNƏ SƏBƏB OLAN | | |
|---|---|---|
| siyasi amillər | iqtisadi amillər | dini amillər |
| | | |

Mənbələrdə Şeyx Səfi dəfələrlə “pir-i-türk” (Türkün piri) adlandırılmışdır.Belə mənbələrin birində Şeyx Səfinin Ərdəbildəki iqamətgahında digər etnoslarla müqayisədə türklərə daha böyük ehtiram göstərilməsi xüsusi olaraq vurğulanır: “Biz Ərdəbildə Şeyx Səfinin evində olarkən bizim üçün süfrəyə qara çörək və su gətirdilər. Qəflətən daxil olan bir neçə türk üçün isə ağ çörək və bal gətirdilər”.

*Zabil Bayramlı. “Azərbaycan Səfəvi dövləti”*

## Qardaş qırğını – Çaldıran döyüşü

O dövrün iki qüdrətli hökmdarı Maku yaxınlığındakı Çaldıran düzündə qarşı-qarşıya gəldi. Sayca Səfəvi qüvvələrindən, azı, iki dəfə üstün olan Osmanlı qoşunları üç yerə bölünmüşdü. Mərkəzdə Sultan I Səlimin də olduğu dəstələr səf tuturdu. Bu dəstə, əsasən, qapıqulu və yeniçəri birliklərindən ibarət idi. Yeniçərilər tüfənglə silahlanmışdılar. Piyada döyüşən bu qüvvələrə I Səlim böyük ümidlər bəsləyirdi.

İki türk-müsəlman dövlətinin müharibə etməsinə necə baxırsınız?

Sultanın əsas üstünlüklərindən biri də ordusunun top və tüfənglərlə silahlanması idi.

Osmanlı sultanı mərkəzdəki qüvvələrin qarşısına toplar düzmüş, topların ön tərəfinə isə xüsusi dəstə yerləşdirmişdi. Bu dəstə topları “gizlətmək” tapşırığı almışdı. Əgər qızılbaş qüvvələri mərkəzə hücüm edərdisə, bu dəstə kənara çəkilməli, atlı Səfəvi qoşunları birbaşa top atəşi altına düşməli idi. Osmanlılar döyüşlərdə qəhrəmanlığı və igidliyi ilə ad çıxarmış qızılbaş süvariləri ilə qarşı-qarşıya gəlməkdən çəkinirdilər.

Layihə

**BUNU BİLMƏK MARAQLIDIR**

Şah I İsmayıl Çaldıran düzünə çatdıqdan sonra qoşun başçıları ilə toplantı keçirdi. Şah onları əzmkarlıqla vuruşmağa çağırdı: *“Bizim hamımızda iman və Vətəni müdafiə hissləri çox güclüdür. Bununla ən güclü dövlətləri belə diz çökdürmək mümkündür. Biz ya gərək fəth olunaq, ya da məmləkətin müdafiəsi üçün son nəfəsədək mübarizə aparaq. Əgər bu mübarizədə süstlük etsək, həm Vətənimizi, həm də həyatımızı itirəcəyik”.*

**MEHMAN SÜLEYMANOV**
*“Səfəvilər, Şah İsmayıl Səfəvi”*
*kitabından*

Sağ və sol cinahları isə süvarilər qorumalı idi. Göründüyü kimi, Osmanlı sultanı qızılbaşlarla döyüşə ciddi hazırlaşmış, kiçik detalları belə nəzərdən qaçırmamışdı.

Şah I İsmayıl isə Osmanlı sultanının gücünü tələsik qiymətləndirmişdi. O, Həmədanda olarkən Sultan I Səlimin təhqiredici məktubunu alandan sonra döyüşə hazırlaşdı. Bütün Səfəvi qüvvələrinin cəm olmasını gözləmədən döyüşün baş verəcəyi əraziyə doğru irəlilədi. Şah öz süvarilərinə çox arxayın idi. Buna görə qoşununun azlığı onu qorxutmurdu. Onlar əvvəllər də özlərindən sayca çox olan düşmənləri məğlub etməyi bacarmışdı. Döyüşçülər pərəstiş etdikləri şahın yolunda ölümə belə hazır idilər.

Səfəvilərin piyada qoşun birlikləri yox idi. Onlar süvari döyüşə üstünlük verirdilər. Qızılbaş atlı qoşunu, əsasən, Azərbaycan türkləri və türkmənlərdən təşkil olunumuşdu. Onlar üzbəüz döyüşə üstünlük verir, əlbəyaxa döyüşləri mərdlik əlaməti hesab edirdilər. Səfəvi ordusunda odlu silahlar da yox idi.

Şah I İsmayıl da ordusunu üç hissəyə böldü. Əsas zərbə qüvvələrini cinahlarda yerləşdirdi. Kəşfiyyat vasitəsilə osmanlıların planından xəbərdar olan Səfəvi şahı əsas zərbəni cinahlara vurmağı qərara almışdı. O, bununla top atəşlərindən yayına biləcəyini düşünürdü. Şah İsmayılın planına görə qızılbaş atlıları cinahlara hücum etməli, osmanlı ordusunu mühasirəyə almalı idi.

Çaldıran düzündə döyüş 1514-cü il avqustun 23-də Səfəvi süvarilərinin hücumları ilə başladı. İlk hücumlar bir nəticə vermədi. Lakin Şah I İsmayılın birbaşa döyüşə atılması Səfəvi döyüşçülərini ruhlandırdı. Osmanlıların sol cinahı sürətli Səfəvi hücumu nəticəsində çökməyə başlamışdı. Şah İsmayıl Əli bəy Malkoçoğlunun başçılığı ilə ona qarşı göndərilən dəstəni də pərən-pərən saldı. Şah sərkərdə Malkoçoğlu və onun qardaşını təkbətək döyüşdə məğlub etdi.

Çaldıran döyüşündən fraqment



layihə

Lakin Sultan I Səlimin döyüşə vaxtında müdaxilə etməsi, toplardan və tüfənglərdən istifadə olunması döyüşün taleyini həll etdi. Səfəvi süvarilərinin igidliklə vürüşmasına baxmayaraq, döyüş osmanlıların qələbəsi ilə başa çatdı. Döyüşdə yaralanan Səfəvi şahı vəziyyətin çıxılmaz olduğunu görüb geri çəkilmək əmri verdi. Mühasirədən çətinliklə çıxan Şah İsmayıl ordusunun qalıqları ilə döyüş meydanını tərk etdi. Osmanlılar Səfəvi qoşunlarını təqib etməyə cəhd etmədilər.

Şah İsmayıl mühasirədə olarkən onun oxşarı: “Şah mənəm”, – deyib Osmanlı dəstəsini öz arxasınca apardı. Osmanlılar onu təqib edib əsir götürdülər. Onlar əsil həqiqəti anlayanda isə artıq gec idi.

Yaralı İsmayıl döyüş meydanından çoxdan uzaqlaşmışdı. Sultan qəzəblənib bu cəsur döyüşçünü edam etdirdi. Şah üçün canını fəda edən bu qəhrəman döyüşçünün adı Sultanəli Əfşar idi.

Bu döyüşdən bir neçə gün sonra Sultan I Səlim Təbrizə daxil oldu. Lakin burada möhkəmlənə bilməyib şəhəri tərk etdi. Çaldıran döyüşündə hər iki tərəfdən minlərlə döyüşçü həlak oldu. Səfəvilər Anadoludakı torpaqlarının xeyli hissəsini itirdilər. Bu döyüş ilə iki yüz ilə yaxın davam edən düşmənçiliyin də əsası qoyuldu. Hələ çox qardaş qanı axacaq, iki dövlət bir-birini didərək zəiflədəcəkdi.

**BİLİRSİNİZMİ?**



İsmayıl 14 yaşında ikən qüdrətli dövlət qurmağı bacaran nadir şəxsiyyətlərdəndir. Hələ Lahicanda olarkən orada gözəl təhsil almış, ərəb və fars dillərini, İslam dininin əsaslarını dərindən öyrənmişdi. Onun tərbiyəçiləri İsmayılı mahir döyüşçü kimi yetişdirmişlər.

Döyüşlərdə şəxsən iştirak edən gənc İsmayıl öz şücaəti və cəsarəti ilə tərəfdarlarını ruhlandırırdı. Çaldıran döyüşündə bir neçə Osmanlı sərkərdəsi ilə üzbəüz döyüşmüş və onları məğlub etmişdi. Maraqlıdır ki, Çaldıran döyüşünə qədər qatıldığı döyüşlərdə əldə qılınc həmişə ön cərgədə olsa da, bir dəfə də olsun, yaralanmamışdı. O həm də Azərbaycan türkcəsində yazdığı gözəl şeirləri ilə də məşhur idi. Onun haqqında müxtəlif rəvayətlər danışırdılar.

Deyilənə görə, Çaldıran döyüşündə dəstəsi ilə birlikdə osmanlı topçularının olduğu yerə çatan Səfəvi şahı qılınc zərbəsi ilə topu iki yerə bölür. Bunu eşidən I Səlim şahın qənimət kimi götürülən qılıncını zərblə topa vursa da, cəhdi uğursuz olur. Osmanlı sultanı qılıncın İsmayıla məxsus olduğundan şübhələnir. Lakin həmin döyüşdə özünü İsmayıl kimi qələmə verib əsir düşən və şahını xilas edən qızılbaş əsgəri isə “Qılınc həmən qılıncdır, qol o qol deyil” ifadəsini işlətmişdir. Bu ifadə sonralar zərb-məsələ çevrilmişdir.



Çaldıran döyüşü. Miniatür

Skan et
Çaldran döyüşü



• Sultan I Səlim



• Osmanlı qoşununun topları



• Tüfənglə silahlanmış Osmanlı qoşunu



• Şah I İsmayıl



• Səfəvi qoşununun süvariləri

Miniatür və sxemdən istifadə etməklə müəyyən edin:

- *tərəflərin üstün və zəif cəhətlərini;*
- *Çaldıran döyüşünün nəticələrini;*
- *özünüz üçün çıxartdığınız nəticəni.*



Çaldıran döyüşünün sxemi

Layihə



Sultan I Süleyman

## Şah I Təhmasib və Sultan I Süleyman

I Səlim ilə Şah I İsmayılın arasında başlanan müharibə onların ölümündən sonra da davam etdirildi. 1534-cü ildə Osmanlı sultanı I Süleyman Azərbaycana hücuma başladı. Onun məqsədi paytaxt Təbrizi tutmaq, Səfəvi dövlətini özünə tabe etmək idi. Təbriz tutulsa da, I Süleyman burada möhkəmlənə bilmədi. Qışın yaxınlaşması, ərzaq çatışmazlığı, əhalinin şiddətli müqaviməti I Süleymanı Azərbaycanı tərk etməyə məcbur etdi. Osmanlı sultanı Azərbaycandan Ərəb İraqına yönəldi. Bağdad şəhəri və bütün Ərəb İraqı osmanlıların sultan qoşunları tərəfindən işğal edildi.

Burada qışlayan Sultan I Süleyman 1535-ci ildə növbəti dəfə Azərbaycana yürüş etdi. I Təhmasib sayca üstün və güclü osmanlı qüvvələrinə qarşı **“yandırılmış torpaq”** taktikasına əl atdı: əhali paytaxtdan köçürüldü, taxıl və əkin sahələri yandırıldı, suvarma kanalları və kəhrizlər isə torpaqla dolduruldu. I Təhmasib sayca üstün düşmən ilə dərhal döyüşə girmək istəmirdi. Məqsədi osmanlı qoşununu ərzaqsız qoyub zəiflətmək, sonda həlledici zərbə vurmaq idi. Ərzaqsız qalan və xəstəliklərin əldən saldığı Osmanlı qoşunları Azərbaycanı tərk etməyə məcbur oldu.

Sultan I Süleymanın Səfəvilər üzərinə üçüncü, 1548-ci il yürüşü I Təhmasibin qardaşı Əlqas Mirzənin təhriki ilə başlamışdı. Lakin osmanlılar bu dəfə də uğur qazana bilmədilər. Əlqas Mirzə isə Həmədan yaxınlığındakı döyüşdə əsir düşərək edam edildi. Bu yürüş də gözlənilən nəticəni vermədi.

1552-ci ildə I Təhmasib özü Anadolunun cənub-şərqinə yürüş təşkil etdi. Onun məqsədi osmanlıların bu ərazidən Səfəvilərə qarşı istifadəsini mümkünsüz etmək idi. Səfəvi qoşunu Şərqi Anadoluda dağıntılar törətdi.

Bu hadisə Sultan I Süleymanın 1554-cü ildə Azərbaycana dördüncü yürüşünə səbəb oldu. Lakin osmanlı qoşunları ciddi uğur qazana bilməyincə sultan sülh təklif etdi.

1555-ci il mayın 29-da Amasiyada bağlanan sülhə görə Səfəvilər bütün Azərbaycanı və Şərqi Gürcüstanı əllərində saxladılar, Qərbi Gürcüstan isə osmanlılara verildi. Bağdad daxil olmaqla Ərəb İraqı sultanın əlində qaldı.

Beləliklə, Səfəvi-Osmanlı müharibələrinin ilk mərhələsi başa çatdı. Osmanlı dövləti özünün ən qüdrətli vaxtında belə

S

Sizcə, Şah I Təhmasibin tətbiq etdiyi taktikanın hansı müsbət və mənfi cəhətləri var?

S

Sizcə, Şah I Təhmasib nə üçün Osmanlı qoşunları ilə birbaşa döyüşə girməmişdi?

Layihə



Sultan Süleyman Qanuninin yürüşü. Miniatür

Azərbaycanı ələ keçirə bilmədi. Sultan I Süleyman isə əsl məqsədlərinə nail ola bilmədi. Osmanlı dövləti ilə sülhə nail olunması Şah I Təhmasibin ən böyük uğurlarından biri idi.

S

Nəyə görə Amasiya sülhü Şah I Təhmasibin uğuru hesab edilir?

T Cədvəli tamamlayın.

| SULTAN SÜLEYMAN QANUNİNİN AZƏRBAYCANA YÜRÜŞLƏRİ | | | | |
|---|---|---|---|---|
| | I | II | III | IV |
| səbəbi | | | | |
| nəticəsi | | | | |

T Osmanlı-Səfəvi müharibələri ilə bağlı zaman oxu tərtib edin.




Layihə

# 16 Dövlət idarəçiliyi və sosial-iqtisadi vəziyyət

**şah, vəkil, dini hakimiyyət, tiyul, vergilər, şəhərlər, ticarət**

## Dövlət idarəçiliyi

XVI yüzillikdə Azərbaycanda yeni dövlətin meydana gəlməsi və güclü şah hakimiyyəti ölkəmizdə təsərrüfatın inkişafına əlverişli şərait yaradırdı. Baharlı və Bayandurlu sülalələrindən fərqli olaraq, Səfəvilər güclü mərkəzləşdirilmiş dövlət qura bilmişdilər. Ara müharibələrinə son qoyulmuşdu. Ölkədə siyasi sabitlik hökm sürürdü. Özlərini peyğəmbər nəslinə bağlayan Səfəvilərə əhalinin inamı və ümidləri də bu sabitliyin yaranmasında mühüm rol oynamışdır.

Bu dövlətin idarəçiliyi qədim türk və islam ənənlərinə söykənirdi. Şah həm də dini rəhbər hesab olunurdu. Buna görə də Səfəvi dövləti **teokratik*** dövlət idi.

* **Teokratiya** yunan sözü olub, “teos” *(Tanrı)*, “kratiya” *(idarə etmək)* sözlərinin birləşməsindən əmələ gəlmişdir. Mənası *dini qanunlarla idarə olunan dövlət idarəetmə sistemi* deməkdir.

### XV yüzillikdə Azərbaycanda dövlət idarəetmə sistemi




Sxem əsasında danışın və hər iki yüzillikdə mövcud olan dövlət idarəetmə sistemini müqayisə edin.

Layihə



Dövlətin başında qeyri-məhdud hakimiyyətə sahib olan **şah** dururdu. Şahın yanında məşvərətçi orqan – **Ali Məclis** fəaliyyət göstərirdi. Şahdan sonra **ikinci şəxs vəkil idi.** O, şahın dini və dünyəvi məsələlər üzrə müavini hesab olunur və şahın adından danışmaq hüququna malik idi. Maliyyə işlərinə **vəzir** nəzarət edirdi. Vəqf əmlakı və digər dini məsələlərə isə **sədr** baxırdı.

Ordunun əsasını qızılbaş tərəkəmə elatlarından toplanan **çərik** adlanan atlı dəstələr təşkil edirdi. Onlara **qorçubaşı** adlı əmirlər başçılıq edirdi. Qızılbaş qoşununun ümumi rəhbəri baş komandan olan **əmir əl-ümara** idi.

### XVI yüzillikdə Azərbaycanda dövlət idarəetmə sistemi




Məşvərətçi orqan dedikdə nə başa düşürsünüz?

## Torpaq sahibliyi və vergilər

XVI əsrdə Azərbaycanda xilafət dövründən qalma torpaq mülkiyyət formaları mövcud idi.

| Torpaq mülkiyyəti | Xüsusiyyəti |
|---|---|
| Divani | dövlətə məxsus torpaqlar |
| Xalisə | hakim sülaləyə məxsus idi. Səfəvi şahlarının xalisəsi Ərdəbil və onun ətrafındakı əraziləri əhatə edirdi. |
| Vəqf | dini idarələrə məxsus idi. |
| Mülk | şəxsi torpaqlar idi. |
| İcma | dövlətin mülkiyyətində olub, əhalinin ümumi istifadəsinə verilirdi. |
| Soyurqal | xidmət müqabilində verilən və irsi keçən torpaqlar olub, sahibi vergilərdən azad olunurdu. |
| Tiyul | dövlətə hərbi xidmət müqabilində verilir. Yalnız şahın razılığı ilə irsən keçə bilərdi. |

Layihə

Soyurqal* hələ XV əsrdə Baharlı və Bayandurlu hökmdarları tərəfindən paylanılırdı. XVI əsrdə hakimiyyətə gələn Səfəvi hökmdarları soyurqalın mənfi fəsadlarını düzgün qiymətləndirmişdilər. Səfəvilər dövründə soyurqal məhdud şəkildə məşhur seyidlərə, dərvişlərə, elm xadimlərinə və s. verilirdi. Əvəzində Səfəvi şahları **tiyul** paylanılmasına üstünük vermişdilər. Tiyul dövlətə xidmət müqabilində verilir, irsən keçmirdi. Tiyul sahibi **tiyuldar** adlanırdı. Onlar yığılan vergilərin bir qismini özünə götürür, əsas hissəsini isə dövlət xəzinəsinə verirdilər. Tiyul istisna hallarda və yalnız şahın razılığı ilə irsən keçə bilərdi.

* **Soyurqal** – ("bəxşiş, hədiyyə" deməkdir) – monqollar dövründə meydana çıxmış və irsən keçən feodal torpaq mülkiyyətidir. İlk dövrlərdə hərbi əyanlara iri ərazilər şəklində soyurqal verilirdi.

***XVII əsrdə Səfəvilər dövlətində aparıcı torpaqlar divani və xassə idi.*** Divanidən gələn gəlirlər bütünlüklə dövlət xərclərinin ödənilməsinə sərf edilir, şaha məxsus xassə gəlirləri isə ya xəzinəyə göndərilir, ya da şahın razılığı ilə konkret məsələlərin həllinə yönəldilirdi.

Səfəvilər dövlətində əhali 35 adda vergi ödəyirdi. Onlardan bir neçəsi aparıcı idi.




Vergi toplanması



İlk Səfəvi şahları vergiləri azaldır, bəzi vergiləri isə ləğv edirdilər. Məsələn, ***Şah I Təhmasib sənətkar və tacirlərdən alınan tamğa vergisini ləğv etmişdi.*** Şahın bu addımı XVI yüzilliyin ikinci yarısında sənətkarlıq və ticarətin inkişafına müsbət təsir göstərmişdi.

## Şəhər həyatı və ticarət

Şəhərlərin inkşaf xüsusiyyətləri xeyli dərəcədə onların coğrafi yerləşimi ilə bağlı idi. Beynəlxalq ticarət yolları üzərində yerləşən şəhərlər sabitlik dövründə daha sürətlə inkişaf edirdi. Təbriz, Gəncə, Şamaxı, Dərbənd, Naxçıvan və s. belə şəhərlərdən idi.

Yerli xammalın zənginliyi, ənənəvi sənət sahələrinin varisik prinsipi əsasında ötürülməsi şəhər həyatına təsir göstərən iqtisadi amillər sırasında idi. Azərbaycan şəhərləri ixisaslaşma sayəsində qonşu ölkələrdə yaxşı tanınırdılar. Məsələn, Təbriz toxuculuq məmulatları, yun və ipək xalçaları, pərdələri ilə məhşur idi. Gəncə ənənəvi ipəkçiliyi və silah istehsalı, Dərbənd kətanı və pambıq parçaları, Naxçıvan dulusçuluq məhsulları, Şamaxı isə yüksək keyfiyyətli ipəyi ilə xarici ölkə tacirlərinin diqqətini cəlb edirdi.

Metalişləmə, daşişləmə və şəbəkə məmulatları da sənətkarlığın mühüm sahələrindən idi.

**Sənətkarlıq məmulatları**



**Qalxan**



**Metal qab**



**Şamdan**



**Su qabı**



**Məktub saxlama qabı**



Metal pullar

Siyasi amillər də şəhərlərin inkişafına təsir göstərirdi. Gəncə əvvəlcə Şəddadilərin paytaxtı, sonralar isə Səlcuq canişinliyinin mərkəzi olmuşdu. Səfəvilərin dövründə Qarabağ bəylərbəyinin mərkəzi olduğu üçün yenidən möhkəmləndirilmiş şəhərə çevrilmişdi.

Şamaxı şəhəri Şirvanşahların ənənəvi paytaxtı, Səfəvilər dövründə isə Şirvan bəylərbəyinin mərkəzi olmuşdu. Müharibələr və tez-tez baş verən zəlzələlər Şamaxının inkişafına mənfi təsir göstərmişdir.

Təbriz şəhərinin giriş qapısı



layihə



Dərbənd

Şəklə əsasən Dərbənd şəhərinin coğrafi yerləşimi və quruluşu haqqında danışın.

Təbriz şəhəri Azərbaycanın taxtı hesab edilirdi. Şəhər həm də Azərbaycanın cənub torpaqlarını əhatə edən bəylərbəyiliyin mərkəzi idi. Təbriz şəhəri mühüm sənətkarlıq və ticarət mərkəzi idi. Burada fəaliyyət göstərən bazar Yaxın və Orta Şərqin ən iri bazarlarından birinə çevrilmişdi. Lakin Səfəvi-Osmanlı müharibələri, paytaxtın köçürülməsi Təbrizin ictimai-iqtisadi həyatına mənfi təsir göstərmişdi.

Bakı





Ərdəbil şəhərinin təsviri

Dərbənd XV yüzilliyə qədər Azərbaycanın ən iri liman şəhəri, eyni zamanda mühüm strateji qalası idi.

XV əsrdən etibarən Bakı şəhəri Xəzər hövzəsində əsas liman şəhərə çevrildi. Bakı orta əsrlərdə həm də nefti ilə məhşur idi. Neft dəri tuluqlara doldurulur, karvanlar vasitəsilə qonşu ölkələrə də aparılırdı.

Ərdəbil şəhəri Sasanilər zamanında canişinlik mərkəzi olmuşdur. Ərəb xilafəti dövründə də Ərdəbil mərkəz kimi öz mövqeyini qoruyub saxlamışdır. Cənubdan Şimala gedən beynəlxalq ticarət yollarının üzərində yerləşməsi Ərdəbil şəhərinin daha da böyüməsinə şərait yaratmışdı.

Səfəvilərin dini-siyasi mərkəzinə çevrildikdən sonra Ərdəbil şəhərinin əhəmiyyəti daha da artdı. Burada Səfəvi dərviş təriqətinin nümayəndələrinin məzarları var idi. Bu məzarlar üzərində məqbərələr ucaldılmışdı. Səfəvi dövləti yarandıqdan sonra şəhər daha da abadlaşdırıldı.

Göründüyü kimi, Azərbaycan şəhərlərin inkişafına coğrafi, iqtisadi və siyasi amillər mühüm təsir göstərmişdir.

Layihə

T

Öyrəndikləriniz əsasında cədvəli tamamlayın.

| AZƏRBAYCAN ŞƏHƏRLƏRİNİN İNKİŞAFINA TƏSİR GÖSTƏRƏN | | |
|---|---|---|
| **coğrafi amillər** | **iqtisadi amillər** | **siyasi amillər** |
| | | |

# 17 Mədəniyyət

**Füzuli, Xətai, mədrəsə, miniatür sənəti, rəssamlıq, Şeyx Səfi xalçası**

T

"Azərbaycan mədəniyyətinin inkişafında görkəmli hökmdarlarımızın rolu" mövzusunda müzakirə aparın.

Bir-birini əvəz etmiş Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətlərinin mövcud olduğu dövrdə Azərbaycan mədəniyyətinin inkişafı üçün geniş imkanlar yarandı. Bu dövlətləri idarə edən türk hökmdarlarının elmə, təhsilə və mədəniyyətin ayrı-ayrı sahələrinə göstərdikləri qayğıkeş münasibət mədəni tərəqqi ilə nəticələndi.

## Təhsil və elm

XV–XVI yüzilliklərdə Azərbaycanın bir çox şəhərlərində geniş məktəb və mədrəsə şəbəkəsi var idi. Burada şəriət dərsləri ilə yanaşı, riyaziyyat, məntiq, fəlsəfə, astronomiya kimi fənlər tədris olunurdu. Təhsil müəssisələrinin geniş yayılması, elmin müxtəlif sahələrinin inkişafı savadlı adamların sayının artmasına səbəb olurdu.

Bu dövrdə astronomiya elminin inkişafına müəyyən maraq vardı. XVI əsrin əvvəllərində Şah I İsmayıl Marağa rəsədxanasını bərpa etdirmək üçün məşhur riyaziyyatçı və astronom Qiyasəddini Marağaya göndərdi. Alim rəsədxananın xarabalıqlarını müşahidə edərək onun bərpası üçün 30 il vaxt lazım olduğunu bildirdi. Şah bərpa işlərinə başlamaq haqqında əmr verdi. Lakin Şah İsmayılın ölümündən sonra həmin iş yarımçıq qaldı.



Marağa rəsədxanası. Müasir görünüş

Layihə

Bu dövrün ən məşhur tarixçisi Şah I Təhmasibin sarayında qulluq edən və onun yürüşlərində iştirakçı olan **Həsən bəy Rumlu** idi. O, 12 cildlik "Əhsən-ət-təvarix" ("Tarixlərin ən yaxşısı") əsərini yazmışdı. Bu əsərin dövrümüzədək gəlib çatmış hissələrində Azərbaycan və qonşu ölkələrin tarixinə aid qiymətli məlumatlar vardır.

Azərbaycanda fəlsəfi fikrin inkişafında **Məhəmməd Füzulinin** böyük xidmətləri olmuşdur. Əsərlərindəki dərin fəlsəfi fikirlər onu dövrünün böyük filosofu kimi tanıtmışdı.

Füzuli irsi orta əsrlərin Yaxın və Orta Şərq ictimai-fəlsəfi fikrinin inkişafı tarixində mühüm mərhələdir.

S

Azərbaycan hökmdarlarının elm və təhsilə rəğbəti nə ilə bağlı idi?

## Ədəbiyyat

XV–XVI yüzilliklərdə Azərbaycan ədəbiyyatında doğma türk dilində əsərlər yazılması ənənəsi daha da güclənmişdi. Bu dövrdə mövcud olmuş Azərbaycan türk sülalələrinin hakimiyyəti dövründə hakim dairələr ana dilində olan şeirlərə xüsusi maraq göstərirdilər.

Görkəmli hökmdar-şair **Cahanşah Həqiqinin** XV yüzillikdə Azərbaycanın mədəni həyatının inkişafında mühüm xidmətləri olmuşdur. O, şeirə, musiqiyə böyük həvəs göstərmiş, elmə və təhsilə rəğbət bəsləmişdir.

***Azərbaycan türk dilinin inkişafında Səfəvi hökmdarı Şah I İsmayılın böyük xidmətləri olmuşdur.*** Onun hakimiyyəti illərində sarayda, qoşun içərisində və qismən diplomatik yazışmalarda türk dili işlədilirdi. Şah I İsmayıl özü də Xətai təxəllüsü ilə Azərbaycan-türk dilində gözəl əsərlər yaratmışdır.

**BİLİRSİNİZMİ?**

Xətai öz yaradıcılığında xalq dilindən, əruz və heca vəznlərindən, folklordan istifadə etmişdir. Üç dildə şeir yazmaq qabiliyyəti olan Xətainin əsərlərinin böyük bir qismi Azərbaycan dilindədir. Onun yaradıcılığının təşəkkülü və inkişafına Nəsiminin güclü təsiri olmuşdur. Şah İsmayıl Xətainin Sultan Səlimə müraciətlə yazdığı qəzəli onun hökmdarlıq qürurunu bariz surətdə ifadə edir. 1514-cü ildə Çaldıran döyüşü ərəfəsində Sultan I Səlim Şah I İsmayıla fars dilində şeir göndərmiş, Xətai isə bu şeirə azərbaycanca belə cavab vermişdi:

*"Diyari-eşqə sultanəm, dila, mən də zəmanimdə,*
*Vəzirimdir qəmü-ğüssə, oturmuş iki yanimdə..."*



Layihə



Məhəmməd Füzuli

Azərbaycan ədəbiyyatının inkişafı tarixində Məhəmməd Füzulinin yaradıcılığı müstəsna yer tutur. Onun əsərləri dərin məzmunu ilə Azərbaycan xalqının ictimai və bədii fikir tarixində yeni bir mərhələnin başlanğıcıdır.

Böyük istedada malik olmuş Füzuli əsaslı mədrəsə təhsili almış, fars və ərəb dillərini, riyaziyyatı, təbabəti, məntiqi, astronomiyanı və fəlsəfəni mükəmməl surətdə öyrənmişdi.

Füzuli Azərbaycan mədəniyyətinin çoxəsrlik ədəbi ənənələrini mənimsəmiş, onları inkişaf etdirmiş, ədəbiyyatımıza yeni məzmun, bədii keyfiyyətlər gətirmişdir. Üç dildə ölməz əsərlər yaratmış bu dahi sənətkar Yaxın Şərqin ədəbi mühitinə, Türkiyənin, İranın, Orta Asiya xalqlarının ədəbiyyatına güclü təsir göstərmişdir.

Məhəmməd Füzuli cəmiyyətin mənfi hallarını dövrün hökmdarlarının xarakteri ilə bağlayır, “ədalətli hökmdar” arzusu ilə yaşayırdı. Məhəmməd Füzuli “Şikayətnamə” əsərində yaşadığı dövrdə rüşvətxorluğun, satqınlığın, ikiüzlülüyün, zülmün və ədalətsizliyin tam hökmranlığı haqqında nifrət hissi ilə danışmışdır.

***Füzuli “Bəngü Badə” poemasını Şah I İsmayıla, “Leyli və Məcnun” poemasını isə Osmanlı sultanı Süleyman Qanuniyə təqdim etmişdi.***

Məhəmməd Füzulinin yaradıcılığını dəyərləndirin və hansı sahələri əhatə etdiyini müəyyənləşdirin.

Görkəmli şairlərimiz Füzuli və Xətainin yaradıcılıq istiqamətlərini müqayisə etməklə oxşar cəhətləri müəyyənləşdirin.

Layihə



“Leyli və Məcnun” əsərinə çəkilmiş miniatür, “Məcnun səhrada”. XVI yüzillikdə Şah I Təhmasibin sifarişi ilə çəkilmişdir.

## İncəsənət və memarlıq

Bu dövrdə xəttatlıq geniş yayılmışdı. Kitab nəşri olmadığına görə əsərlər xəttatlar vasitəsilə əlyazma şəklində yazılırdı.

Təbrizin bədii miniatür ustaları geniş şöhrət qazanmışdılar. Şah I İsmayıl görkəmli rəssam **Kəmaləddin Behzadı** Təbrizdəki saray kitabxanasına rəis təyin etmişdi.

Dövrün digər məşhur rəssamı **Sultan Məhəmmədin** çəkdiyi miniatürlər hazırda dünyanın bir çox ölkələrinin muzeylərində mühafizə olunur.

T

Miniatür rəssamlığının inkişaf səbəblərini araşdırın.



"Təbiət qoynunda ziyafət". Səfəvilər dövrünə aid miniatür

**BİLİRSİNİZMİ?**



Əsası Ağqoyunlu hökmdarı Sultan Yaqub dövründə qoyulmuş Təbriz saray kitabxanasına rəssam Kəmaləddin Behzadın rəis təyin edilməsi barədə Şah I İsmayılın 1522-ci ildə verdiyi fərmanda deyilirdi: "Əsrimizin yeganəsi, rəssamların ən görkəmlisi və müzəhhiblərin (əlyazmanı qızıl suyu ilə bəzəyən sənətkarların) ən yüksək nümayəndəsi olan ustad Kəmaləddin Behzada şah kitabxanasının işçilərinə, mühərrirlərə (yazarlara), rəngsazlara (rəng çəkənlərə), nəqqaşlara (naxış vuranlara), laciverd yuyanlara və başqa bu kimi işlərə mənsub olan adamlara başçılıq etmək vəzifəsi tapşırılsın".

Azərbaycanın xalça ustaları misilsiz sənət inciləri yaradırdılar. Şah I Təhmasibin Ərdəbildəki Şeyx Səfi məqbərəsi üçün toxutdurduğu **"Şeyx Səfi xalçası"** hazırda Londonun "Viktoriya və Albert" muzeyində saxlanır.





Azərbaycan xalçaları

Azərbaycan musiqisinin inkişafında Əbdülqədir Marağayinin böyük xidmətləri olmuşdur. O, Yaxın və Orta Şərq ölkələrində geniş yayılan muğam və mahnıların müəllifi kimi geniş şöhrət qazanmışdı.

XV–XVI yüzilliklərdə inşa edilən saraylar, məscidlər, körpülər, məqbərələr dövrün möhtəşəm memarlıq abidələri idi. Bakıda yerləşən **Şirvanşahlar Saray Kompleksi** Azərbaycan memarlığının nadir incilərindəndir.

Qaraqoyunlu hökmdarı Cahanşahın 1465-ci ildə Təbrizdə tikdirdiyi **“Göy məscid”in** divarları mərmərdən və mavi kaşıdan hörülmüşdü.

Şirvanşahlar sarayı



Layihə

Ağqoyunlu Yaqub padşah 1483-cü ildə Təbrizdə böyük bir saray kompleksi inşa etdirmişdi. **“Həşt-behişt”** adlanan bu sarayın kitabxanası, məscidi, xəstəxanası, cıdır meydanı və xiyabanı var idi.

XVI yüzilliyin memarlıq abidələrindən Qusar rayonunun Həzrə kəndində tikilmiş **Şeyx Cüneyd məqbərəsini,** Naxçıvanda **Əlincə çayı üzərində inşa edilmiş körpünü** və **Bakının Şərq darvazalarını** göstərmək olar.

T

Memarlıq abidələrini tikildiyi dövrdəki dövlətlərə uyğun qruplaşdırın.

*Özünü yoxla*



Layihə

## TARİXİMİZƏ AİD MARAQLI MƏNBƏLƏR

O, elə bir insandır ki, əsrlər boyu onun kimisi olmayıb. O, elə bir insandır ki, musiqi bilənlərin hamısının padşahıdır. Səfiyyəddinin üstünlüyü ilə müqayisədə ondan kim danışa bilər? Yunan Pifaqorları kimi yüzlərlə ustad onun qarşısında sadəcə dilənçidir. Zühra utancdan başını arfa kimi onun qarşısında əyir. Beləliklə, dünya onun qəlbi sakitləşdirən səsinin şöhrəti ilə doludur. Riyaziyyat elmlərinin bir qolu olan musiqi qanunlarında, oxşar istedada sahib olan heç kim özünü melodiyalar vasitəsilə ifadə etməyib.

*(Əmir Teymurun musiqiçi Əbdülqadir Marağayi haqqında sözləri)*

Qırğını görən monarx [Səlim] geri çəkilməyə və arxaya dönməyə başladı və döyüş meydanından qaçmağa az qalmışdı ki, Sinan ehtiyac anında köməyə gələrək artilleriyanın yetişdirilməsini əmr etdi və hər iki tərəfə — yeniçərilər və qızılbaşlar – atəş açdı. Əvvəllər bu cəhənnəm maşınlarının nəriltisini eşitməyən qızılbaşların atları düzənliyə səpələnərək dağıldılar, artıq nə öz atlılarının cızıqlarına, nə də təkanlarına tabe oldular. Bildirildiyi kimi, onlar artilleriya üçün deyildilər...o bəllidir ki, [Şah İsmayılın] onun bütün ordusu məğlub ediləcək və qılıncdan keçiriləcəkdi? əgər türk məğlub edilsəydi, İsmayılın gücü Tamerlanın [Əmir Teymur] gücündən də çox olacaqdı, çünki təkcə bu döyüşün şöhrəti onu Şərqin mütləq hökmdarına çevirəcəkdi.

*(Venesiyalı müəllif Katerino Zeno)*

Səfəvi imperiyasının Çaldıran döyüşündə hərbi məğlubiyyətə uğramalarına və hətta osmanlıların son nəticədə səfəvilərdən bəzi bölgələri ələ keçirmələrinə baxmayaraq, döyüşün siyasi nəticəsi Osmanlılar və Səfəvilər arasında pat vəziyyəti idi. Bu pat vəziyyəti daha çox səfəvilərin istifadə etdiyi 'yandırılmış torpaq' strategiyasına görə idi ki, osmanlılara regionda qalmağı qeyri-mümkün edirdi.

*"Şərq İslam Dünyası", Kembric Universiteti*

Ərdəbildən olan Səfəvilər, Ağqoyunlular kimi, türk mənşəli idilər və əvvəlcə dini təriqətin şeyxləri idilər. ... "Qızılbaşlar" kimi tanınan ardıcılları Şah İsmayılın cazibədar şəxsiyyətinə fanatik şəkildə sadiq idilər və sultana ödədikləri vergilərə əlavə olaraq, ona könüllü xərac ödəyirdilər.

Sultanın təbəələri olan Anadolu türk yarıköçəri xalqlarının əzərində, ilahiləşdirilmiş və gündəlik dillərində danışan şah I İsmayıl, Azərbaycanda nümunəvi türk dövləti yaratmışdı. Onlara görə, bu dövlət, bir əsr yarım ərzində ətraf mühitlə əlaqəsini itirmiş və onların ehtiyaclarını anlamaqdan uzaq olan Osmanlı imperiyasından və onun əcnəbilərdən heç bir fərqi olmayan idarəetmə sistemindən min dəfə üstün idi.

*Osmanlı İmparatorluğu tarihi – Robert Mantran*

Layihə

# Buraxılış məlumatı


**AZƏRBAYCAN TARİXİ 7**

*Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün*
*Azərbaycan tarixi fənni üzrə*

**DƏRSLİK**

**Tərtibçi heyət:**



Müəlliflər: **Pərviz Ağalarov**
**Niyaməddin Quliyev**
**Hafiz Cabbarov**
**Elnur Hüseynov**
**Ramil Tanrıverdi**



Buraxılışa məsul **Rafiq Kazımov**
Üz qabığının dizayneri **Novruz Novruzov**
Dizayner və səhifələyici **Ayaz Abdulzadə**
Multimedia mütəxəssisləri: **Yusif Qabilov**
**Kənan Yusifzadə**
Rəssamlar: **Murad Zeynalov**
**Pərviz Ələkbərli**
Redaktor **Gültəkin Cəfərova**
Texniki redaktor **Sevinc Yusifova**
Baş redaktor **Samirə Bektaşi**
Texniki direktor **Allahverdi Kərimov**
Nəşriyyat direktoru **Sevil İsmayılova**

Rəqəmsal mobil texnologiyaların (animasiyalar, multimedia və QR kodlar) dərslik və metodik vəsaitlərdə istifadəsinin ideya müəllifi **Rafiq Kazımov**



© **"Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti**



**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi qrif nömrəsi:**



Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.



Hesab-nəşriyyat həcmi 12,8. Fiziki çap vərəqi 18. Formatı 57x82 1/8.
Kəsimdən sonra ölçüsü: 195x275. Səhifə sayı 144.
Şriftin adı və ölçüsü: məktəb qarnituru 10-12. Ofset kağızı. Ofset çapı.
Sifariş . Tiraj . Pulsuz. Bakı – 2026

**Çapa imzalandığı tarix: 07.2025**

Çap məhsulunu hazırlayan:
**"Şərq-Qərb" ASC**
**(Bakı, AZ1143, Hüseyn Cavid pr., 111)**

Çap məhsulunu istehsal edən:



Layihə

Pulsuz

# Əziz məktəbli!

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən
bir dərs ilində istifadə üçün verilir.

O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri
qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq,
onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli
saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli
yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!



Layihə